Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin Kollegiyasının
03.06.2011-ci il tarixli,
22 nömrəli qərarı ilə təsdiq
edilmişdir

.

ALİ TİBB TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI. REZİDENTURA SƏVİYYƏSİ ÜZRƏ 060929 – «PATOLOJİ ANATOMİYA,. MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA» İXTİSASININ TƏHSİL PROQRAMI.

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Rezidentura səviyyəsinin 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı» tələblərinə, «Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları»na və «Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı»na uyğun hazırlanmışdır.

1.2. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə Təhsil Proqramı tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə rezidentura proqramını həyata keçirən bütün təhsil, elm və tibb müəssisələri üçün məcburidir.

1.3. İstifadə olunan işarələr:

İTP–ixtisas üzrə təhsil proqramı.

ÜFR – ümumi fənnlər, rotasiyalar.

PFR – peşə fənnlər, rotasiyalar.

ÜHM – ümumi hazırlığı mövzuları.

PHM – peşə hazırlığı mövzuları.

MH – Mühazirə (auditoriya saatı).

SM – Seminar (auditoriya saatı).

TM – Təcrübə məşğələ (auditoriya saatı).

SB – Sərbəst məşğələ (auditoriyadan xaric məcburi sərbəst məşğələlər).

As – assistentlik (prosedurların ya əməliyatların yerinə yetirilməsi).

P – sərbəst yerinə yetirilməsi (prosedurların ya əməliyatların yerinə yetirilməsi).

İ – nəticələrin interpretasiyası (prosedurların ya əməliyatların yerinə yetirilməsi).

S – simulyasiya (prosedurların ya əməliyatların yerinə yetirilməsi).

1.4. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisasının xarakteristikası İTP-nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

İxtisasın şifri və adı	Verilən həkim - mütəxəssis ixtisası	Təhsil müddəti	Kreditlərin sayı

060929 – "Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza"	"Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim"	3 il	180

2. HƏKIM-PATOLOQANATOM – MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA ÜZRƏ HƏKİMİN IXTISAS XARAKTERISTIKASı VƏ SƏRIŞTƏLILIYI (KOMPETENSIYASı).

2.1. Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin ixtisas xarakteristikası.

Patoloji anatomiya – bütün xəstəliklərin struktur (morfoloji) və dinamik əsaslarını, xəstə orqanizmdə patoloji proseslər zamanı müxtəlif səviyyələrdə (orqanizm, orqan, toxuma, hüceyrə, ultrastruktur və molekul) inkişaf edən struktur dəyişiklikləri, bu proseslərin forma və xarakterini, qarşılıqlı dinamik əlaqələrini, patogenez və morfogenezlərini, klinik-morfoloji forma və mərhələlərini, patomorfozunu, xəstəlik və digər bütün patoloji proseslərin ağırlıq dərəcəsinin morfoloji əsaslarını; əsas xəstəliklərin və onların ağırlaşmalarının inkişaf mexanizmlərini, tanatogenezi və ölümün bilavasitə səbəbini öyrənir; müalicə tədbirləri zamanı həkim taktikasının nə dərəcədə düzgün seçilməsini, bu müalicə tədbirlərinin vaxtında aparılmasını, həcmini və sair bu kimi göstəriciləri; həmçinin klinik diaqnostika, müalicə və profilaktika tədbirləri zamanı tibb işçiləri tərəfindən yol verilmiş səhvləri və səhlənkarlıqları, nöqsan və qüsurları (yatrogeniya) aşkar edir. Xəstə şəxslərdən götürülmüş üzv və toxuma hissəciklərini, yəni cərrahi və diaqnostik bioptatları müayinə etməklə həyati morfoloji diaqnostikanı – klinik morfologiyanı həyata keçirir. *Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim* dərin fundamental və kliniki peşə hazırlığı tələb edən fəaliyyətə, o cümlədən, elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalıdır. Məhkəmə təbabəti – cinayət və ya mülki işlərin istintaqı, təhqiqatı və ya məhkəmə prosesləri zamanı meydana çıxan tibbi-bioloji məsələlərin öyrənilməsi və həlli ilə məşqul olan tibbi ixtisasdır. Məhkəmə təbabətinin predmeti nəzəri və praktik məhkəmə-tibbi ekspertiza, yəni tibbi və bioloji biliklərin istintaq və məhkəmə praktikası məqsədlərinə tətbiq edilməsidir.

2.2. Proqramın mənimsənilməsi nəticəsində rezidentin kompetensiyasına qoyulan tələblər.

2.2.1. Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim aşağıdakı ümummədəni kompetensiyalara yiyələnməlidir:

ÜFR BAZA TƏHSİLİ.

ÜFR-01. Ümumi bilik və bacarıqlar

ÜFR-01.01. Cəmiyyətdə qəbul edilmiş əxlaq və hüquq normaları çərçivəsində səlahiyyətlərini icra etməyə hazır olmalı və praktiki tibbi fəaliyyət göstərməyi bacarmalı, həkimlik etikası qaydalarına, məxfi informasiya ilə işləmək haqqında qanunlara və normativ hüquqi aktlara riayət etməli, həkimlik sirrini qorumalıdır;

ÜFR-01.02. Sosial əhəmiyyət kəsb edən məsələləri və prosesləri təhlil etməyi bacarmalı, öz professional iş fəaliyyətinə humanitar, tibbi-bioloji və digər klinik elmlərin müxtəlif metodlarını tətbiq etməyi bacarmalıdır;

ÜFR-01.03. Səhiyyə orqan və müəssisələrinin fəaliyyətini nizamlayan qanunvericilik əsasları və direktiv sənədlər; tibbi yardım, patoloji-anatomik və məhkəmə-tibbi xidmət göstərən müəssisələrin fəaliyyətini təyin edən əsas normativ sənədləri, metodik tövsiyyələri bilməlidir;

ÜFR-01.04. Həkim-patoloqanatom, məhkəmə-tibbi ekspertiza üzrə həkimin fəaliyyətindəki hüquqi məsələləri bilməlidir;

ÜFR-01.05. Səhiyyə qanunvericiliyi ilə nəzərdə tutulmuş və tibb müəssisələri üzrə daxili əmrlərlə təsdiq olunmuş tibbi sənədləşməni aparmalıdır;

.

ÜFR-01.06. Məntiqi və əsaslandırılmış təhlil etməyə hazır olmalı, müzakirələr və mübahisələr aparmağı, professional məzmunlu mətnləri redaktə etməyi bacarmalı, əməkdaşlıq etməli, mübahisələrin həllində tolerantlıq göstərərək tərbiyəvi və pedaqoji fəaliyyət göstərməlidir;

ÜFR-01.07. İdarəçilik üsullarını və metodlarını bilməli, müxtəlif tərəddüdlü vəziyyətlərdə öz professional peşə səriştəliliyi çərçivəsində lazımi məsul idarəçilik qərarını verməyi bacarmalıdır;

ÜFR-01.08. Tibbdə, o cümlədən də patoloji anatomiyada etika və deontologiyanın əsasları mənimsəməli və ciddi riayət etməli;

ÜFR-01.09. Tibbi statistika və informatika.

ÜFR-02. Tədqiqat sahəsi

ÜFR-02.01. Patoloji anatomiyanın müasir texniki imkanlarından istifadə etməklə həyati və postmortal morfoloji tədqiqatlar əsasında konkret xəstəliklərin (nozoloji formaların) meydana çıxmasını və inkişafını təmin edən etioloji amillərin təyin edilməsi və onların xarakterinin öyrənilməsi;

ÜFR-02.02. Biopsiya materiallarının tədqiqatı əsasında xəstəliklərin həyati morfoloji diaqnostikası və proqnostik qiymətləndirilməsi, xəstəliklərin əsasında dayanan patoloji proseslərin elmi analizi;

ÜFR-02.03. Xəstəliklərin ümumilikdə və onların ayrı-ayrı əlamətlərinin (simptom və sindromlar) patogenetik inkişaf mexanizmlərinin tədqiqatı, bununla da onların patogenetik müalicəsinin əsasının yaradılması;

ÜFR-02.04. Xəstəliklərin morfogenezinin və tanatogenezinin öyrənilməsi, müxtəlif üzv və toxumaların əsas xəstəliyin formalaşmasındakı (xəstəliklərin poliorqan xüsusiyyətləri) və onun nəticəsindəki rolunun tədqiqatı;

ÜFR-02.05. Etioloji amillərin spesifikliyi əsasında xəstəliklərin simptom və sindromları ilə birlikdə təsnifatlarının yaradılması;

ÜFR-02.06. Bioloji proses kimi ölümün öyrənilməsi, müxtəlif növ zorakı və qəfləti ölümlər zamanı tanatogenetik mexanizmlərin öyrənilməsi, ölümün başvermə müddətinin təyini üsullarının işlənib hazırlanması;

ÜFR-02.07. Travmaların, onların baş verməsinin və nəticələrinin öyrənilməsi, travmalar zamanı sağlamlığa zərərvurmanın, zədələnmələrin müddəti və həyatiliyinin təyini metodlarının işlənib hazırlanması, həmçinin hüquq mühafizə orqanlarının təyinatı ilə zədə törətmiş alətlərin identifikasiyası;

ÜFR-02.08. Müxtəlif mənşəli ekzogen intoksikasiyaların həyati və postmortal diaqnostika və profilaktika metodlarının, sağlamlığa zərərvurma dərəcələrinin işlənib hazırlanması;

ÜFR-02.09. Asfiksiya, barotravma, aşağı və yüksək hərarətlərin orqanizmə yerli və ümumi təsirləri, elektrotravma və radioaktiv şüalanmalar zamanı onların başvermə səbəblərinin və əlamətlərinin, patogenetik və tanatogenetik mexanizmlərinin öyrənilməsi; onların həyati və postmortal diaqnostikası, sağlamlığa zərərvurma dərəcələrinin təyini və profilaktikası üsullarının işlənib hazırlanması;

ÜFR-02.10. Qəfləti ölümlərin baş vermə səbəblərinin və tanatogenetik mexanizmlərinin, diaqnostika və profilaktika metodlarının öyrənilməsi;

ÜFR-02.11. Tibb işçilərinin vəzifə və peşə sahələrində qanunsuz fəaliyyətlərinin öyrənilməsi və səbəblərinin analizi;

ÜFR-02.12. Şəxsiyyətin identifikasiyası məqsədilə fərdi və qrup xarakterli anatomik-fizioloji

.

xüsusiyyətlərin öyrənilməsi;

ÜFR-02.13. Cinsi xarakterli cinayətlər və mübahisəli cinsi vəziyyətlərin təhqiqatı zamanı istintaq və məhkəmə praktikasında meydana çıxmış məsələlərin həllində iştirak və bu məsələlərin həlli yollarının araşdırılması;

ÜFR-02.14. Yenidoğulmanın, vaxtında doğulmanın, dölün yetkinliyinin, bətndaxili həyatın müddətinin və doğuşdan sonra uşağın yaşama müddətinin təyini üsullarının işlənib hazırlanması;

ÜFR-02.15. İstintaq və məhkəmə tədqiqatı məqsədilə bioloji mənşəli maddi sübutların müayinəsi;

ÜFR-02.16. Hadisə yerində və aşkar olunduğu yerdə meyitin müayinəsi; meyitin məhkəmə-tibbi müayinəsi və canlı şəxslərin müayinəsi metodlarının işlənib hazırlanması; həmçinin hüquq mühafizə orqanlarını maraqlandıran məsələlərin həlli məqsədilə istintaq və məhkəmələr tərəfindən göndərilmiş iş materiallarının analizi.

2.2.2. Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:

PFR-A. PATOLOJİ ANATOMİYA (AUTOPSİYA VƏ BİOPSİYA).

PFR-A.1. PATOLOJİ ANATOMİYANıN ÜMUMİ SUALLARı

Peşə bilikləri.

PFR-A.1.1. Azərbaycan Respublikasında patoloji-anatomik xidmətlərin təşkili və həyata keçirilməsi, strukturu və fəaliyyəti. Səhiyyə sistemində yeri, rolu və əhəmiyyəti.

PFR-A.1.1a. Patoloji-anatomik xidmət sahəsinin əsasnaməsi, direktiv, normativ, metodiki və digər nizamlayıcı sənədləri.

PFR-A.1.1b. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya" Birliyi. Birliyin strukturu və iş fəaliyyəti. Birliyin Patoloji Anatomiya Bürosu. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya" Mərkəzi. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya" Birliyi.

PFR-A.1.1c. Patoloji anatomiyanın maddi-texniki bazası və patoloji-anatomik xidmətin kadr potensialı. Patoloji-anatomik şöbələrin quruluşu, təchizat və təminatı, aparat və avadanlıqları, inventarları, reaktiv və medikamentləri.

PFR-A.1.1d. Uşaq patologiyaları və neonatoloji patologiyalar üzrə patoloji-anatomik xidmətin xüsusiyyətləri və respublikada bu xidmətlərin təşkili.

PFR-A.1.1e. Azərbaycan Respublikasında patoloji-anatomik xidmətin məhkəmə-tibbi ekspertiza ilə birgə fəaliyyəti.

PFR-A.1.2. Həkim-patoloqanatomun və Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin fəaliyyətindəki hüquqi məsələlər.

PFR-A.1.2a. Patoloqanatomların hüquq və vəzifələri, vəzifə borcları, peşə məsuliyyətləri.

.

PFR-A.1.2b. Patoloji-anatomik xidmətin sənədləşdirilmə işləri, hesabatları, statistik analizi.

PFR-A.1.2c. Patoloji anatomiya şöbələrində əməyin elmi təşkili, əmək təhlükəsizliyi və texniki təhlükəsizlik məsələləri.

PFR-A.1.3. Autopsiya (seksiya) materiallarının müayinəsi xüsusiyyətləri.

PFR-A.1.3a. Ölmüş xəstə barədə ilkin məlumatların qiymətləndirilməsi. Xəstəlik tarixi ilə tanışlıq. Laborator, klinik, anamnestik və digər məlumatların öyrənilməsi və qiymətləndirilməsi.

PFR-A.1.3b. Patoloji-anatomik təşrihin texnikası. İnfeksion xəstəliklər və ya infeksion xəstəliklərə şübhə hallarında, karantin infeksiyalar zamanı, onkoloji xəstəliklər, ürək-damar sistemi xəstəlikləri, sinir xəstəlikləri, ruhi xəstəliklər, endokrin xəstəliklər, uşaq xəstəlikləri, neonatoloji patologiyalar, ölüdoğulmuşların təşrihi, doğuş patologiyaları və s. hallarda meyit müayinələrinin metodiki xüsusiyyətləri.

PFR-A.1.3c. Meyitlərin patoloji-anatomik müayinələri zamanı histoloji, sitoloji, bakterioloji, parazitoloji, virusoloji, seroloji, biokimyəvi, məhkəmə-kimyəvi, immunoloji, immunhistokimyəvi tədqiqatlar üçün meyit materiallarının götürülməsi qaydaları.

PFR-A.1.3d. Meyitlərin patoloji-anatomik müayinələrinin sənədləşdirilməsi qaydaları və xüsusiyyətləri. Təşrih protokolununun tərtib edilməsi qaydaları. Təşrih protokolunun quruluşu. Patoloji-anatomik diaqnozun quruluşu və tərtib edilməsi qaydaları. Klinik-anatomik epikrizin tərtibi qaydaları. Ölüm haqqında həkim şəhadətnaməsinin doldurulması.

PFR-A.1.3e. Meyitlərin saxlanılması, fiksasiyası xüsusiyyətləri.

PFR-A.1.3f. Patoloji anatomiyada muzey işi.

PFR-A.1.4. Autopsiya (seksiya) və biopsiya materiallarının mikroskopik müayinələri xüsusiyyətləri.

PFR-A.1.4a. Histoloji laboratoriyaların işinin təşkili və quruluşu.

PFR-A.1.4b. Biopsiya materiallarının qəbulu qaydaları, onların sənədləşdirilməsi, nişanlanmaları, tikələrin kəsilməsi və fiksasiyası qaydaları.

PFR-A.1.4c. Autopsiya və biopsiya materiallarının arxivlərdə saxlanılma qaydaları və xüsusiyyətləri.

PFR-A.1.4d. Klinik məlumatların öyrənilməsi və qiymətləndirilməsi qaydaları.

PFR-A.1.5. Histoloji materialların tədqiqatının əsasları.

PFR-A.1.5a. Histoloji materialların laborator işlənmələrinin müxtəlif üsulları. Materialların hematoksilin və eozinlə, hematoksilin və pikrofuksinlə, orseinlə, sudan-3-lə, azanla, konqo boyası ilə boyanmaları, gümüş duzları ilə impreqnasiyası xüsusiyyətləri.

PFR-A.1.5b. Histoloji materialların əlavə histokimyəvi üsullarla müayinə metodikaları.

PFR-A.1.5c. Histoloji materialların əlavə mikroskopik müayinə üsulları. Morfometrik, sitogenetik, polyarizasiyalı-mikroskopik, faza-kontrast, fermentativ, histoenzim-atik, immunmorfoloji, elektron-mikroskopik, auto-radioqrafik, mikrospektrofotometrik, sitoloji müayinə üsulları.

PFR-A.1.6. Xəstəlik və patoloji proseslər haqqında ümumi məlumat.

PFR-A.1.6a. Xəstəliklər, onların etiologiyası və patogenezi, morfogenez. Nozologiya,, simptom və sindromlar, ağırlaşma.

PFR-A.1.6b. Xəstəliklərin öyrənilməsində orqano-patoloji, sindromoloji və nozoloji prinsiplər, xəstəliklərin patomorfozu və tanatogenez haqqında təlim. Patomorfoz.

PFR-A.1.6c. Həkim səhvi. Terapiyanın patologiyası – yatrogeniya.

PFR-A.1.6d. Klinik və patanatomik diaqnozlar arasında uyğunsuzluqlar, kateqoriyaları.

PFR-A.1.7. Patoloji-anatomik diaqnostikanın ümumi prinsipləri və klinik təbabət üçün onun əhəmiyyəti.

PFR-A.1.7a. Patoloji-anatomik diaqnozun quruluşu və qurulma prinsipləri. Əsas xəstəlik. Rəqabətedici xəstəliklər. Fon xəstəliyi. Yanaşı xəstəlik. Əsas xəstəliyin ağırlaşmaları. Ölümün bilavasitə səbəbi.

PFR-A.1.7b. Xəstəliklərin, travmaların və ölüm səbəblərinin Beynəlxalq təsnifatının patoloji-anatomik təcrübədə tətbiq edilməsi.

PFR-A.1.7c. Klinik-anatomik diaqnozlar. Klinik və patoloji-anatomik diaqnozların uyğunluğu və uyğunsuzluğu halları. Bu uyğunsuzluqların kateqoriyaları.

PFR-A.1.7d. Müalicə və diaqnostika işləri üzərində patoloji-anatomik nəzarət.

PFR-A.1.7e. Klinik-anatomik konfranslar, onların təşkili və keçirilməsi qaydaları. Müalicə-nəzarət komisiyasının işində iştirak.

PFR-A.1.7f. Autopsiya (seksiya) və biopsiya materiallarında mikroskopik tədqiqatların nəticələrinin tərtib edilməsi, rəyin təsviri və tərtibi qaydaları.

PFR-A.1.8. Həkim patoloqanatomun peşə fəaliyyətində etika və deontologiya məsələləri.

PFR-A.1.8a. Həkim etikası və deontologiyasının əsasları.

PFR-A.1.8b. Həkim patoloqanatomun peşə fəaliyyətindəki etika və deontologiyanın xüsusiyyətləri.

PFR-A.1.9. "Xəstəliklərin Beynəlxalq Təsnifatı"nın tələblərinə uyğun patoloji-anatomik diaqnozun tərtib olunması və ölüm haqqında həkim şəhadətnaməsinin doldurulma qaydaları.

PFR-A.1.10. Sanitar maarifləndirmənin forma və metodları.

PFR-A.1.11. Mülki müdafiənin tibbi xidmətinin təşkili məsələləri.

Peşə bacarıqları.

PFR-A.1.12. Müayinə olunacaq obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi.

.

PFR-A.1.13. Autopsiya materiallarının mikroskopik müayinəsi.

PFR-A.1.14. Xəstəliyin morfoloji əlamətlərinin digər xəstəliklərin uyğun morfoloji dəyişiklikləri ilə diferensial diaqnostikasının aparılması.

PFR-A.1.15. Diaqnozun dəyişilməsi hallarında son patoloji-anatomik diaqnozu göstərmək, müvafiq statistika orqanlarına üzərində "ilkin şəhadətnamənin əvəzinə", yaxud da "son şəhadətnamənin əvəzinə" qeyd edilmiş yeni ölüm haqqında şəhadətnaməni göndərmək.

PFR-A.1.16. Müvafiq tibbi sənədlərin tərtib edilməsi.

PFR-A.1.17. Digər həkim-mütəxəssis və tibb müəssisələri ilə qarşılıqlı iş əlaqələrinin qurulması.

PFR-A.1.18. Peşə fəaliyyətinin planlaşdırılması.

PFR-A.1.19. Orta və kiçik tibb personalının fəaliyyətinə rəhbərlik.

PFR-A.2. ÜMUMİ PATOLOGİYA (ÜMUMI PATOLOJI-ANATOMIK PROSESLƏR).

Peşə bilikləri.

PFR-A.2.1. Patoloji anatomiyanın tarixi.

PFR-A.2.1a. Azərbaycanda patoloji anatomiya elminin və praktik patoloji-anatomik xidmət sahəsinin tarixi.

PFR-A.2.1b. Xarici ölkələrdə patoloji anatomiyanın tarixi.

PFR-A.2.2. Ümumpatoloji proseslərin ümumi qanunauyğunluqları.

PFR-A.2.3. Hüceyrə patologiyası.

PFR-A.2.3a. Zədələnmə (alterasiya). Məzmunu, səbəbləri, mexanizmi, növləri, morfologiyası.

PFR-A.2.3b. Hüceyrə və toxuma quruluşu barədə müasir təsəvvürlər.

PFR-A.2.3c. Hüceyrədə patoloji proseslərin ultrastruktur və işıq mikroskopu səviyyələrində xarakteristikası.

PFR-A.2.4. Degenerasiya (distrofiya).

PFR-A.2.4a. Degenerasiya barədə ümumi məlumat. Məzmunu, səbəbləri, təsnifatı, növləri və nəticələri. Morfogenetik mexanizmləri.

PFR-A.2.4b. Parenximatoz zülal, piy və karbohidrat distrofiyaları. Patologiyada yeri və əhəmiyyəti. Təsnifatı. İrsi lipidozlar və qlikogenozlar.

PFR-A.2.4c. Stromal-damar (mezenximal) distrofiyalar. Mezenximal zülal distrofiyaları. Amiloidoz: Etio-patogenez, morfoloji xüsusiyyətləri, klinik-morfoloji formaları. Amiloid maddəsinin makroskopik və mikroskopik təyini üsulları. Mezenximal piy və karbohidrat distrofiyaları.

PFR-A.2.4d. Qarışıq distrofiyalar. Xromoproteid, lipoproteid və nükleoproteid mübadilə pozğunluqları. Mineral distrofiyalar. Kalsinozlar. Daşların əmələ gəlmə mexanizmləri və növləri.

PFR-A.2.5. Hüceyrə ölümü. Məzmunu, səbəbləri, növləri (nekroz və apoptoz).

PFR-A.2.5a. Nekroz haqqında ümumi məlumat. Nekrotik prosesin mərhələləri. Nekrozun etioloji təsnifatı, növləri.

PFR-A.2.5b. Nekrozun klinik-morfoloji formaları: koaqulyasion və kollikvasion nekrozlar, sekvestr, qanqrena, infarkt. Morfoloji xüsusiyyətləri.

PFR-A.2.5c. İnfarkt nekrozun klinik-morfoloji formalarından biri kimi. İnfarktın səbəbi, forması, rəngi, növləri. Müxtəlif üzv və toxumalarda infarktın xüsusiyyətləri. İnfarktın morfologiyası, morfogenezi, nəticələri, əhəmiyyəti.

PFR-A.2.5d. Apoptoz. Məzmunu. Fizioloji proselərdə və patologiyada əhəmiyyəti.

PFR-A.2.6. Tanatologiya.

PFR-A.2.6a. Ölüm və meyit əlamətləri barədə təlim (tanatologiya).

A.2.6a(1) Ölümün səbəbi. Tanatogenez. Ümumi məsələləri. Terminal vəziyyət barədə ümumi məlumat. Ölüm prosesinin mərhələləri: aqoniyaönü dövr, terminal pauza, aqoniya, klinik ölüm, bioloji ölüm. Terminal dövrdə üzv və toxumalarda baş verən patoloji və biokimyəvi dəyişikliklər. Ölüm əlamətləri. Ölümün müəyyənləşdirilməsində müvafiq alətlərin əhəmiyyəti.

A.2.6a(2) Ölüm faktının təyini. Ölümün nisbi və mütləq əlamətləri. Ölmə prosesi.

A.2.6a(3) Ölümün təsnifatı. Bioloji və klinik ölümlər. Qeyri-zorakı ölüm. Qəfləti ölüm. Zorakı ölüm, növləri (qətl, intihar, bədbəxt hadisə).

PFR-A.2.6b. Supravital reaksiyalar və meyit dəyişiklikləri. Supravital reaksiyalar. **Erkən meyit əlamətləri.**

A.2.6b(1) **Meyit ləkələri.** Meyit ləkələrinin əmələ gəlmə mexanizmi, müddəti, rəngi, lokalizasiyası, stadiyaları (hipostaz, diffuziya, imbibisiya). Tədqiqat metodları. Meyit ləkələrinin qançırlardan diferensiasiyası. Meyit ləkələrinin orqanizmin patoloji vəziyyətindən asılılığı.

A.2.6b(2) **Meyit qacıması (əzələ qacıması).** Meyit qacımasının inkişaf mexanizmi, əzələ qacımasında ATF-in rolu, əzələ qacımasının mexanizmi nəzəriyyələri. Əzələ qacımasının başlanma müddəti, gedişi, boşalması. Əzələ qacımasının yaşdan, fiziki inkişafdan, xəstəlik və digər səbəblərdən asılılığı. Kataleptik meyit qacıması.

A.2.6b(3) **Meyitin quruması.** İnkişaf mexanizmi, başlanma müddəti, endogen və ekzogen amillərin təsirindən asılılığı.

A.2.6b(4) **Meyitin soyuması** İnkişaf mexanizmi, ardıcıllığı, endogen və ekzogen amillərdən asılılığı. Bədənin ayrı-ayrı nahiyələrinin, üzv və toxumalarının soyuma müddətləri və ardıcıllığı.

A.2.6b(5) **Autoliz.** İnkişaf mexanizmi. Hüceyrədaxili və digər fermentlərin rolu. Bəzi daxili üzvlərdə autolitik prosesin gedişi xüsusiyyətləri.

PFR-A.2.6c. **Gecikmiş meyit əlamətləri (dağıdıcı və konservləşdirici).**

A.2.6c(1) **Çürümə.** Ümumi məlumat. Baş vermə səbəbi. Aerob mikroorqanizmlərin çürümə prosesində rolu. Toxumaların parçalanma məhsulları. Çürümənin xarici əlamətləri, onların başvermə müddəti. Çürümənin sürətinin endogen və ekzogen amillərin təsirindən asılılığı.

A.2.6c(2) **Mumifikasiya.** Səbəbləri. Mümifikasiyanın baş verməsində rol oynayan şəraitlər. Qurumanın sürəti, əlamətləri. Süni mumifikasiya.

A.2.6c(3) **Yağmumlaşma.** Səbəbləri. İnkişaf etməsində rol oynayan şərait. İnkişaf etmə müddəti və əlamətləri.

A.2.6c(4) **Torflu aşılanma.** Səbəbləri. İnkişafında rol oynayan şərait. Əlamətləri.

A.2.6c(5) **Neft məhsullarında meyitin konservləşməsi.** Konservləşdirici amillər. Xarici əlamətləri.

A.2.6c(6) **Digər konservləşdirici şəraitlər** (soyuq, duzlu məhlullar və s.)**.**

A.2.6c(7) **Meyitin heyvanlar, həşaratlar və bitkilər tərəfindən dağıdılması.** Meyitin bəzi gəmiricilər, vəhşi və ya ev heyvanları tərəfindən, quşlar, bəzi həşaratlar və balıqlar tərəfindən zədələnməsi, bu zədələrin xarakteri və lokalizasiya xüsusiyyətləri.

Peşə bacarıqları.

PFR-A.2.6d. Meyitə baxış və təşrihin həyata keşirilməsi; meyitin üzv və toxumalarındakı dəyişikliklərin vizual qiymətləndirilməsi və dəqiq təsviri.

PFR-A.2.6e. Ana ölümləri zamanı genital və ekstragenital patologiyaları, güman edilən həkim səhvlərini də nəzərə almaqla meyitin müayinə xüsusiyyətləri.

PFR-A.2.6f. Meyit materiallarının nəticələrinin analiz edilməsi.

PFR-A.2.6g. Ölüm faktının və ölümün baş vermə müddətinin təyin edilməsi.

PFR-A.2.6h. Patoloji-anatomik diaqnozun qoyulması.

PFR-A.2.6i. Klinik-patanatomik epikrizin tərtib edilməsi.

PFR-A.2.6j. Xəstəliklərin və ölüm səbəblərinin "Beynəlxalq Təsnifatı"nın tələblərinə müvafiq qaydada patoloji-anatomik diaqnozun tərtib olunması və "Ölüm haqqında həkim şəhadətnaməsi"nin tərtib edilməsi.

PFR-A.2.7. Qan dövranı və limfa dövranı pozğunluqlarının morfoloji əlamətləri.

PFR-A.2.7a. Arterial doluqanlılıq.

PFR-A.2.7b. Venoz doluqanlılıq. Müxtəlif üzv və toxumalarda kəskin və xroniki ümumi venoz hiperemiyaların morfoloji xüsusiyyətləri.

PFR-A.2.7c. Mikrosirkulyator pozğunluqlar. Onların morfoloji xüsusiyyətləri.

PFR-A.2.7d. Tromboz. Trombun növləri, nəticələri. Koaqulopatiya. DYL-sindrom.

PFR-A.2.7e. Emboliyalar. Məzmunu. Növləri. Trombemboliya. Tromboembolik sindrom. Ağ ciyər arteriyasının trombemboliyası. Piy, hava, qaz, toxuma, mikrob, yad cisim, dölyanı maye emboliyaları. Makroskopik və mikroskopik təyini üsulları.

PFR-A.2.7f. Qanaxma. Təsnifatı. Baş vermə mexanizmlərindən asılı olaraq növləri. Variant və nəticələri.

PFR-A.2.8. İltihab.

PFR-A.2.8a. Ümumi məlumat. Etiologiyası. Təsnifatı. Növləri. Patogenez və morfogenezi. Faqositoz.

PFR-A.2.8b. Ekssudativ iltihablar. Təsnifatı. Növləri. Xarakter xüsusiyyətləri.

PFR-A.2.8c. Proliferativ iltihablar. Təsnifatı. Növləri. Xarakter xüsusiyyətləri.

PFR-A.2.8d. Qranulomatoz iltihab, morfogenezi, morfologiyası. Təsnifatı, növləri.

PFR-A.2.8e. Spesifik iltihablar (spesifik xəstəliklər): vərəm, cüzam, sifilis, skleroma. Etiologiya, morfogenez,

morfologiya, formaları, qranulomaların quruluşu. Vərəm və sifilitik qranulomaların diferensiasiyası.

PFR-A.2.9. İmmun-patoloji proseslər.

PFR-A.2.9a. İmmun sistem barədə ümumi məlumat. İmmunogenez. İmmunogenezin mərkəzi və periferik üzvləri. Retikulo-endotelial sistem. İmmun reaksiyalar. Humoral (antitel) və hüceyrə immuniteti mexanizmləri.

PFR-A.2.9b. Hiperhəssaslıq reaksiyaları. Mexanizmləri. Tez tipli və ləng tipli hiperhəssaslıq reaksiyaları, onların morfoloji təzahürləri.

PFR-A.2.9c. Timusun patologiyaları.

PFR-A.2.9d. Autoimmun proseslər. Autoimmun xəstəliklər. Təsnifatı. İnkişaf mexanizmləri.

PFR-A.2.9e. Birincili və ikincili immun çatışmazlıq sindromları. QİÇS.

PFR-A.2.9f. İİV – infeksiya. Etio-patogenezi. Morfogenezi. Yoluxma yolları. Mərhələləri. Klinik-morfoloji formaları. Morfologiyası. Ağırlaşma və fəsad xüsusiyyətləri.

PFR-A.2.10. Kompensator və mühafizə prosesləri.

PFR-A.2.10a. Onların ümumbioloji əhəmiyyəti. Adaptasiya və dizadaptasiyanın morfoloji təzahürləri, patologiyaları.

PFR-A.2.10b. Regenerasiya. Məzmunu. Səviyyələri. Təsnifatı. Formaları. Növləri. Ayrı-ayrı üzv və toxumalarda regenerasiyanın xüsusiyyətləri.

PFR-A.2.10c. Metaplaziya. Məzmunu. Onkogenezdə onun yeri və əhəmiyyəti.

PFR-A.2.10d. Hipertrofiya və hiperplaziya. Məzmunu. Növləri.

PFR-A.2.10e. Atrofiya. Ümumi məlumat. Növləri.

PFR-A.2.10f. Orqanizasiya (sklerozlaşma). İnkapsulyasiya. Yaraların sağalması. Qranulyasiya toxuması.

PFR-A.3. ONKOMORFOLOGİYA.

PFR-A.3.1. Ümumi onkomorfologiya.

PFR-A.3.1a. Şişlər. Ümumi məlumat. Məzmunu. Xarakter xüsusiyyətləri.

PFR-A.3.1b. Atipizm. Növləri. Morfoloji atipizm, növləri. Anaplaziya və kataplaziya.

PFR-A.3.1c. Şiş toxumasının quruluşu. Şiş toxumasında ikincili dəyişikliklər.

PFR-A.3.1d. Şişlərin böyümə üsulları.

PFR-A.3.1e. Şişlərin inkişafı barədə müasir nəzəriyyələr.

PFR-A.3.1f. Şişin proqressiyası. Morfogenez.

PFR-A.3.1g. Xoş xassəli və bəd xassəli şişlər. Xoş xassəli şişlərin xarakter xüsusiyyətləri. Bəd xassəli şişlərin xarakter xüsusiyyətləri. Metastazvermənin növləri.

PFR-A.3.1h. Displaziya, "carcinoma in situ", erkən xərçəng haqqında anlayış.

PFR-A.3.1i. Şişönü proseslər. Şişlərdə patomorfoz.

PFR-A.3.1j. Şişlərin histogenetik təsnifat prinsipləri. Şişlərin histoloji nomenklaturası və təsnifatı. Xoşxassəli və bədxassəli epitelial (orqanospesifik, orqano-qeyrispesifik), mezenximal şişlər, melanin əmələ gətirən toxumanın şişləri, sinir sisteminin şişləri, qan sisteminin şişləri, teratogen şişlər. .

PFR-A.3.1k. Şişlərin morfoloji diaqnostikası üsulları. Şişlərin morfoloji tədqiqatının müasir üsulları və onların əhəmiyyəti.

PFR-A.3.1l. Şişlərin təsnifat prinsipləri. Xoşxassəli və bədxassəli şişlər. Xarakter xüsusiyyətləri. Şişlərin beynəlxalq təsnifatının və müasir nomenklaturasının ümumi prinsipləri.

PFR-A.3.2. Xüsusi onkomorfologiya.

PFR-A.3.2a. Xüsusi onkomorfologiyaya giriş.

PFR-A.3.2b. Yumşaq toxumaların şişləri.

A.3.2b(1) Birləşdirici toxumanın (fibroz toxumanın) xoş xassəli və bəd xassəli şişləri. Fibromaların xüsusi növləri.

A.3.2b(2) Piy toxumasının xoş xassəli və bəd xassəli şişləri.

A.3.2b(3) Damarlardan inkişaf edən xoş xassəli və bəd xassəli şişlər.

A.3.2b(4) Sinovial toxumalardan inkişaf edən xoş xassəli və bəd xassəli şişlər.

A.3.2b(5) Seroz qişalardan inkişaf edən xoş xassəli və bəd xassəli şişlər.

A.3.2b(6) Yumşaq toxumaların digər histogenezli xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2c. Tənəffüs sisteminin şişləri.

A.3.2c(1) Burunun və udlağın xoş xassəli və bəd xassəli şişləri.

A.3.2c(2) Qırtlağın xoş xassəli və bəd xassəli şişləri.

A.3.2c(3) Traxeyanın, bronxların və ağ ciyərlərin xoş xassəli və bəd xassəli şişləri. Bronxların endobronxial və peribronxial xərçəngləri.

PFR-A.3.2d. Həzm traktının şişləri.

A.3.2d(1) Yemək borusunun xoş xassəli və bəd xassəli şişləri.

A.3.2d(2) Mədənin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2d(3) Mədənin ekzofit, endofit və qarışıq inkişaflı xərçəngləri. Mədə xərçənginin retroqrad limfogen, hematogen və digər metastazları. Mədənin prekanserogen xəstəlikləri.

A.3.2d(4) Bağırsaqların xoş xassəli və bəd xassəli şişləri. Düz bağırsağın xərçəngi.

A.3.2d(5) Qara ciyərin şişləri. Öd yollarının və öd kisəsinin şişləri.

A.3.2d(6) Mədəaltı vəzin xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2e. Sidik sistemi üzvlərinin şişləri.

A.3.2e(1) Böyrəyin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2e(2) Sidik axarlarının və sidik kisəsinin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2e(3) Sidik kanalının xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2f. Kişi cinsiyyət üzvlərinin şişləri.

A.3.2f(1) Xaya və xaya artımlarının xoş xassəli və bəd xassəli şişləri.

A.3.2f(2) Prostat vəzin şişləri.

A.3.2f(3) Cinsiyyət üzvünün şişləri.

PFR-A.3.2g. Qadın cinsiyyət üzvlərinin şişləri.

A.3.2g(1) Yumurtalığın xoş xassəli və bəd xassəli şişləri.

A.3.2g(2) Vulvanın və uşaqlıq yolunun şişləri.

A.3.2g(3) Uşaqlıq boynunun xərçəngi, digər xoş xasəli və bəd xassəli şişləri. Uşaqlıq boynunun prekanserogen prosesləri.

A.3.2g(4) Uşaqlıq cisminin xərçəngönü prosesləri, xərçəngi, digər xoş xassəli və bəd xassəli şişləri.

A.3.2g(5) Uşaqlıq borularının xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2h. Süd vəzlərinin şişləri.

A.3.2h(1) Süd vəzlərinin prekanserogen xəstəlikləri barədə ümumi məlumat.

A.3.2h(2) Mastopatiyalar.

A.3.2h(3) Süd vəzlərinin xərçəngi.

A.3.2h(4) Pecet xəstəliyi.

A.3.2h(5) Süd vəzlərinin digər xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2i. Endokrin vəzlərin və APUD-sistemin şişləri.

A.3.2i(1) Hipofizin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2i(2) Qalxanabənzər vəzin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2i(3) Qalxanabənzərətraf vəzin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2i(4) Böyrəküstü vəzin beyin maddəsinin xoş xassəli və bəd xassəli şişləri. Böyrəküstü vəzin qabıq maddəsinin xoş xassəli və bəd xassəli şişləri.

A.3.2i(5) APUD-sistemin şişləri.

PFR-A.3.2j. Dərinin şişləri.

A.3.2j(1) Dərinin xoş xassəli və bəd xassəli epitelial şişləri.

A.3.2j(2) Melanin əmələ gətirən toxumanın şişəbənzər törəmələri və həqiqi şişləri (melanoma).

A.3.2j(3) Dərinin qeyri-epitelial mənşəli xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2k. Sinir sisteminin şişləri.

A.3.2k(1) Sinir sistemi şişləri barədə ümumi məlumat. Təsnifatı.

A.3.2k(2) Mərkəzi sinir sistemi şişlərinin xüsusiyyətləri. Mərkəzi sinir sistemi şişlərinin təsnifatı, histogenetik növləri.

A.3.2k(3) Mərkəzi sinir sisteminin neyroektodermal şişləri.

A.3.2k(4) Meninqo-vaskulyar şişlər, meninqeomalar.

A.3.2k(5) Periferik sinir sisteminin şişləri.

A.3.2k(6) Vegetativ sinir sisteminin xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2l. Eşitmə və görmə orqanlarının şişləri. Gözün xoş xassəli və bəd xassəli şişləri. Qulağın xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.3.2m. Sümük və qığırdaq toxumalarının şişləri.

A.3.2m(1) Sümük toxumasının xoş xassəli və bəd xassəli şişləri.

A.3.2m(2) Osteomaların xüsusi növləri.

A.3.2m(3) Qığırdaq toxumalarından inkişaf edən xoş xassəli və bəd xassəli şişləri.

A.3.2m(4) Sümük və qığırdaq toxumalarından inkişaf edən digər şişəbənzər törəmələr və şişlər.

PFR-A.4. QAN SİSTEMİNİN VƏ LİMFA SİSTEMİNİN XƏSTƏLİKLƏRİ

Peşə bilikləri.

PFR-A.4.1. Qanyaradıcı və limfa sisteminin normal morfo-funksional xüsussiyyətləri.

PFR-A.4.1a. Mieloid və limfoid hüceyrələrin mənşəyi, strukturu, funksiyaları. Hemopoez prosesi. Hemopoezin nəzəriyyələri.

PFR-A.4.1b. Qanyaranma sisteminin və limfa sisteminin quruluşu.

PFR-A.4.1c. Mieloid toxuma hüceyrələrinin morfologiyası və funksiyası. Limfoid toxuma hüceyrələrinin morfologiyası və funksiyaları. Normal hemoqramma və mieloqramma.

PFR-A.4.2. Qan sisteminin şişləri.

PFR-A.4.2a. Qan sisteminin fizioloji morfo-funksional xüsusiyyətləri. Qan sisteminin şiş prosesləri barədə ümumi məlumat.

PFR-A.4.2b. Leykozlar. Təsnifatı. Ümumi morfoloji xüsusiyyətləri. Etiologiya və patogenezi. Morfogenezi. Ağırlaşmaları. Kəskin və xroniki leykozlar. Təsnifatı. Növləri. Leykozların morfoloji diaqnostikası.

PFR-A.4.2c. Limfomalar. Təsnifatı. Növləri. Etio-patogenezi. Morfogenezi. Limfomaların (qeyri-Hockin və Hockin limfomaları) diaqnostikası.

PFR-A.4.2d. Timusun şişləri. Etio-patogenezi. Morfogenezi. Morfoloji diaqnostikası.

PFR-A.4.3. Anemiyalar.

PFR-A.4.3a. Anemiyalar barədə ümumi məlumat. Təsnifatı. Formaları.

PFR-A.4.3b. Posthemorragik anemiyalar. Baş vermə səbəbləri. Patogenez. Morfogenez. Ağırlaşma və fəsadları. Tanatogenez. Minakov ləkələri. Kəskin və xroniki posthemorragik anemiyalar.

PFR-A.4.3c. Dishemopoetik anemiyalar. Baş vermə səbəbləri və inkişaf mexanizmləri. Təsnifatı. Formaları. Dəmir defisitli anemiyalar: etio-patogenez, morfogenez, təsnifatı, formaları. B_{12} və (və ya) Fol turşusu defisitli anemiyalar: etio-patogenez, patomorfoloji dəyişikliklər. Hipoplastik və aplastik anemiyalar: baş vermə səbəbləri, patogenez, morfogenez, morfoloji dəyişikliklər.

PFR-A.4.3d. Hemolitik anemiyalar. Baş vermə səbəbləri və inkişaf mexanizmləri. Təsnifatı. Formaları. İntravaskulyar və ekstravaskulyar hemolitik anemiyalar. Eritrositopatiyalar, eritrositofermentopatiyalar və hemoqlobinopatiyalar. Talassemiya xəstəliyi.

PFR-A.4.3e. Anemiyaların müxtəlif formalarının markoskopik və mikroskopik diaqnostikası.

PFR-A.4.4. Hemostazın pozulması və hemorragik purpura.

PFR-A.4.4a. Hemofiliya, fibrinoliz və koaqulopatiyalar.

PFR-A.4.4b. DYL-sindrom. Etiopatogenez. Morfogenez. Patomorfoloji dəyişikliklər. Təsnifatı. Klinik-morfoloji formaları.

PFR-A.4.4c. Trombositopeniyalar və trombositopatiyalar.

PFR-A.4.4d. Verlhof xəstəliyi..

PFR-A.4.5. Limfoid toxumalarda meydana çıxan iltihabi və reaktiv dəyişikliklər.

PFR-A.4.5a. Limfadenit. Etiopatogenez və morfogenez. Spesifik və qeyri-spesifik limfoadenitlər.

PFR-A.4.5b. Splenit. Splenomeqaliyalar.

PFR-A.4.5c. Limfadenopatiyalar. Limfoid toxumalarda rast gəlinən reaktiv dəyişikliklər.

PFR-A.4.5d. Timusun normal morfo-funksional xarakteristikası. Timusun iltihabi, onkoloji və qeyri-onkoloji dəyişiklikləri.

PFR-A.5. ÜRƏK DAMAR SİSTEMİ PATOLOGİYALARı

Peşə bilikləri.

PFR-A.5.1. Ürək-damar sistemi xəstəlikləri sosial xəstəliklər kimi. Onların etiologiyaları. Əsas və əlavə risk faktorları. Epidemiologiyası. Təsnifatı.

PFR-A.5.2. Ateroskleroz.

PFR-A.5.2a. Ateroskleroz xəstəliyinin etiologiyası, patogenezi, morfogenezi. Ateroskleroz xəstəliyi sosial xəstəlik kimi. Onun etiopatogenezini izah edən müasir nəzəriyyələr.

PFR-A.5.2b. Aterosklerozun morfogenezi. Makroskopik və mikroskopik inkişaf stadiyaları.

PFR-A.5.2c. Aterosklerozun klinik-morfoloji formaları. Arterioskleroz, növləri. Aterosklerozun patomorfozu, ağırlaşmalar, tanatogenezi.

PFR-A.5.2d. Ayrı-ayrı üzv və toxumalarda meydana çıxan morfoloji dəyişiklikləri.

PFR-A.5.2e. Ürək, beyin, böyrək, aorta, müsariqə və ətraf formalarının morfologiyası.

PFR-A.5.3. Hipertoniya xəstəliyi və hipertenzion vəziyyətlər.

PFR-A.5.3a. Simptomatik hipertoniyalar. Simptomatik hipertoniyalar. Hipertonik sindrom. Nefrogen hipertoniya. Endokrin və digər mənşəli simptomatik hipertoniyalar.

PFR-A.5.3b. Hipertoniya xəstəliyinin etiologiyası, patogenezi, morfogenezi. Etiopatogenezində rol oynayan amillər. Hipertoniya xəstəliyinin patogenezini izah edən müasir nəzəriyyələr. Təsnifat prinsipləri.

PFR-A.5.3c. Xoş xassəli hipertoniya, mərhələləri. Ayrı-ayrı üzv və toxumalarda meydana çıxan morfoloji dəyişikliklər.

PFR-A.5.3d. Hipertoniya xəstliyinin serebral, ürək və böyrək formaları, morfologiyası.

PFR-A.5.3e. Bəd xassəli hipertoniya. Hipertonik kriz, morfoloji dəyişikliklər.

PFR-A.5.4. Ürəyin işemik xəstəliyi

PFR-A.5.4a. Ürəyin işemik xəstəliyi sosial xəstəlik kimi. Ürəyin işemik xəstəliyinin etiologiyası, , risk faktorları. Patogenezi, morfogenezi, morfologiyası, ağırlaşmaları, tanatogenezi. Təsnifatı.

.

PFR-A.5.4b. Ürəyin kəskin işemik xəstəliyi. Miokardın infarktı. Növləri. Miokard infarktının bilavasitə başvermə səbəbləri, ölümün bilavasitə səbəbləri. Miokard infarktının patogenezi, morfogenezi, inkişaf mərhələləri, patoloji anatomiyası.

PFR-A.5.4c. Miokardın kəskin işemik distrofiyası.

PFR-A.5.4d. Ürəyin xroniki işemik xəstəliyi. Kardiosklerozlar. Xroniki ürək çatışmazlıqları.

PFR-A.5.5. Kardiomiopatiyalar, təsnifatı, növləri, patoloji anatomiyası. Alkoqol kardiomiopatiyaları. Birincili və ikincili kardiomiopatiyalar.

PFR-A.5.6. Endokarditlər. Etiologiyası. Patogenez. Morfogenez. Morfologiyaları. Təsnifatı, növləri, patoloji anatomiyası. Revmatik endokarditlər. Təsnifatı. Növləri. Digər mənşəli endokarditlər.

PFR-A.5.7. Miokarditlər. Təsnifatı. Formaları. Ekssudativ və proliferativ miokarditlər. Destruktiv miokarditlər. Revmatik, toksiki və digər mənşəli miokarditlər.

PFR-A.5.8. Perikarditlər. Təsnifatı, növləri, patoloji anatomiyası. Etiologiyası. Patogenez. Morfogenez. Morfologiyaları.

PFR-A.5.9. Anadangəlmə və qazanılmış ürək qüsurları.

PFR-A.5.9a. Anadangəlmə ürək qüsurları. İnkişaf mexanizmləri. Etiologiyası. Növləri. Morfoloji təzahür formaları.

PFR-A.5.9b. Qazanılmış ürək qüsurları. Etiologiyası. Patogenezi. Revmatizm mənşəli ürək qüsurları.

PFR-A.5.10. Vaskulitlər, təsnifat prinsipləri, növləri, patoloji anatomiyası.

PFR-A.6. SİNİR SİSTEMİ XƏSTƏLİKLƏRİ

PFR-A.6.1. Mərkəzi və periferik sinir sisteminin morfo-funksional xüsusiyyətləri.

PFR-A.6.1a. Mərkəzi sinir sisteminin anatomik və fizioloji xarakteristikası. Baş beynin və onurğa beyninin makro- və mikrostrukturu. Baş beynin və onurğa beyninin qan dövranı xüsusiyyətləri.

PFR-A.6.1b. Mərkəzi sinir sisteminin morfoloji tədqiqatı xüsusiyyətləri. Baş beynin və onurğa beyninin meyitdə təşrih xüsusiyyətləri və çıxarılma texnikası.

PFR-A.6.1c. Periferik sinir sisteminin anatomik və fizioloji xarakteristikası. Morfoloji müaiynə texnikası.

PFR-A.6.2. Mərkəzi sinir sisteminin iltihabi xəstəlikləri: meningit, ensefalit, meninqoensefalit, ensefalomielit, allergik ensefalomielitlər, abseslər. Somatik xəstəliklər zamanı mərkəzi sinir sistemində baş verən morfoloji dəyişikliklər.

PFR-A.6.3. Periferik sinir sisteminin iltihabi xəstəlikləri.

PFR-A.6.4. Serebro-vaskulyar xəstəliklər.

PFR-A.6.4a. Serebro-vaskulyar xəstəlik sosial xəstəlik kimi.

PFR-A.6.4b. Serebro-vaskulyar xəstəlik aterosklerozun və hipertoniya xəstəliyinin beyin formaları kimi.

PFR-A.6.4c. Serebro-vaskulyar xəstəliyin etio-patogenezi, morfogenezi, morfologiyası. Ağırlaşmaları. Tanatogenezi. Təsnifatı. Növləri.

PFR-A.6.4d. İşemik insultlar. Onların növləri.

PFR-A.6.4e. Hemorragik insultlar. Növləri.

PFR-A.6.4f. Onurğa beynində qan dövranı pozğunluqları (spinal hemodinamik pozğunluqlar).

PFR-A.6.5. Sinir sisteminin şişləri.

PFR-A.6.5a. Sinir sistemi şişləri barədə ümumi məlumat. Təsnifatı.

.

PFR-A.6.5b. Mərkəzi sinir sistemi şişlərinin xüsusiyyətləri. Mərkəzi sinir sistemi şişlərinin təsnifatı, histogenetik növləri.

PFR-A.6.5c. Mərkəzi sinir sisteminin neyroektodermal şişləri.

PFR-A.6.5d. Meninqo-vaskulyar şişlər, meninqeomalar.

PFR-A.6.5e. Periferik sinir sisteminin şişləri.

PFR-A.6.5f. Vegetativ sinir sisteminin xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.6.6. Altsqeymer xəstəliyi. Yayılmış skleroz. Amiotrofik skleroz.

PFR-A.6.7. Mərkəzi sinir sisteminin virus infeksiyaları.

PFR-A.6.7a. Poliomielit. Etiologiya, patogenez, morfogenez, morfologiyası. Poliomielit viruslarının orqanizmə təsir xüsusiyyətləri. Poliomielitin klinik-morfoloji formaları. Ağırlaşma və fəsadları. Tanatogenez.

PFR-A.6.7b. Virus ensefalitləri. Etiologiyaları, patogenezi, morfogenezi, patoloji anatomiyaları. Patomorfozu. Ağırlaşma və fəsadları. Tanatogenez. Klinik-morfoloji formaları.

PFR-A.6.7c. Prion xəstəliklər.

PFR-A.6.8. Mərkəzi sinir sisteminin bakterial infeksiyaları.

PFR-A.6.8a. Meninqokok infeksiyaları. Etiologiya, patogenez, morfo-genez, morfologiyası. Klinik-morfoloji formaları.

PFR-A.6.8b. Meninqokok nazofaringiti.

PFR-A.6.8c. İrinli meningit. Patogenezi, morfogenezi, patoloji anatomiyaları. Patomorfozu. Ağırlaşma və fəsadları. Tanatogenez.

PFR-A.6.8d. Meninqokoksemiya. Patogenezi, morfogenezi, patoloji anatomiyaları. Patomorfozu. Ağırlaşma və fəsadları. Tanatogenez.

PFR-A.7. REVMATİK XƏSTƏLİKLƏR. DƏRİ XƏSTƏLİKLƏRİ

Peşə bilikləri.

PFR-A.7.1. Revmatik xəstəliklər.

PFR-A.7.1a. Revmatik xəstəliklər barədə ümumi məlumat.

PFR-A.7.1b. Revmatik xəstəliklərin xarakter ümumi cəhətləri, morfoloji xüsusiyyətləri. Onların etio-patogenezi barədə müasir nəzəriyyələr. Təsnifatı. Formaları.

PFR-A.7.2. Revmatizm.

PFR-A.7.2a. Revmatizmin etiologiyası, patogenezi, morfogenezi. Təsnifatı.

PFR-A.7.2b. Birləşdirici toxumanın sistem dezorqanizasiyasının stadiyaları. Aşoff-Talalayev qranulomaları.

PFR-A.7.2c. Revmatik endokarditlər, miokarditlər, perikarditlər.

PFR-A.7.2d. Revmatik mənşəli ürək qüsurları. Revmatizmin digər ağırlaşma və fəsadları. Tanatogenez.

PFR-A.7.2e. Klinik morfoloji formaları.

PFR-A.7.2f. Revmatizmin müasir dövrdə patomorfozu.

PFR-A.7.3. Qırmızı qurdeşənəyi. Etiologiyası, patogenezi, morfogenezi, klinik-morfoloji formaları, patoloji anatomiyası.

PFR-A.7.4. Revmatoidli artrit. Etiologiyası, patogenezi, morfogenezi, klinik-morfoloji formaları, patoloji anatomiyası.

.

PFR-A.7.5. Digər revmatik xəstəliklər. Düyünlü periarteriit, ankilozlaşdırıcı spondillit, Şeqrenin quru sindromu, dermatomiozit, sklerodermiya. Bu xəstəliklərin etiopatogenezi, morfogenezi, klinik-morfoloji formaları. Ağırlaşma və fəsadları. Tanatogenez.

PFR-A.7.6. Dəri xəstəlikləri.

PFR-A.7.6a. Dərinin morfo-funksional xüsusiyyətləri.

PFR-A.7.6b. Dərinin irinli zədələnmələri: furunkul, karbunkul, fleqmona, abses, panaritsium.

PFR-A.7.6c. Dermatozlar: diskoid qırmızı qurdeşənəyi, psoriaz, məhdud sklerodermiya və digər dermatozlar.

PFR-A.7.6d. Dəridə piqmentasiya pozğunluqları. Leykoderma, Vitiliqo. Melanodermiya.

PFR-A.7.6e. Dərinin xoş xassəli və bəd xassəli şişləri.

PFR-A.8. TƏNƏFFÜS SİSTEMİ XƏSTƏLİKLƏRİ. PEŞƏ XƏSTƏLİKLƏRİ.

Peşə bilikləri.

PFR-A.8.1. Tənəffüs sistemi xəstəlikləri.

PFR-A.8.2. Tənəffüs sistemi üzvlərinin morfo-funksional xarakteristikası. Ağ ciyərin funksional morfologiyası. Ağ ciyərlərin seqmentar quruluşu. Aero-hematik baryerin və immunoloji baryerin quruluşu.

PFR-A.8.3. Ağ ciyər xəstəlikləri.

PFR-A.8.3a. Ağ ciyər xəstəliklərinin təsnifat prinsipləri, morfologiyası.

PFR-A.8.4. Bronxitlər.

PFR-A.8.4a. Kəskin bronxitlər, etiologiyası, patogenezi, morfogenezi, patoloji anatomiyası. Təsnifatı. Formaları.

PFR-A.8.4b. Xroniki bronxitlər, etiologiyası, patogenezi, morfogenezi, morfologiyası. Təsnifatı. Formaları. Ekssudativ və proliferativ xroniki bronxitlər. Patomorfologiyası, patomorfozu, ağırlaşmaları.

PFR-A.8.5. Pnevmoniyalar, təsnifatı, növləri.

PFR-A.8.5a. Kəskin virus pnevmoniyaları. Qrip, paraqrip, RS-infeksiya, adenovirus infeksiyası və digər mənşəli pnevmoniyalar. Etiologiyası. Patogenez. Morfogenez. Morfologiyası. Morfoloji xüsusiyyətləri. Ağırlaşma və fəsadları. Tanatogenez. Patomorfozları.

PFR-A.8.5b. Kəskin bakterial və mikoplazma pnevmoniyaları.

A.8.5b(1) Krupoz pnevmoniya. Etiologiyası. Patogenez. Morfogenez. Morfologiyası. Stadiyaları. Patomorfoloji xüsusiyyətləri. Patomorfozu. Ağırlaşması. Tanatogenez.

A.8.5b(2) Ocaqlı pnevmoniya (bronxopnevmoniya). Etiologiyası. Patogenez. Morfogenez. Morfologiyası. Ağırlaşma və fəsadları, tanatogenez. Uşaqlarda xüsusiyyətləri.

A.8.5b(3) Stafilokok pnevmoniyaları. Patogenetik xüsusiyyətləri. Morfogenez və patomorfologiyaları.

A.8.5b(4) Streptokok pnevmoniyaları. Patogenetik xüsusiyyətləri. Morfogenez.

A.8.5b(5) Pnevmokok pnevmoniyaları. Pnevmokok mənşəli ocaqlı pnevmoniyaların patogenetik və morfogenetik xüsusiyyətləri.

A.8.5b(6) Qram-mənfi mikroflora tərəfindən törədilən pnevmo-niyalar.

A.8.5b(7) Mikoplazma mənşəli pnevmoniyalar. Etio-patogenetik və morfogenetik xüsusiyyətləri.

A.8.5b(8) Legionerlər xəstəliyi. Etio-patogenetik və morfogenetik xüsusiyyətləri. Patomorfologiyası. Ağırlaşması və tanatogenez.

PFR-A.8.6. İnterstitsial pnevmoniyalar. Etiologiyası, patogenezi, morfogenezi, morfologiyası. Təsnifatı. Formaları.

PFR-A.8.7. Bronxoektaziya və bronxoektaziya xəstəliyi. Bronxoektaziya xəstəliyinin etiologiyası, patogenezi, morfogenezi. Patomorfoloji xüsusiyyətləri. Təsnifatı. Formaları. Ağırlaşmaları. Tanatogenez.

PFR-A.8.8. Ağ ciyərin emfizeması, təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.8.9. Ağ ciyərlərin xroniki obstruktiv xəstəlikləri.

PFR-A.8.9a. Ağ ciyərin absesi. Xroniki abses. Etiopatogenez, morfogenez. Morfologiyası.

PFR-A.8.9b. Xroniki pnevmoniya. Etiopatogenez. Morfogenez. Morfologiyası.

PFR-A.8.9c. Pnevmosklerozlar. Morfogenezi və patogenezi. Təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.8.10. Ağ ciyərlərin allergik və digər xəstəlikləri.

PFR-A.8.10a. Bronxial astma. Etiologiya, patogenez, morfogenez, morfologiya. Patomorfoloji xüsusiyyətləri. Ağırlaşma və fəsadları.

PFR-A.8.10b. Xammen-Riç sindromu. Ekzogen allergik alveolit. Ağ ciyərlərin digər allergik xəstəlikləri.

PFR-A.8.11. Ağ ciyər xərçəngi, təsnifat prinsipləri, növləri, patoloji anatomiyası.

PFR-A.8.12. Plevranın xəstəlikləri.

PFR-A.8.12a. Plevranın morfo-funksional xüsusiyyətləri.

PFR-A.8.12b. Plevritlərin təsnifatı. Formaları.

PFR-A.8.12c. Kəskin plevritlər və xroniki plevritlər. Onların etiologiyası, patogenezi, morfogenezi, morfologiyası.

PFR-A.8.12d. Pnevmotoraks. Hemotoraks. Pnevmo-hemotoraks. Səbəbləri, morfologiyası, ağırlaşmaları.

PFR-A.8.13. Peşə xəstəlikləri.

PFR-A.8.13a. Öyrənilmə tarixi. Təsnifat prinsipləri. Növləri.

PFR-A.8.13b. Ağ ciyərlərdə peşə xəstəlikləri.

A.8.13b(1) Ağ ciyərlərdə peşə xəstəliklərinin epidemioloji xüsusiyyətləri. Təsnifatı. Formaları.

A.8.13b(2) Sənaye tozlarının təsirindən yaranan peşə xəstəlikləri (pnevmokoniozlar). Patogenez, morfoloji xarakteristikası, ağırlaşmaları.

A.8.13b(3) Silikoz, silikatozlar (asbestoz, talkoz), metallokoniozlar (sideroz, alüminoz, berillioz), karbokoniozlar (antrakoz), qarışıq tozlardan pnevmokoniozlar (antrakosilikozlar), bitki tozlarından pnevmokoniozlar. İnkişaf mexanizmi, morfoloji xarakteristikası, ağırlaşmaları.

PFR-A.8.13c. Kimyəvi sənaye amillərin təsirindən yaranan peşə xəstəlikləri.

PFR-A.8.13d. Fiziki amillərin təsirindən yaranan peşə xəstəlikləri. Kesson xəstəliyi (dekompressiya xəstəliyi). Küy xəstəliyi. Vibrasiya xəstəliyi. Elektromaqnit dalğalarının təsirindən yaranan xəstəlik. İonlaşdırıcı şüalanma təsirindən yaranan xəstəlik (kəskin və xroniki şüa xəstəliyi). Patogenez, morfoloji xarakteristikası, ağırlaşmaları.

PFR-A.8.13e. Bioloji amillərin təsirindən yaranan peşə xəstəlikləri.

PFR-A.9. HƏZM SİSTEMİ PATOLOGİYALARı.

.

Peşə bilikləri.

PFR-A.9.1. Mədə-bağırsaq traktı üzvlərinin funksional morfologiyası.

PFR-A.9.1a. Ağız boşluğu üzvlərinin, yemək borusu, mədə və bağırsaqların morfo-funksional xarakteristikaları.

PFR-A.9.1b. Mədə və bağırsaq xəstəlikləri, təsnifatı, patoloji anatomiyası.

PFR-A.9.2. Tonzillitlər.

PFR-A.9.2a. Tonzillitlərin etiologiyası, patogenezi, morfogenezi, morfologiyaları. Təsnifatı. Formaları.

PFR-A.9.2b. Kəskin tonzillitlər. Xroniki tonzillitlər. Formaları. Ağırlaşmaları. Fəsadları.

PFR-A.9.3. Yemək borusu xəstəlikləri.

PFR-A.9.3a. Yemək borusunun inkişaf anomaliyaları.

PFR-A.9.3b. Kəskin və xroniki ezofagitlər. Etiopatogenezi, morfoloji xüsusiyyətləri.

PFR-A.9.3c. Yemək borusunun eroziya və xroniki xoraları.

PFR-A.9.4. Mədə xəstəlikləri.

PFR-A.9.4a. Mədənin kəskin və xroniki eroziyaları.

PFR-A.9.4b. Kəskin qastritlər. Etiologiyası. Patogenezi. Morfogenezi. Patomorfologiyaları. Təsnifatı. Etioloji təsnifatı. Morfoloji təsnifatı. Formaları. Ağırlaşma və fəsadları.

PFR-A.9.4c. Xroniki qastritlər. Etio-patogenezi. Morfogenezi. Ekzogen və endogen xroniki qastritlər. İmmun və qeyri-immun xroniki qastritlər. Xroniki qastritlərin morfoloji təsnifatı və formaları. Ağırlaşma və fəsadları.

PFR-A.9.4d. Mədənin xroniki xora xəstəliyi. Etiologiya, patogenez, morfogenez, patomorfologiyası. Stadiyaları. Kəskinləşmə və remissiya dövrlərində morfoloji xüsusiyyətləri. Ağırlaşmaları.

PFR-A.9.5. Mədə xərçəngi.

PFR-A.9.5a. Mədə xərçənginin təsnifat prinsipləri, formaları, patoloji anatomiyası.

PFR-A.9.6. 12-barmaq bağırsağın xəstəlikləri.

PFR-A.9.6a. Kəskin və xroniki duodenitlər. Etiologiyası. Patogenezi. Morfoloji xüsusiyyətləri.

PFR-A.9.6b. 12-barmaq bağırsağın xroniki xora xəstəliyi. Etiologiyası, patogenezi, morfogenezi, təsnifatı, növləri, morfologiyası, ağırlaşmaları.

PFR-A.9.7. Bağırsaq xəstəlikləri.

PFR-A.9.7a. Enteritlər. Kəskin və xroniki enteritlər. Etio-patogenez, morfogenez, patomorfologiyaları.

PFR-A.9.7b. Appendisit. Etiologiyası, patogenezi, morfogenezi, təsnifatı, növləri, morfologiyası, ağırlaşmaları. Patomorfoloji xüsusiyyətləri. Kəskin appendist. Formaları. Ağırlaşmaları. Xroniki appendisit.

PFR-A.9.7c. Kolitlər. Kəskin və xroniki kolitlər. Etiopatogenez. Morfogenez. Patomorfologiyaları. Ağırlaşma və fəsadları.

PFR-A.9.7d. Enteropatiyalar (bağırsaqlarda sorulma proseslərinin pozulması sindromları). Etiologiya, patogenezi, təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.9.7e. Bağırsaqların inkişaf anomaliyaları.

PFR-A.9.7f. Kron xəstəliyi, etiologiyası, patogenezi, təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.9.7g. Uippl xəstəliyi, etio-patogenezi, təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.9.7h. Bağırsaq keçməməzliyi. Etiopatogenez. Mofrogenez. Formaları.

PFR-A.9.7i. Qeyri-spesifik xoralı kolit, etiologiyası, patogenezi, təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.9.7j. Mədə-bağırsaq traktı üzvlərindən endoskopiya və digər yollarla biopsiya materiallarının götürülməsi, mikroskopik müayinəsi xüsusiyyətləri. Qastrobiopsiyaların və enterobiopsiyaların klinikada diaqnostik əhəmiyyətləri.

PFR-A.9.8. Kolorektal xərçəng, təsnifatı, formaları, patoloji anatomiyası.

PFR-A.9.9. Peritonit, etiologiyası, patogenezi, təsnifatı, növləri, patoloji anatomiyası.

PFR-A.9.10. Qara ciyər xəstəlikləri.

PFR-A.9.10a. Qara ciyərin morfo-funksional xarakteristikası. Qara ciyərin funksional morfologiyası. Paycıqlı quruluş. Histoloji xüsusiyyətləri, hüceyrələri, funksiyası.

PFR-A.9.10b. Hepatitlər. Etiologiyası, patogenezi, təsnifatı, növləri, morfologiyası.

A.9.10b(1) Kəskin hepatitlər. Etiologiyaları, patogenezi, morfogenezi, morfologiyaları. Kəskin hepatitlərin formaları.

PFR-B.6.28. Fotoqrafiya məqsədilə preparatın və preparatda müvafiq patologiya hissəsinin seçilməsi.

PFR-B.6.29. Mikroskopik müayinə məqsədilə göndərilmiş cərrahi materialların makroskopik müayinəsi, təsviri, toxuma hissəciklərinin kəsilib götürülməsi.

PFR-B.6.30. Dəqiq patohistoloji diaqnozun qoyulması məqsədilə müvafiq boyaqların seçilməsi və təyini, preparatların boyanması.

PFR-B.6.31. Biopsiya materiallarından laboratoriyada müxtəlif boyaqlarla mikropreparatların hazırlanması.

.

PFR-B.6.32. Histoloji preparatların mikroskopik müayinəsi.

PFR-B.6.33. Fotoqrafiya məqsədilə preparatların və preparatlarda müvafiq patologiya hissəsinin seçilməsi.

PFR-B.6.34. Patohistoloji preparatların hazırlanması, onların slaydlarının hazırlanması və öyrənilməsi.

PFR-B.6.35. Patohistoloji preparatlara əsasən elmi məqalə və ya tezislrin tərtibi.

PFR-B.6.36. Mikroskopik tədris materiallarının seçilməsi, hazırlanması.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim üçün rezidentura dövründə aparılan minimal peşə bacarıqların miqdarı (prenatal və perinatal patologiyalar üzrə):

PFR-B.6.37. Meyitə baxış və təşrihin həyata keşirilməsi. Patoloji-anatomik diaqnozun qoyulması. 50 (As) 20 (P).

PFR-B.6.38. Düşüklərdə antropometrik müayinələrin aparılması. 50 (As)20 (P).

PFR-B.6.39. Ölüdoğulmuşların meyitinin müayinəsi 50 (As) 20 (P).

PFR-B.6.40. Diridoğulmuşların meyitinin müayinəsi 50 (As)20 (P).

PFR-B.6.41. Mikroskopik müayinə məqsədilə meyitdən üzv və toxumalardan toxuma hissəciklərinin seçilməsi və götürülməsi. 300 (As) 100 (P).

PFR-B.6.42. Patoloji-anatomik diaqnozun tərtibi. 50 (As)20 (P).

PFR-B.6.43. Cərrahi biopsiya materiallarının makroskopik müayinəsi, kəsilməsi və laborator işlənməsi məqsədilə tikələrin götürülməsi. 500 (As) 100 (P).

PFR-B.6.44. Diaqnostik biopsiya materiallarının (bioptatların) laborator işlənməsi məqsədilə götürülməsi. 500 (As) 100 (P).

PFR-B.6.45. Biopsiya materiallarından laboratoriyada müxtəlif boyaqlarla mikropreparatların hazırlanması. 50 (As) 20 (P).

PFR-B.6.46. Cərrahi biopsiya materiallarının mikroskopik müayinəsi, mikroskopiyada müəyyən olunanların təsviri, patohistoloji diaqnozun qoyulması. 500 (As) 100 (P).

PFR-B.6.47. Yaxma materiallarının mikroskopik müayinəsi, mikroskopiyada müəyyən olunanların təsviri, patohistoloji diaqnozun qoyulması. 500 (As) 100 (P).

PFR-C. MƏHKƏMƏ-TIBBI EKSPERTIZA

PFR-C.1. MƏHKƏMƏ-TIBBI EKSPERTIZANıN ÜMUMI SUALLARı

Peşə bilikləri.

PFR-C.1.1. Azərbaycan Respublikasında məhkəmə-tibbi ekspertiza

PFR-C.1.1a. Azərbaycan Respublikasında məhkəmə-tibbi ekspertiza xidmətinin təşkili.

C.1.1a(1) Azərbaycan Respublikasının «Məhkəmə ekspertizası fəaliyyəti haqqında» Qanunu və Azərbaycan Respublikasında «Məhkəmə-tibbi ekspertizaların təşkili və həyata keçirilməsi haqqında» yeni Əsasnamə.

C.1.1a(2) Məhkəmə-tibbi ekspertizanın təşkilinin və həyata keçirilməsinin normativ sənədləri.

PFR-C.1.1b. Azərbaycan Respublikasında məhkəmə-tibbi ekspertizanın təşkilati əsasları.

C.1.1b(1) Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya" Birliyi. Birlik barədə əsasnamə. Birliyin quruluşu, struktur şöbə, bölmə və laboratoriyaları. Birliyə rəhbərlik və idarəetmə.

.

C.1.1b(2) Məhkəmə-tibbi ekspertizanın təşkilati quruluşu.

C.1.1b(3) Ekspert vəzifələrinin nomenklaturası. Birlyin vəzifəli şəxsləri barədə əsasnamə və vəzifə borcları.

C.1.1b(4) Məhkəmə-tibbi ekspertizanın həyata keşirilməsi barədə təlimat.

PFR-C.1.1c. Məhkəmə-tibbi xidmətdə idarəetmə məsələləri.

C.1.1c(1) Müasir dövrdə müəssisələrin idarə edilməsinə olan tələblər.

C.1.1c(2) Birlik rəhbərliyi, şöbə rəisləri tərəfindən struktur bölmələrin əməkdaşlarının işinin, onların fəaliyyətlərinə rəhbərliyin və nəzarətin təşkili.

C.1.1c(3) Kadrlarla işin təşkili.

C.1.1c(4) Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim kadrların hazırlanması (rezidentura, doktorantura) və attestasiyası.

PFR-C.1.1d. Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimlərin diplomdan sonrakı təhsillərinin planlaşdırılması və təşkili.

C.1.1d(1) Azərbaycan Respublikasında həkimlərin diplomdan sonrakı təhsil sisteminin əsas prinsipləri və təşkilatı-funksional strukturu. Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutu. İnstitutun "Patoloji anatomiya və məhkəmə təbabəti" kafedrası.

C.1.1d(2) Azərbaycan Respublikasında həkimlərin diplomdan sonrakı təhsilləri sahəsində qanunverici və normativ sənədlər.

C.1.1d(3) Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimlərin diplomdansonrakı təhsillərinin planlaşdıırılmasında və təşklində patoloji anatomiya və məhkəmə təbabəti kafedralarının rolu və vəzifələri.

PFR-C.1.1e. Məhkəmə-tibbi ekspertiza müəssisələrinin fəaliyyətinin statistik informasiya, uçot, hesabatı və analizi məsələləri.

C.1.1e(1) Məhkəmə-tibbi ekspertiza xidmətində tibbi sənədləşmənin əsas formaları.

C.1.1e(2) «Ekspert rəyi», məzmunu və tərkib hissələri. Giriş hissənin quruluşu. Xarici və daxili müayinə hissələri. Nəticələrin strukturu və tərtibi qaydaları. «Ekspert rəyi»nin tərtibatının əsas qaydaları və prinsipləri. «Ekspert rəyi»nin tərtibatında rast gəlinən əsas çatışmazlıqlar.

C.1.1e(3) İllik hesabatlar. Tərtibi qaydaları və prinsipləri. Məhkəmə-tibbi ekspertiza müəssisələrinin fəaliyyətində əsas göstəricilər, onların analizi və effektivliyinin qiymətləndirilməsi.

PFR-C.1.1f. «Məhkəmə-tibbi ekspertiza və Patoloji anatomiya» Birliyinin İnzibati Şurası və Metodik Şurası. Birlikdə metodiki, elmi-tədqiqat və yaradıcı işlərin aparılması.

C.1.1f(1) Birlikdə təşkilati-metodiki işlərin aparılması. «Metodiki Şura» barədə əsasnamə.

C.1.1f(2) Birlikdə elmi-tədqiqat işləri aparılması, onun təşkili və həyata keşirilməsi. Elmi nailiyyətlərin ekspertiza praktikasında tətbiqi sistemi.

PFR-C.1.1g. Məhkəmə-tibbi ekspertiza müəssisələrinin maddi-texniki təchizatı.

C.1.1g(1) Məhkəmə-tibbi ekspertiza müəssisələrinin binalarının layihələşdirilməsinin, tikintisinin, rekonstruksiya və istifadəsinin müasir məsələləri.

C.1.1g(2) Məhkəmə-tibbi ekspertizanın müasir müəssisələrində tibbi-texnoloji prosesin təşkili.

C.1.1g(3) Tibbi texnika ilə təminat. Avadanlıqlar və alətlər. Təminat qaydaları. Aparatura və avadanlıqlara standartlaşdırma və metroloji nəzarət üzrə işin təşkili.

C.1.1g(4) Reaktiv, boyaqlar, medikament və digər materiallarla təchizat qaydaları.

C.1.1g(5) Bir həkim vəzifəsi üçün materialların, alətlərin və s. sərfedilməsi normaları.

C.1.1g(6) Təsərrüfat hissəsinin işinin təşkili.

C.1.1g(7) Məhkəmə-tibbi ekspertiza müəssisə rəhbərlərinin təhlükəsiz və sağlam əmək şəraiti üzrə işinin təşkili və vəzifələri.

C.1.1g(8) Təhlükəsizlik texnikası üzrə təlimin və təlimatın təşkili.

PFR-C.1.1h. Məhkəmə-tibbi ekspertiza müəssisələrində sanitar-epidemioloji işin təşkili.

C.1.1h(1) Sanitar-gigiyenik və epidemiyaəleyhinə tədbirlərin təşkili və keçirilməsi.

C.1.1h(2) Meyitxanalarda, laboratoriyalarda, kabinet və bölmələrdə sanitar-epidemioloji rejim.

PFR-C.1.1i. Məhkəmə-tibb ekspertinin peşə fəaliyyətində etika və deontologiya məsələləri.

C.1.1i(1) Biotibbi etikanın prinsipləri. «Tibbi etika» və «tibbi deontologiya» məfhumlarının məzmunu.

C.1.1i(2) Həkimlə cəmiyyət arasında qarşılıqlı əlaqə. Məhkəmə-tibb eksperti ilə hüquq mühafizə orqanları əməkdaşları arasında qarşılıqlı münasibət.

C.1.1i(3) Meyit materiallarının transplantasiya məqsədilə götürülməsinin hüquqi və etik məsələləri.

C.1.1i(4) Məhkəmə-tibb ekspertinin hüquqi və mənəvi məsuliyyəti.

C.1.1i(5) Tibb işçilərinin hüquqlarının və vəzifə borclarının reqlamentasiyası.

C.1.1i(6) Əmək nizam-intizamı. Məhkəmə-tibbi ekspertiza müəssisələrində rəhbərliyin və əməkdaşların əsas hüquq və vəzifələri.

PFR-C.1.1j. Məhkəmə-tibbi ekspertizanın prosessual əsasları. Cinayət və mülki proseslərdə ekspertiza.

C.1.1j(1) Məhkəmə-tibbi ekspertiza.

C.1.1j(2) Məhkəmə-tibbi ekspertizanın predmeti.

C.1.1j(3) Məhkəmə-tibbi ekspertizanın keçirilməsinin mütləqliyi.

C.1.1j(4) Məhkəmə-tibbi ekspertizanın növləri.

C.1.1j(5) Məhkəmə-tibbi ekspertizanın təyini qaydaları.

C.1.1j(6) Müstəntiqin ekspertizada iştirakı.

C.1.1j(7) İbtidai istintaq və məhkəmədə cinayət və mülki işlər üzrə məhkəmə-tibbi ekspertiza.

C.1.1j(8) Ekspertin hüquq və vəzifələri, məsuliyyəti.

C.1.1j(9) Ekspertin dindirilməsi, kənarlaşdırılması, səlahiyyət hüdudları.

PFR-C.1.1k. Məhkəmə-tibbi ekspertiza xidmətinin xəstəliklərin profilaktikasının gücləndirilməsi işində və əhalinin sağlamlığının möhkəmləndirilməsində rolu və iştirakı.

C.1.1k(1) Sağlam həyat tərzinin təbliği.

C.1.1k(2) Zərərli vərdişlərlə mübarizə (alkoqolizm, narkomaniya, toksikomaniya).

C.1.1k(3) Sanitar-gigiyenik tərbiyə, antialkoqol təbliğatı.

PFR-C.1.1l. Tibb işçilərinin vəzifələri.

C.1.1l(1) «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Səhiyyə Qanunları. Tibb işçilərinin peşə fəaliyyətlərini tənzimləyən digər qanunlar, normativ sənədlər.

C.1.1l(2) Səhiyyə işçiləri ilə əmək müqavilələri. Əmək müqavilələrinin bağlanmasının formaları, tərəflər, şərtlər. Məhkəmə-tibb ekspertinin işə buraxılması şərtləri. Əvəzçilik üzrə işə götürülmə qaydaları, ictimai əsaslar üzrə iş xüsusiyyətləri. İşçilərin işə götürülməsi qaydaları. Başqa işə keçirilmə. Yerdəyişmə. Əmək müqaviləsinin müddətinin başa çatması. Vəzifədən azad edilmə**.**

C.1.1l(3) İş vaxtı. Məhkəmə-tibbi ekspertiza müəssisələrində iş vaxtının müddəti. İş gününün və iş həftəsinin növləri. Məhkəmə-tibbi ekspertiza müəssisələrində iş vaxtının bölüşdürülməsi. Növbətçilik. Vaxtından çox işləmə.

C.1.1l(4) İstirahət müddəti. İstirahət üçün fasilələr. İstirahət və bayram günləri. Əmək məzuniyyətləri. Əlavə məzuniyyətlər. Məhkəmə-tibb ekspertlərinə əmək məzuniyyətlərinin verilməsi xüsusiyyətləri. Əmək haqqlarının saxlanılmaması ilə məzuniyyət.

C.1.1l(5) Əmək nizam-intizamı. Məhkəmə-tibbi ekspertiza müəssisələrində rəhbərliyin və əməkdaşların əsas hüquq və vəzifələri.

C.1.1l(6) Məhkəmə-tibbi ekspertiza müəssisələrində işçilərin əmək haqqları.

PFR-C.1.1m. Tibb işçilərinin peşə fəaliyyətində yol verdikləri qanunsuz hərəkətlər, onların təsnifatı və xarakteristikası.

C.1.1m(1) Həkim səhvi. Məzmunu. Səbəbləri. Təsnifatı (diaqnostik, taktiki, texniki, müalicəvi). Səhvin xarakteri, xəstə üçün fəsadları. Həkimin məsuliyyəti.

C.1.1m(2) Tibbi praktikada bədbəxt hadisələr, onların səbəbləri, xəstələrdə fəsadları.

C.1.1m(3) Tibb işçilərinin ehtiyatsız hərəkətləri. Onların təyin edilməsi, səbəbləri. Tibb işçilərinin fəaliyyətlərinin (fəaliyyətsizliyin) hüquqi təsnifatı.

PFR-C.1.1n. Həkimlərin məsuliyyətə cəlb olunması.

C.1.1n(1) Gecikmiş və ya düzgün olmayan müalicə. Diaqnozun düzgün qoyulmaması. Cərrahi əməliyyatların və dərman preparatlarının gec və ya səhv təyin edilməsi. Dərman maddələrinin səhv köçürülməsi.

C.1.1n(2) Tibbi fəaliyyətdə şüurlu olaraq cinayət əməlinin törədilməsi. Kriminal abort. Xəstəyə tibbi yardımın göstərilməməsi. Qanunsuz həkimlik etmə. Epidemiyaya qarşı mübarizə qaydalarının pozulması.

C.1.1n(3) Tibb işçilərinin peşə fəaliyyətində yol verdikləri cinayət əmelləri zamanı məhkəmə-tibbi ekspertizanın təşkili və vəzifələri.

PFR-C.1.1o. Ümumi suallar. Məhkəmə-tibbi ekspertizanın təyin edilməsi. Mühüm iş materialları. Məhkəmə-tibbi ekspertiza komissiyasının tərkibi. Ekspertizanın keçirilməsi qaydaları və xüsusiyyətləri. Məhkəmə-tibbi ekspertizanın məqsəd və imkanları. Bu hallarda «Ekspert rəyi»nin tərtib edilməsi.

PFR-C.1.2. Məhkəmə təbabətinin inkişaf tarixi, predmeti və məzmunu.

PFR-C.1.2a. Məhkəmə təbabətinin tarixi.

PFR-C.1.2b. Məhkəmə təbabətinin Azərbaycanda yaranması və inkişaf tarixi. Məhkəmə təbabəti kafedralarının Azərbaycanda yaranma tarixləri. Azərbaycanda məhkəmə təbabəti elminin tədrisi. Məhkəmə təbabəti sahəsində aparılmış və aparılan elmi-tədqiqat işləri, dərslik və digər ədəbiyyatlar.

PFR-C.1.2c. Məhkəmə təbabəti elminin məzmunu və predmeti. Məhkəmə təbabətinin məzmunu. Məhkəmə təbabəti elminin digər təbiət və hüquq elmləri ilə əlaqəsi, qarşılıqlı iş və fəaliyyət prinsipləri. Məhkəmə təbabəti elminin predmeti. Məhkəmə təbabətinin metodoloji əsasları.

PFR-C.2. MEXANİKİ ZƏDƏLƏNMƏLƏRİN MƏHKƏMƏ-TİBBİ EKSPERTİZASı

Peşə bilikləri və bacarıqları.

PFR-C.2.1. Mexaniki zədələnmələr zamanı baş verən xəsarətlər.

PFR-C.2.1a. Travma və travmatizm barədə ümumi anlayış.

C.2.1a(1) «Travma», «Travmatizm» və «Travmatologiya» anlayışları. Məhkəmə-tibbi travmatologiya. Travmatizmin təsnifatı. Zədələnmələrə səbəb olan xarici mühit amilləri. «Silah», «Alət», «Əşya» məfhumlarının məzmunu. Mexaniki amillərin təsirindən zədələnmələr.

C.2.1a(2) Mexaniki zədələnmələr barədə ümumi məlumat, rast gəlmə tezlikləri, onların təsnifatı, təsnifat prinsipləri. Xəsarətlərin mənşəyinə görə təsnifatı (küt alətlərin təsirindən, iti alətlərin təsirindən, odlu silahların təsirindən baş verən xəsarətlər).

C.2.1a(3) Xəsarətlərin orqanizmə təsiri (ilkin və ikincili). Xəsarətlərlə əlaqədar orqanizmdə baş verən yerli, regionar və ümumi dəyişikliklər. Xəsarətlərin intensivliyinə təsir edən şərtlər (kinetik enerji, zədələnmənin sahəsi, zədələnmiş toxumanın xarakteri, alətin təsir səthinin xüsusiyyətləri, alətin təsir bucağı və istiqaməti və s.).

C.2.1a(4) Travmatik təsirin növləri (zərbə, sıxılma, dartılma, silkələnmə) və bununla əlaqədar baş verən dəyişikliklər. Xəsarətlərin əmələ gəlmə mexanizmləri.

PFR-C.2.1b. Xəsarətlərin və travma yetirən alətin laborator müayinə üsulları. Ölçmə üsulları, bilavasitə mikroskopiya üsulu, histoloji və histokimyəvi üsullar, rentgenoloji üsul, rəngli iz üsulu, fotoqrafiya üsulu, emission-spektral üsul, exoqrafik üsul, trassoloji üsul və sair.

PFR-C.2.1c. Xəsarətə görə travma yetirmiş alətin ümumi və xüsusi əlamətlərinin identifikasiyası. Xəsarətlərin məhkəmə-tibbi ekspertizasının xüsusiyyətləri: qarşıya qoyulan məsələlər, ekspertizaların aparılma metodikaları, qayda və ardıjıllıqları, tələblər və s. Xəsarətlərlə əlaqədar aparılan ekspertizalar zamanı həll ediləsi məsələlər.

PFR-C.2.1d. Bərk küt alətlərlə yetirilmiş xəsarətlər. Yumşaq toxumaların zədələnmələrinin morfogenezi.

C.2.1d(1) Sıyrıqlar. Əmələ gəlmə mexanizmi, səbəbləri və rast gəlmə tezliyi. Sıyrıqların təsnifatı. Klinik gedişi, lokalizasiya və morfoloji xüsusiyyətləri (forması, rəngi, ölçüləri, səthinin xarakteri). Sıyrıqların xüsusiyyətlərinin zərbə yetirən alətin səthinin xüsusiyyətlərindən, zərbə bucağından və istiqamətindən asılılığı. Sıyrıqlara görə zərbə istiqamətinin təyin edilməsi. Həyati və ölümdən sonrakı sıyrıqların makroskopik və mikroskopik üsullarla diferensiasiyası. Sıyrıqlara əsasən sağlamlığa zərər vurmanın təyini. Sıyrıqların məhkəmə-tibbi əhəmiyyəti.

C.2.1d(2) Qançırlar. Başvermə səbəbləri və rast gəlmə tezlikləri. Təsnifatı. İnkişaf mexanizmi. Klinik gedişi. Lokalizasiyası və morfoloji xüsusiyyətləri (rəngi, sahəsi, forması, ölçüləri, mərhələləri və s.). Qançır nahiyəsində hemoqlobinin dəyişiklikləri. Qançırların xüsusiyyətlərinin zərbə yetirmiş alətin xüsusiyyətlərində asılılığı. Qançırlara əsasən zərbə yetirmiş alətin ümumi və xüsusi əlamətlərinin təyin edilməsi. Qançırlarla qeyri-travmatik qansızmaların, meyit ləkələrinin, ölümdən sonrakı xəsarətlərin mikroskopik və

makroskopik üsullarla diferensiasiyası. Qançırların orqanizmə təsiri. Qançırlara əsasən sağlamlığa zərər vurmanın təyini. Qançırların məhkəmə-tibbi əhəmiyyəti.

C.2.1d(3) Yaralar. Baş vermə səbəbləri və rastgəlmə tezlikləri. Baş vermə mexanizmi. Yaranın tərkib hissələri. Klinik gedişi. Yaraların lokalizasiyası və morfoloji xüsusiyyətləri (forması, ölçüləri, sahəsi, kənarlarının xüsusiyyətləri, yara bucaqlarının, dibinin və divarlarının xüsusiyyətləri). Yaranın xüsusiyyətlərinin iz törədən alətin xarakterindən və zərbənin yetirilmə xüsusiyyətlərindən asılılığı. Yaraya əsasən zərbə yetirmiş alətin ümumi və xüsusi əlamətlərinin identifikasiyası. Həyati və postmortal yaraların makroskopik və mikroskopik üsullarla diferensiasiyası. Yaranın orqanizmə təsiri. Yaralara əsasən sağlamlığa zərər vurmanın təyini. Yaraların məhkəmə-tibbi əhəmiyyəti.

C.2.1d(4) Sümük sınıqlarının morfogenezi. Ümumi məlumat. Başvermə səbəbləri və rastgəlmə tezlikləri. «Sınıq» məfhumunun məzmunu. Təsnifat prinsipləri (lokalizasiyalarından, baş vermə səbəblərindən, sümüklərin zədələnmə dərəcələrindən, sınıq xəttinin istiqamətindən, xarakterindən və görünüşlərindən asılı olaraq). Sınıqların baş verməsinə təsir edən mexanizmlər və şərtlər. Sınıqların baş verməsinə səbəb olan deformasiyaların növləri. Sınıqlara əsasən zərbə yetirmiş alətin ümumi və xüsusi əlamətlərinin təyini. Həyati və postmortal sınıqların makroskopik və mikroskopik təyini üsulları. Sınıqların məhkəmə-tibbi əhəmiyyəti. Sınıqlara əsasən sağlamlığa zərər vurmanın təyini. Sınıqlarla əlaqədar tədqiqat üsulları, sınıqların təsviri və sənədləşdirilməsi qaydaları.

C.2.1d(5) Kəllə sümüklərinin, fəqərələrin, qabırğaların, körpücük sümüyünün, kürək sümüyünün və döş sümüyünün; çanaq sümüklərinin və ətrafların borulu sümüklərinin (hər biri ayrı-ayrılıqda) sınıqlarının, oynaq zədələnmələrinin baş vermə səbəbləri və rast gəlmə tezlikləri, təsnifatları. Baş vermə mexanizmləri və onların morfoloji xüsusiyyətləri. Bu sınıqların xarakterinə əsasən zərbə yetirilən alətin ümumi və yerli xüsusiyyətlərinin identifikasiyası, sağlamlığa zərər vurmanın təyin edilməsi.

C.2.1d(6) Daxili üzvlərin zədələnmələrinin həyati və ya ölümdən sonra olmasının makroskopik və mikroskopik üsullarla diferensiasiyası. Sağlamlığa zərər vurmanın təyini.

C.2.1d(7) Kəllə-beyin travmalarının klinik və patomorfoloji əlamətləri. Ümumi məlumat. Baş beynin qişalarının zədələnmələrinin təsnifatı. Səbəbləri və baş vermə şərtləri. Klinik əlamətləri, diaqnostikası və nəticələri. Baş beyin travmalarının inkişaf mexanizmləri barədə nəzəriyyələr. Baş beynin və onun qişalarının zədələnmələri zamanı baş verən morfoloji dəyişikliklər, ilkin travmatik dəyişikliklər. Qişa altına, beyin maddəsinə və beyin mədəciklərinə qansızma. Baş beynin əzilməsi, dağılması, cırılması və qopması. Zədələnmiş nahiyədə ikincili dəyişikliklər. Kəllə-beyin travmaları zamanı mikroskopik dəyişikliklərin dinamikası. Baş beyinin ödeminin patogenezi. Tanatogenez. Sağlamlığa zərər vurma.

C.2.1d(8) Zədələnmələr zamanı ölümün səbəbi. Zədələnmə ilə ölüm arasındakı səbəbli əlaqələrin təyini. Bədənin anatomik tamlığının pozulması. Həyati vacib üzvlərin zədələnməsi. Ümumi məlumat. Qanitirmə. Travmatik şok. Axan qan və ya hava ilə üzvlərin sıxılması. Tromboemboliya, hava emboliyası, toxuma emboliyası, piy emboliyası. Travmaların ağırlaşması (infeksiya, intoksikasiya və s.).

PFR-C.2.2. Nəqliyyat travması.

PFR-C.2.2a. Avtomobil travması.

C.2.2a(1) Avtomobil travmatizmi barədə ümumi məlumat. Avtomobil travmaları zamanı məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları. Avtomobil travmatizminin təsnifatı. Zədələnmələrin mexanizmi. Təsnifatı. Avtomobil travmalarının variantları və mərhələləri. Paltarlarda və avtomobildə rast gəlinən izlər və zədələnmələr. Avtomobillərin

konstruktiv xüsusiyyətləri barədə qısa məlumat. Hərəkətdə olan avtomobilin insanla toqquşması nəticəsində meydana çıxan xəsarətlər. Ümumi məlumat. Statistik məlumatlar. Variantları, mərhələləri və mexanizmləri. Zədələnmələrin lokalizasiyası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr.

C.2.2a(2) Zədələnmələrin mexanizmi və morfoloji xarakteristikası. Kəllənin və baş beynin, onurğa sütununun və onurğa beyninin, döş qəfəsinin, çanağın və ətrafların, daxili üzvlərin və qan damarlarının zədələnmələrinə gətirib çıxaran şərtlər. Bu zədələnmələrin avtomobilin tipindən, variantından, zədələnmənin fazasından, bədənin vəziyyətindən asılılığı.

C.2.2a(3) Avtomobil təkərinin bədən üzərindən keçməsi nəticəsində baş verən xəsarətlər. Ümumi məlumat. Avtomobilin bədən üzərindən keçməsinin variantları və növləri, mərhələləri, mexanizmi, xüsusiyyətləri. Zədələnmələrin lokalizasiyası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Bədənin köndələn vəziyyətində təkərin baş və boyun, döş qəfəsi, qarının, yuxarı ətrafların, çanağın, aşağı ətrafların üzərindən keçməsi zamanı törənən xəsarətlərin mexanizmi və morfoloji xarakteristikası. Bədənin boylama vəziyyətində təkərin başın və boynun, döş qəfəsinin, qarının, yuxarı ətrafların, çanağın, aşağı ətrafların üzərindən keçməsi zamanı törənən xəsarətlərin mexanizmi və morfoloji xarakteristikası.

C.2.2a(4) Avtomobilin daxili hissələrinin təsirindən sürüjüdə və sərnişinlərdə baş verən xəsarətlər. Ümumi məlumat. Xəsarətlərin rast gəlmə tezliyi, variantları, mərhələləri, xəsarətlərin əmələ gəlmə mexanizmi, lokalizasiyaları. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Yerli (kontakt) və kənar zədələnmələr. Sürücüdə və sərnişinlərdə (ayrı-ayrılıqda) başda, boyunda, üzdə, döş qəfəsində və qarında, çanaqda və aşağı ətraflarda, yuxarı ətraflarda baş verən zədələnmələrin mexanizmi və morfoloji xarakteristikası.

C.2.2a(5) Hərəkətdə olan avtomobildən insanın yıxılması zamanı baş verən xəsarətlər. Ümumi məlumat. Yıxılmanın variantları, mərhələləri, mexanizmi. Xəsarətlərin lokalizasiyası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Yerli və kənar xəsarətlər. Başın, ayağın və ya diz oynaqlarının, sağrı nahiyəsinin, gövdənin ön, arxa və yan səthlərinin yol örtüyünə dəyməsi nəticəsində baş verən xəsarətlər, onların əmələ gəlmə mexanizmi və morfoloji xarakteristikası.

C.2.2a(6) Bədənin avtomobil hissələri və digər əşyalar arasında sıxılmasından törənən xəsarətlər. Ümumi məlumat. Variantları və mərhələləri. Mexanizm. Zədələrin lokalizasiyası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Bədənin ayrı-ayrı nahiyələrinin, üzv və toxumalarının zədələnmələrinin mexanizmi və morfoloji xarakteristikası.

C.2.2a(7) Avtomobil travmalarının digər travmalardan diferensiasiyası.

PFR-C.2.2b. Motosiklet və velosiped travmaları.

C.2.2b(1) Motosiklet və velosiped travmaları barədə ümumi anlayış. Keçirilən məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları. Ümumi nəqliyyat travmatizmi içərisində yeri. Statistik məlumatlar. Terminologiya və təsnifat. Travmaların mexanizmi, variant və mərhələləri. Paltarlarda və motosikletdə olan iz və xəsarətlər.

C.2.2b(2) Motosiklet və velosiped travmalarının növləri. Xəsarətlərin mexanizmi və morfoloji xüsusiyyətləri.

C.2.2b(3) Motosikletin və ya velosipedin piyada ilə toqquşması zamanı, həmçinin sürücünün və ya sərnişinin motosikletdən və velosipeddən yıxılması zamanı (ayrı-ayrılıqda) xəsarət alanın başında, boynunda, üzündə, döş qəfəsində, qarınında, çanaq nahiyəsində, aşağı və yuxarı ətraflarında meydana çıxan xəsarətlər, onların əmələ gəlmə mexanizmi və xüsusiyyətləri.

C.2.2b(4) Yuxarıda göstərilən xəsarətlərin motosiklet və ya velosipedin digər nəqliyyat vasitələri və ya hərəkətdə olmayan cisimlərlə toqquşması zamanı sürücüdə və sərnişinlərdə yaranması xüsusiyyətləri.

C.2.2b(5) Motosiklet və ya velosiped travmalarının avtomobil travmalarından diferensiasiyası.

PFR-C.2.2c. Rels nəqliyyatı travmaları.

C.2.2c(1) Rels nəqliyyatı travmatizmi barədə ümumi anlayış. Ümumi nəqliyyat travmatizmində yeri. Dəmir yollarının, lokomotiv və vaqonların quruluş xüsusiyyətləri barədə qısa məlumat. Travmaların variant və mərhələləri, mexanizmləri. Aparılan ekspertizaların əhəmiyyəti, həll etdiyi məsələlər, imkanları. Rels nəqliyyatı travmatizminin təsnifatı. Paltarlarda izlər və zədələnmələr.

C.2.2c(2) Hərəkətdə olan qatarın insanla toqquşması nəticəsində yaranan xəsarətlər. Ümumi məlumat. Travmaların mərhələləri və variantları. Zədələnmələrin mexanizmi və lokalizasiyaları. Bədənin ayrı-ayrı nahiyələrində olan xəsarətlərin morfoloji xarakteristikası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Rels nəqliyyatı travmalarının diferensial diaqnostikası.

C.2.2c(3) Qatar təkərinin bədən üzərindən keçməsi zamanı yaranan xəsarətlər. Ümumi məlumat. Travmaların variantları, mərhələləri, mexanizmləri, lokalizasiyaları. Bədənin ayrı-ayrı nahiyələrində olan xəsarətlərin morfoloji xarakteristikası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Xəsarətlərin diferensial diaqnostikası.

C.2.2c(4) Hərəkətdə olan qatardan insanın yıxılması nəticəsində baş verən xəsarətlər. Ümumi məlumat. Travmaların variantları, mərhələləri, mexanizmləri, lokalizasiyaları. Bədənin ayrı-ayrı nahiyələrində baş verən xəsarətlərin morfoloji xarakteristikası. Spesifik, xarakter və qeyri-xarakter zədələnmələr. Xəsarətlərin diferensial diaqnostikası.

C.2.2c(5) Bədənin vaqon hissələri arasında qalması nəticəsində baş verən xəsarətlər. Ümumi məlumat. Travmaların əmələ gəlmə variantları, mərhələləri, mexanizmi, lokalizasiyaları. Bədənin ayrı-ayrı nahiyələrində baş verən xəsarətlərin morfoloji xarakteristikası. Spesifik, xarakter və qeyri-xarakter xəsarətlər. Xəsarətlərin diferensial diaqnostikası.

C.2.2c(6) Vaqonun daxili hissələrinin təsirindən sərnişinlərdə baş verən xəsarətlər. Ümumi məlumat. Variantları, mərhələləri, mexanizmləri, lokalizasiyaları. Bədənin ayrı-ayrı nahiyələrində baş verən xəsarətlərin morfoloji xarakteristikası. Spesifik, xarakter və qeyri-xarakter xəsarətlər. Differensial diaqnostika.

PFR-C.2.2d. Hava nəqliyyatı (aviasiya) travmaları.

C.2.2d(1) Hava nəqliyyatı travmalarının təsnifatı, ümumi məlumat. Baş vermə səbəbləri. Elmi tədqiqatlar. Təyyarələrin konstruktiv xüsusiyyətləri barədə qısa məlumat. Hava nəqliyyatı travmaları zamanı məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları. Terminologiya və təsnifat. Travmatizmin variantları, mexanizmi. Paltarlarda qalan iz və zədələnmələr.

C.2.2d(2) Aviasiya qəzaları zamanı zədələyici amillər. Təyyarənin daxilindəki travmalar zamanı: dinamik yüklənmə, zərbə yüklənməsi, qarşıdangələn hava axını, partlayış dekompressiyası. Təyyarənin enməsi və yerə dəyməsi zamanı onun daxilindəki travmalar zamanı: təyyarənin daxilindəki küt əşyalar və kəmərlər, partlayış dalğası, alov, toksiki yanma məhsulları (dəm qazı). Yerdə təyyarənin xarici hissələri ilə travmalar zamanı: işləyən reaktiv mühərrik, təyyarə qanadlarının ön kənarı, təyyarənin təkərləri, təyyarənin pərləri.

C.2.2d(3) Hava nəqliyyatı qəzalarının müxtəlif növləri zamanı ekipajda və sərnişinlərdə baş verən zədələnmələrin xarakteri. Ümumi xarakteristika. Uçuş zamanı təyyarənin daxilindəki

travmalar zamanı. Enmə və yerə dəymə zamanı təyyarənin daxilindəki travmalar zamanı. Yerdə təyyarənin xarici hissələrinin təsirindən baş verən travmalar zamanı.

C.2.2d(4) Hava nəqliyyatı qəzaları zamanı məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri. Məhkəmə-tibbi ekspertizanın keçirilmə planı. Uçuş qəzasının baş vermə şəraiti ilə tanışlıq, ekipaj üzvlərinin həlak olması barədə sənədlərin öyrənilməsi. Hadisə yerinə baxış. Aviasion texnika ilə tanışlıq. Meyitlərin və meyit qalıqlarının məhkəmə-tibbi ekspertizası. Laborator müayinələrin keçirilməsi. «Ekspert rəyi»nin tərtib edilməsi.

PFR-C.2.2e. Su nəqliyyatı travmaları. Su nəqliyyatı travmalarının təsnifatı, ümumi məlumat. Baş vermə səbəbləri. Elmi tədqiqatlar. Su nəqliyyatlarının konstruktiv xüsusiyyətləri barədə qısa məlumat. Su nəqliyyatı travmaları zamanı məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları. Terminologiya və təsnifat. Travmatizmin variantları, mexanizmi.

PFR-C.2.3. İdman travması.

PFR-C.2.3a. İdman travmatizmi barədə ümumi məlumat. Ölümcül və qeyri-ölümcül idman travmaları.

C.2.3a(1) Uşaqlar və cavanlar arasında idman travmalarının rast gəlmə tezliyi və baş vermə səbəbləri. İdman travmalarının baş verməsi şərtləri.

C.2.3a(2) İdman travmaları zamanı məhkəmə-tibbi ekspertizanın həll etdiyi məsələlər və onun imkanları.

C.2.3a(3) İdman travmatizminin profilaktikası, idmançılar üzərində tibbi nəzarət.

PFR-C.2.3b. İdmanın bəzi növləri ilə məşğuliyyət zamanı xəsarətlərin baş vermə mexanizmləri və morfoloji xüsusiyyətləri. Daha çox xəsarətlər baş verən idman növləri: boks, güləş, futbol, yüngül və ağır atletika, karate, u-şu, aykido, kinq-boksinq və s.

C.2.3b(1) İdmanın müxtəlif növləri ilə məşğuliyyət zamanı xəsarətlərin baş vermə mexanizmi.

C.2.3b(2) Tipik lokalizasiyaları, zədələrin xarakteri, zədələnmələrin gediş xüsusiyyətləri və nəticələri.

C.2.3b(3) İdman travmaları zamanı ölümün səbəbi.

C.2.3b(4) İdman travmaları zamanı meyitlərin və ya canlı şəxslərin məhkəmə-tibbi ekspertizalarının keçirilməsi metodikası.

PFR-C.2.4. Yıxılma zamanı baş verən xəsarətlər.

PFR-C.2.4a. Yıxılmalar barədə ümumi məlumat, təsnifat.

C.2.4a(1) Baş vermə səbəbləri, rast gəlmə tezliyi.

C.2.4a(2) Yıxılmalar zamanı məhkəmə-tibbi ekspertizaların keçirilməsinin əhəmiyyəti, məsələləri və imkanları.

C.2.4a(3) Terminologiya və təsnifat.

C.2.4a(4) Paltarlarda olan izlər və zədələnmələr.

PFR-C.2.4b. Yıxılmalar zamanı xəsarətlərin əmələ gəlmə mexanizmi və şərtləri.

C.2.4b(1) Yıxılmaların variantları, yerə enmələrin üsulları. Yıxılmaların mərhələləri.

C.2.4b(2) Xəsarətlərin lokalizasiyalarını və xüsusiyyətlərini müəyyənləşdirən şərtlər.

C.2.4b(3) Yıxılmalar zamanı spesifik, xarakter və qeyri-xarakter xəsarətlər.

C.2.4b(4) Yerli və kənar zədələnmələr.

C.2.4b(5) Xəsarətlərin yıxılmanın növündən və hündürlükdən, yerə dəymə üsulundan və digər amillərdən asılılığı.

PFR-C.2.4c. Hündürlükdən yıxılmalar zamanı baş verən xəsarətlər.

C.2.4c(1) Başı üstə; ayağı üstə; diz oynaqları üstə; sağrı nahiyəsi üstə; gövdə üstə hündürlükdən yıxılmalar zamanı xəsarətlərin əmələ gəlmə mexanizmləri, morfoloji xarakteristikası və lokalizasiyaları.

C.2.4c(2) İlkin yerli və ümumi morfoloji dəyişikliklər, onların əmələ gəlmə mexanizmləri və morfoloji xüsusiyyətləri.

C.2.4c(3) Öz boyu hündürlüyündən yıxılmalar zamanı əmələ gələn xəsarətlər. Ümumi məlumat. Yıxılmanı sürətləndirən faktorun iştirakı ilə və bu faktorun iştirakı olmadan yıxılmalar zamanı yaranan xəsarətlərin morfoloji xarakteristikası və lokalizasiyaları. Diferensial diaqnostikanın əsas prinsipləri. Məhkəmə-tibbi ekspertizanın xüsusiyyətləri.

PFR-C.2.5. İstehsalat və kənd təsərrüfatı travmaları.

PFR-C.2.5a. İstehsalatda rast gəlinən xəsarətlər, onların xüsusiyyətləri və morfoloji əlamətləri. Ümumi məlumat.

C.2.5a(1) Baş vermə səbəbləri və rast gəlmə tezliyi.

C.2.5a(2) Ölümcül və qeyri-ölümcül travmalar.

C.2.5a(3) Xəsarətlərin növləri və onların əmələ gəlmə mexanizmi.

C.2.5a(4) Hadisə yerinin müayinəsi zamanı mütəxəssisin qarşısında qoyulan məsələlər.

C.2.5a(5) Məhkəmə-tibbi ekspertizanın məsələləri və imkanları.

PFR-C.2.5b. İstehsalat müəssisələrində daha çox rast gəlinən travma növləri, onların xüsusiyyətləri və xarakteristikası.

C.2.5b(1) Dəzgahlar, maşınlar və digər istehsalat alətləri və onların hissələri təsirindən törənən xəsarətlər.

PFR-C.2.5c. Ağır və ya enən əşyaların arasında qalma nəticəsində bədənin sıxılması və zədələnməsi.

C.2.5c(1) Hündürlükdən yıxılmalar.

C.2.5c(2) Elektrik vurma nəticəsində zədələnmələr.

PFR-C.2.5d. Kənd təsərrüfatında rast gəlinən xəsarətlər, onların xüsusiyyətləri və xarakteristikası.

C.2.5d(1) Kənd təsərrüfatı maşınları təsirindən baş vermiş travmalar.

C.2.5d(2) Kənd təsərrüfatı heyvanları tərəfindən yetirilmiş xəsarətlər.

PFR-C.2.5e. Tırtıllı traktorlar tərəfindən törədilmiş zədələnmələr.

C.2.5e(1) Traktor travmaları barədə ümumi məlumat, Onların təsnifatı.

C.2.5e(2) Baş vermə səbəbləri və rast gəlmə tezliyi. Traktorların tipləri və konstruktiv xüsusiyyətləri barədə qısa məlumat.

C.2.5e(3) Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, qarşıya qoyulan məsələlər və imkanları. Terminologiya və təsnifat.

C.2.5e(4) Xəsarətlərin növləri, onların diaqnostik əhəmiyyəti.

C.2.5e(5) Paltarlarda olan izlər və zədələnmələr.

PFR-C.2.5f. Traktor travmalarının ayrı-ayrı növləri zamanı xəsarətlərin xüsusiyyətləri və başvermə mexanizmləri.

C.2.5f(1) Bu travmaların variant və mərhələləri.

C.2.5f(2) Hərəkətdə olan traktorun hissələri tərəfindən, törədilmiş xəsarətlər, tırtılların bədən üzərindən keçməsi nəticəsində baş verən xəsarətlər, hərəkətdə olan traktordan yıxılma zamanı baş verən xəsarətlər və sair variantlarda baş verən xəsarətlər zamanı bədənin ayrı-ayrı nahiyələrində meydana çıxan zədələnmələrin əmələ gəlmə mexanizmi, xüsusiyyətləri, morfoloji xarakteristikası və lokalizasiyaları.

C.2.5f(3) Traktor travmalarının diferensial diaqnostikası.

PFR-C.2.6. İti alətlərlə zədələnmələr.

PFR-C.2.6a. İti alətlər təsirindən törədilmiş xəsarətlər barədə ümumi məlumat.

C.2.6a(1) Baş vermə səbəbləri və rast gəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları.

C.2.6a(2) İti əşyaların (alətlərin və silahların) təsnifatı. Onların quruluş xüsusiyyətləri.

C.2.6a(3) Zədələnmələrin təsnifatı, mexanizmləri, onların formalaşmasına təsir edən şərtlər. Zədələnmələrin növləri.

C.2.6a(4) Xəsarətlərin morfoloji əlamətləri. Onların forması, uzunluğu, eni, dərinliyi, kənarlarının xarakteri, divarlarının, ujunun və dibinin xarakterləri.

C.2.6a(5) Dərinin, dərialtı piy toxumanın, sümüküstlüyünün, qığırdaq və sümük toxumalarının, daxili üzvlərin zədələnmələrinin makroskopik və mikroskopik xüsusiyyətləri.

C.2.6a(6) İti alətlərlə zədələnmələrin küt alət zədələnmələrindən diferensial diaqnostikası.

C.2.6a(7) Sağlamlığa zərərvurmanın təyini.

C.2.6a(8) Ölümün səbəbinin təyini.

C.2.6a(9) Paltarların zədələnmə xüsusiyyətləri.

PFR-C.2.6b. Ekspertiza obyektlərinin və alətin laborator tədqiqat üsulları (histoloji və histokimyəvi, ölçmə üsulu, bilavasitə mikroskopiya üsulu, rentgenoloji, fotoqrafik, emission-spektral, trassoloji, qrafik kodlaşdırma və sair).

C.2.6b(1) Travma alətinin individual xüsusiyyətlərinin identifikasiyası.

C.2.6b(2) İti alətlərlə zədələnmələr zamanı məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

PFR-C.2.6c. Kəsici alətlərlə yetirilmiş xəsarətlər. Xüsusiyyətləri, tərkib elementləri. Təsir mexanizmləri. Zədələnmə mexanizmləri. Morfoloji xarakteristikası. Xəsarətlərin xarakterinin bu alətlərin təsir şərtlərindən, lokalizasiyalarından və toxumaların quruluş xüsusiyyətlərindən asılılığı.

PFR-C.2.6d. Deşici alətlər və əşyalarla yetirilmiş xəsarətlər. Xüsusiyyətləri, tərkib elementləri. Təsir mexanizmləri. Zədələnmə mexanizmləri. Morfoloji xarakteristikası. Xəsarətlərin xarakterinin bu alətlərin təsir şərtlərindən, lokalizasiyalarından və toxumaların quruluş xüsusiyyətlərindən asılılığı.

PFR-C.2.6e. Deşici-kəsici alət və əşyalarla yetirilmiş xəsarətlər. Xüsusiyyətləri, tərkib elementləri. Təsir mexanizmləri. Zədələnmə mexanizmləri. Morfoloji xarakteristikası. Xəsarətlərin xarakterinin bu alətlərin təsir şərtlərindən, lokalizasiyalarından və toxumaların quruluş xüsusiyyətlərindən asılılığı.

PFR-C.2.6f. Çapıcı alət və əşyalarla yetirilmiş xəsarətlər. Xüsusiyyətləri, tərkib elementləri. Təsir mexanizmləri. Zədələnmə mexanizmləri. Morfoloji xarakteristikası. Xəsarətlərin xarakterinin bu alətlərin təsir şərtlərindən, lokalizasiyalarından və toxumaların quruluş xüsusiyyətlərindən asılılığı.

PFR-C.2.6g. Mişarlayıcı alət və əşyalarla yetirilmiş xəsarətlər. Xüsusiyyətləri, tərkib elementləri. Təsir mexanizmləri. Zədələnmə mexanizmləri. Morfoloji xarakteristikası. Xəsarətlərin xarakterinin bu alətlərin təsir şərtlərindən, lokalizasiyalarından və toxumaların quruluş xüsusiyyətlərindən asılılığı.

PFR-C.2.7. Odlu silahlarla zədələnmələr.

PFR-C.2.7a. Odlu silahlar barədə ümumi məlumat.

C.2.7a(1) Odlu silah travmalarının baş vermə səbəbləri və rastgəlmə tezliyi.

C.2.7a(2) Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları.

.

C.2.7a(3) Silah və döyüş sursatları. Odlu silahların növləri (döyüş silahları, idman silahları, ov silahları, xüsusi atipik silahlar, qaz silahları).

C.2.7a(4) Döyüş və ov silahlarının konstruktiv xüsusiyyətləri barədə qısa məlumat.

C.2.7a(5) Patron və onun tərkib hissələri. Güllə və qırmaların növləri.

C.2.7a(6) Barıt, onun tərkibi və növləri.

PFR-C.2.7b. Atəşin faktorları.

C.2.7b(1) Atəşin mexanizmi və onu şərtləndirən faktorlar.

C.2.7b(2) Odlu silah və onun tərkib hissələri.

C.2.7b(3) Yaxın məsafədən atəşin faktorları.

PFR-C.2.7c. Dirənmiş vəziyyətdə, yaxın məsafədən və uzaq məsafədən odlu silah güllə yaralanmaları.

C.2.7c(1) Güllənin təsir mexanizmləri: deşiji, pazvari, kontuizion, hidrodinamik, dağıdcı.

C.2.7c(2) Odlu silah yaraları: tərkib hissələri (giriş dəliyi, çıxış dəliyi, yara kanalı), yara zonası (yara kanalı, toxumaların əzilməsi, molekulyar titrəmə). Xarakterinə görə və atəşin məsafəsindən asılı olaraq odlu silah yaralanmalarının təsnifatı. Güllə yaralarının giriş və çıxış dəliklərinin morfoloci xarakteristikası. Yara kanalı. Giriş və çıxış dəliklərinin diferensiasiyası.

C.2.7c(3) Dirənmiş vəziyyətdə və yaxın məsafədən atəş zamanı, uzaq məsafədən atəş zamanı güllə yaralanmalarının morfoloci əlamətləri, xarakter xüsusiyyətləri, biri-birindən diferensiasiyası.

C.2.7c(4) Güllə yaralanmalarının xüsusi növləri (avtomat sırası, xüsusi təyinatlı güllələrlə zədələnmələr, rikoşetli güllələrlə zədələnmələr, yeni silah növlərindən zədələnmələr və sair).

PFR-C.2.7d. Qırma silahları ilə zədələnmələr. Ov tüfəngi. Döyüş sursatları. Ov patronlarının tərkib hissələri. Ov sursatlarının təsir mexanizmləri. Qırmalarla zədələnmələrin yaranın xarakterindən və atəşin məsafəsindən asılı olaraq təsnifatları. Qırma yaralanmalarında giriş və çıxış dəliklərinin morfoloji xüsusiyyətləri. Qırma yaralanmaları zamanı toxumaların və paltarların laborator müayinə üsulları. Məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

PFR-C.2.7e. Gülləsiz atəşlər, atipik silahlar, qaz silahları, atipik sursatlar zamanı xəsarətlər. Xəsarətlərin morfoloji xüsusiyyətləri.

PFR-C.2.7f. Partlayış zamanı baş verən xəsarətlər. Partlayış və partlayıcı maddələr barədə məlumat. Partlayışın təsir faktorları. Laborator müayinə üsulları. Məhkəmə-tibbi ekspertizanın xüsusiyyətləri.

PFR-C.3. DİGƏR FİZİKİ AMİLLƏRİN TƏSİRİNDƏN BAŞ VERƏN ZƏDƏLƏNMƏLƏRİN MƏHKƏMƏ-TİBBİ EKSPERTİZASı

Peşə bilikləri və bacarıqları.

PFR-C.3.1. Texniki və atmosfer elektrikvurmaları təsirindən baş verən xəsarətlər və ölüm.

PFR-C.3.1a. Texniki elektrikvurma zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklər və ölümün mexanizmi. Ümumi məlumat.

C.3.1a(1) Ümumi məlumat. Elektrik vurmanın baş vermə səbəbləri və şərtləri.

C.3.1a(2) Elektrik cərəyanının fiziki xassələri. Təsiretmə müddəti. Elektrik cərəyanının orqanizmin vəziyyətindən asılılığı. Elektrik cərəyanının orqanizmə təsir mexanizmi.

C.3.1a(3) Elektrik cərəyanının orqanizmə yerli (istilik, mexaniki və elektrik) və ümumi təsirləri (və ya bioloji). Bu zaman orqanizmdə patofizioloji dəyişikliklər.

.

C.3.1a(4) Elektrotravma zamanı üzv və toxumalarda baş verən dəyişikliklər. Yerli morfoloji dəyişikliklər (cərəyanın daxil olduğu və çıxdığı yerlərdə baş verən dəyişikliklər, elektrik vurma, elektrik yanığı, mexaniki zədələnmələr). Daxili üzvlərdə baş verən dəyişikliklər, onların nəticələri. Ölümün səbəbi.

C.3.1a(5) Elektrik cərəyanı ilə zədələnmənin diaqnostikası və laborator müayinə üsulları. Mikroskopik, histokimyəvi, kontakt-diffuzion, mikrokristallik, spektroqrafik, elektroforez, klinik (mioqlobinin təyini) müayinə üsulları, paltarların tibbi-trassoloji tədqiqat üsulları.

C.3.1a(6) Elektrotravmanın diferensial diaqnostikası.

PFR-C.3.1b. Atmosfer elektrikvurması zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklər və ölümün mexanizmi. Ümumi məlumat.

C.3.1b(1) Atmosfer elektrik vurmasının (ildırımvurma) orqanizmə yerli və ümumi təsir mexanizmləri.

C.3.1b(2) Orqanizmdə baş verən patofizioloji dəyişikliklər, yerli morfoloji dəyişikliklər, ümumi morfoloji dəyişikliklər. Daxili üzv və toxumalarda baş verən morfoloji dəyişikliklər. İldırımvurma zamanı ölümün mexanizmi.

C.3.1b(3) Atmosfer elektrikvurması zamanı zədələnmələrin diaqnostikası və laborator müayinə üsulları (mikroskopik, histokimyəvi, kontakt-diffuzion, rentgenoqrafik, emission-spektroqrafik, elektroforez, atom-absorbsion, klinik – mioqlobinin təyini).

C.3.1b(4) Məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

PFR-C.3.2. Aşağı və yüksək hərarətlərin təsirindən baş verən xəsarətlər və ölüm.

PFR-C.3.2a. Soyuğun ümumi və yerli təsiri nəticəsində üzv və toxumalarda baş verən patomorfoloji dəyişikliklər və klinik əlamətlər. Ümumi məlumat. Baş vermə səbəbləri və rast gəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları.

PFR-C.3.2b. Soyuğun yerli təsiri (donma).

C.3.2b(1) Donma zamanı orqanizmdə baş verən patofizioloji dəyişikliklər, klinik əlamətlər (gizli və reaktiv mərhələlər).

C.3.2b(2) Donmanın dərəcələri (dəri rənginin dəyişilməsi, dəridə qovuqcjuqların əmələ gəlməsi, dərinin nekrozlaşması və toxumaların nekrozlaşması). Donmanın ağırlaşmaları və nəticələri.

C.3.2b(3) Donmalar zamanı sağlamlığa zərər vurmanın təyini.

C.3.2b(4) Ölümün səbəbi, mexanizmi və baş vermə müddətləri.

PFR-C.3.2c. Soyuğun orqanizmə ümumi təsiri (bədənin ümumi soyuması).

C.3.2c(1) Orqanizmdə baş verən patoloji dəyişikliklər, klinik əlamətlər.

C.3.2c(2) Sağlamlığa zərərvurmanın təyini.

C.3.2c(3) Bədənin ümumi soyuması zamanı ölümün səbəbi və tanatogenez.

C.3.2c(4) Meyitdə ümumi soyumanın diaqnostikasının əsas prinsipləri.

C.3.2c(5) Bədənin ümumi soyuması zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklər.

C.3.2c(6) Xarici müayinə zamanı aşkar olunan dəyişikliklər.

C.3.2c(7) Daxili üzvlərdə baş verən morfoloji dəyişikliklər.

C.3.2c(8) Bədənin ümumi soyuması zamanı həyata keçirilən laborator tədqiqatlar (histoloji, histokimyəvi, biokimyəvi və sair).

C.3.2c(9) Meyitin donması (buzlaşması). Donmuş meyitlərin müayinə xüsusiyyətləri.

PFR-C.3.2d. Yüksək hərarətin orqanizmə ümumi və yerli təsiri. Ümumi məlumat. Baş vermə səbəbləri və rast gəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları.

PFR-C.3.2e. Yüksək hərarətin orqanizmə yerli təsiri (yanıqlar).

C.3.2e(1) Ümumi məlumat. Xəsarət yetirici faktorların növündən və həmçinin toxumaların zədələnmə dərəcələrindən asılı olaraq yanıqların növləri (təsnifatı).

C.3.2e(2) Yanıqlar zamanı orqanizmdə baş verən patoloji dəyişikliklər, klinik əlamətlər.

C.3.2e(3) Yanıq xəstəliyi, onun dövrləri – yanıq şoku, toksemiya, septikotoksemiya, üzülmə, rekonvalessensiya dövrləri.

C.3.2e(4) Yanıq xəstəliyinin ağırlaşma və nəticələri.

C.3.2e(5) Sağlamlığa zərərvurmanın təyin edilməsi.

C.3.2e(6) Yanıq zamanı ölümün səbəbi və tanatogenez.

C.3.2e(7) Meyitlərdə yanıq xəstəliyinin diaqnostikasının əsas prinsipləri.

C.3.2e(8) Yanıq xəstəliyinin morfoloji diaqnostikası. Xarici və daxili müayinələr zamanı aşkar olunan morfoloji dəyişikliklər.

C.3.2e(9) Yanıq xəstəliyi zamanı histoloji, histokimyəvi, biokimyəvi və s. laborator müayinə üsulları.

C.3.2e(10) Kömürləşmiş meyitlərdə məhkəmə-tibbi müayinələrin xüsusiyyətləri.

PFR-C.3.2f. Yüksək hərarətin orqanizmə ümumi təsiri.

C.3.2f(1) İstilikvurma. Səbəbləri, patogenezi, klinikası, morfoloji dəyişikliklər.

C.3.2f(2) Günvurma. Səbəbləri, patogenezi, klinikası, morfoloji dəyişikliklər.

C.3.2f(3) İstilikvurma və günvurma zamanı məhkəmə-tibbi diaqnostika.

PFR-C.3.3. Atmosfer təzyiqinin kəskin dəyişməsi nəticəsində baş verən xəsarətlər və ölüm.

PFR-C.3.3a. Aşağı atmosfer təzyiqinin kəskin təsiri nəticəsində sağlamlığın pozulması və ölümün baş verməsi (hipobariya). Ümumi məlumat. Baş vermə səbəbləri və şərtləri. Rast gəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları.

PFR-C.3.3b. Dağ və ya yüksəklik xəstəliyi. Orqanizmdə baş verən patoloji dəyişikliklər, klinik əlamətlər, patomorfoloji dəyişikliklər. Meyitlərin müayinəsi zamanı məhkəmə-tibbi diaqnostika. Laborator diaqnostika üsulları.

PFR-C.3.3c. Dalğıcların bədəninin sıxılması. Bu zaman baş verən patoloji pozğunluqlar, klinik əlamətlər, patomorfoloji dəyişikliklər. Meyitlərin müayinəsi zamanı məhkəmə-tibbi diaqnostika.

PFR-C.3.3d. Dekompressiya xəstəliyi (Kesson xəstəliyi) və partlayış dekompressiyası. Patoloji pozğunluqlar, klinik əlamətlər, patomorfoloji dəyişikliklər. Meyitlərin məhkəmə-tibbi müayinəsi xüsusiyyətləri və diaqnostika.

PFR-C.3.3e. Aşağı atmosfer təzyiqinin kəskin təsiri nəticəsində sağlamlığın pozulması və ölümün baş verməsi (hiperbariya). Ümumi məlumat. Baş vermə səbəbləri, rastgəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizanın əhəmiyyəti, məsələləri və imkanları. Ağ ciyərlərin barotravması. Baş verən patoloji pozğunluqlar, klinik əlamətlər, patomorfoloji dəyişikliklər. Laborator diaqnostika üsulları. Meyitlərin müayinəsi zamanı məhkəmə-tibbi diaqnostika.

PFR-C.3.4. Şüalanma təsirindən baş verən xəsarətlər və ölüm.

PFR-C.3.4a. Şüa zədələnmələri zamanı klinik və patomorfoloji dəyişikliklər. Ümumi məlumat. Radioaktiv maddələrin ionlaşdırıcı şüalanmaları barədə qısa məlumat. İonlaşdırıcı şüalanmanın mənbələri. Zədələnmə imkanları. Radiasiyanın orqanizmə təsirinin məzmunu. Radiasiya zədələnmələri.

PFR-C.3.4b. Yerli zədələnmələr – radiasiya yanıqları. Klinik əlamətlər. Nəticələri. Radiasion və termik yanıqların diferensiasiyası. Sağlamlığa zərər vurmanın təyini. Məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

PFR-C.3.4c. Orqanizmin ümumi şüalanması – şüa xəstəliyi. Radiasiyaya qarşı orqanizmin reaksiyası. Şüa xəstəliklərinin təsnifatı (kəskin və xroniki şüa xəstəlikləri).

C.3.4c(1) Kəskin şüa xəstəliyinin ağır, az ağır və yüngül formaları. Klinik əlamətləri (başlanğıc, latent, klinik və bərpa dövrlərdə).

C.3.4c(2) Xroniki şüa xəstəliyi.

PFR-C.3.4d. Sağlamlığa zərər vurmanın təyini.

PFR-C.3.4e. Şüa xəstəliyi zamanı patomorfoloji dəyişikliklər. Şüa xəstəliyi zamanı qanyaradıcı və limfatik sistemin üzvlərində, parenximatoz üzvlərdə, tənəffüs və həzm sistemi üzvlərində baş verən morfoloji dəyişikliklərin xüsusiyyətləri. Ağırlaşması, nəticəsi və ölümün səbəbi. Digər patologiyalardan diferensial diaqnostikası.

PFR-C.3.4f. Məhkəmə-tibbi diaqnostika. Histoloji, histokimyəvi, məhkəmə-kimyəvi, bakterioloji, sitoloji və digər laborator müayinə üsulları. Meyitə və onun paltarlarına dozimetrik nəzarət.

PFR-C.4. MEXANİKİ ASFİKSİYALARıN MƏHKƏMƏ-TİBBİ EKSPERTİZASı

Peşə bilikləri və bacarıqları.

PFR-C.4.1. Xarici tənəffüsün pozulması növləri.

PFR-C.4.1a. Ümumi məlumat. Baş vermə səbəbləri və rast gəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları. «Oksigen aclığı» məfhumunun məzmunu. Növləri. Xarici tənəffüs pozğunluqlarının təsnifatı. Bu zaman orqanizmdə baş verən patoloji pozğunluqlar, əsas klinik əlamətlər və patomorfoloji dəyişikliklər.

PFR-C.4.1b. Mexaniki asfiksiyanın təsnifatı. Stranqulyasion asfiksiyalar (boyun üzvlərinin sıxılması): asılma, ilgəklə boğma, əllə boğma. Obturasion asfiksiyalar (tənəffüs yollarının tutulması nəticəsində): ağız və burun dəliklərinin tutulması, tənəffüs yollarının yad cisimlərlə tutulması. Kompression asfiksiyalar (döş qəfəsinin və qarının sıxılması nəticəsində baş verən asfiksiyalar).

PFR-C.4.1c. Hipoksiyaların morfoloji təzahürləri. Tez baş verən ölüm əlamətləri. Xarici əlamətlər. Daxili əlamətlər.

PFR-C.4.1d. Hipoksiyalar zamanı morfoloji dəyişikliklərin patogenezi və morfogenezi.

PFR-C.4.2. Stranqulyasion hipoksiya.

PFR-C.4.2a. Asılma.

C.4.2a(1) Ümumi məlumat. Asılmanın növləri. Bədənin vəziyyəti. Materiallarından və boyuna dolanma sayından asılı olaraq ilgəklərin növləri. İlgəyin quruluşu: sürüşkən ilgəklər və hərəkətsiz ilgəklər (açıq və qapalı). İlgəklərin vəziyyətləri (tipik, yan, atipik).

C.4.2a(2) Ölümün baş vermə mexanizmi. Asılma zamanı boyun üzvlərinin sıxılmasının morfoloji əlamətləri.

C.4.2a(3) Stranqulyasiya şırımı, xüsusiyyətləri. Döş-körpücük və məməyəbənzər əzələlərin qırılması, boynun iri kalibrli arteriyalarının intimalarının cırılması, qırtlaq qığırdağında və dilaltı sümüyün buynuzlarında sınığın olması. Boyun fəqərələri nahiyəsində bağların qırılması və dartılması.

C.4.2a(4) Asılmanın həyatiliyini göstərən əlamətlər. Stranqulyasiya şırımının dibinin relyefindən asılı olaraq ilgək materialının təyin edilməsi.

C.4.2a(5) Stranqulyasiya şırımının həyatiliyinin təyin edilməsi məqsədilə laborator müayinələrin aparılması.

PFR-C.4.2b. İlgəklə boğulma. Patomorfoloji əlamətlər. İlgəklə boğulma zamanı əmələ gələn stranqulyasiya şırımının asılma zamanı əmələ gələn stranqulyasiya şırımından diferensiasiyası.

PFR-C.4.2c. Əllə boğma. Patomorfoloji əlamətlər.

PFR-C.4.2d. Obturasion asfiksiyalar.

C.4.2d(1) Ağzın və burunun əllə, yumşaq materiallarla tutulması. Baş vermə səbəbləri. Ölümün mexanizmi.

C.4.2d(2) Tənəffüs yollarının kompakt yad cisimlərlə tutulması. Başvermə səbəbləri. Ölümün mexanizmi.

C.4.2d(3) Traxeya və bronxların mənfəzlərinin müxtəlif səpələyici maddələrlə tutulması (qum, taxıl, un və sair). Baş vermə səbəblri. Ölümün mexanizmi.

C.4.2d(4) Tənəffüs yollarının aspirasion qusuntu kütlələri ilə tutulması. Başvermə səbəbləri. Ölümün mexanizmi.

C.4.2d(5) Obturasion asfiksiyaların hər biri növü üçün xarakter olan patomorfoloji dəyişikliklər.

C.4.2d(6) Meyitin məhkəmə-tibbi müayinəsi xüsusiyyətləri.

PFR-C.4.2e. Kompression hipoksiya. Döş qəfəsinin və qarının küt cisimlərlə sıxılması. Ölümün başvermə mexanizmi. Patomorfoloji dəyişikliklər.

PFR-C.4.2f. «Ekspert rəyi»nin tərtib edilməsi, nəticələrin çıxarılması.

PFR-C.4.3. Suda boğulma.

PFR-C.4.3a. Ümumi məlumat. Baş vermə səbəbləri və rastgəlmə tezliyi. Məhkəmə-tibbi ekspertizaların əhəmiyyəti, məsələləri və imkanları. Suda boğulmanın mexanizmi barədə nəzəriyyələr. Suda boğulmanın mərhələləri və tipləri.

PFR-C.4.3b. Suda boğulmanın patogenezi və morfogenezi, tanatogenezi. Suda boğulmanın inkişafında mərhələlilik. Ürəyin reflektor dayanması. İnspirator təngnəfəslik. Ekspirator təngnəfəslik. Terminal tənəffüs. Tənəffüsün və ürəkdöyünmənin dayanması. Suda boğulmanın morfoloji əlamətləri.

PFR-C.4.3c. Suda boğulmadan ölümün əlamətləri. Bu əlamətlərin yaranma mexanizmi. Ağız və burun dəliklərində, tənəffüs yollarında davamlı ağ xırdaqovuqcuqlu köpüyün meydana çıxması. Ağ ciyərlərin kəskin emfizeması. Subplevral qansızmalar. Sol ürəkdə hava emboliyası. Əsas sümük boşluğunda və digər kəllə sümükləri boşluqlarında boğulmanı törədən mayenin (su) olması. Mədədə suyun toplanması. Toxumalarda damardaxili hemoliz əlamətləri. Qanda və daxili üzvlərdə plankton və psevdoplanktonlar. Tez baş verən ölüm əlamətləri.

PFR-C.4.3d. Meyitin suda qalması əlamətləri. «Qaz dərisi» əlaməti, xayalıq dərisinin büzüşməsi. Meyit ləkələrinin çəhrayı rəngli çalarlılığı. Dərinin (ovucun və ayaq dərisinin) maserasiyası və onun qopub ayrılması.

PFR-C.4.3e. Sudan çıxarılmış meyitlərdə dəyişiklik və xəsarətlər. Suya düşənə qədər baş vermiş həyati xəsarətlər (suya tullanarkən), həmçinin suda katerlərin sualtı hissələrinin təsirindən baş verən xəsarətlər (həyati). Suda olan meyitdə baş verən ölümdən sonrakı xəsarətlər.

PFR-C.4.3f. Suda baş verən qəfləti ölüm. Səbəbləri. Məhkəmə-tibbi diaqnostikası.

PFR-C.4.4. Suda boğulmalar zamanı diaqnostikanın laborator üsulları. Diatom plankton üsulu, kristallooptik tədqiqatlar (daxili üzvlərdə kvars tərkibli mineral hissəciklərin aşkar olunması),

histoloji tədqiqatlar, krioskopiya üsulu, digər laborator tədqiqat üsulları (kimyəvi üsul və sair). Materialın götürülməsi. Tədqiqat üsulları. Alınmış nəticələrin qiymətləndirilməsi.

PFR-C.4.5. Meyitin məhkəmə-tibbi müayinəsi xüsusiyyətləri. Ümumi məlumat.

PFR-C.4.5a. Meyitlərin müayinəsi qaydaları və metodikası.

PFR-C.4.5b. Laborator müayinələr üçün materialların götürülməsi qaydaları. Alınmış nəticələrin qiymətləndirilməsi.

PFR-C.4.5c. Ölümün səbəbinin təyin edilməsi. «Ekspert rəyi»nin tərtib edilməsi qaydaları, nəticə hissənin tərtibi.

PFR-C.5. KİMYƏVİ TRAVMALARıN (ZƏHƏRLƏNMƏ) MƏHKƏMƏ-TİBBİ EKSPERTIZASı

Peşə bilikləri və bacarıqları.

PFR-C.5.1. Zəhərli maddələrin təsiri və zəhərlənmələrin aşkarlanması.

PFR-C.5.1a. Ümumi məlumat. Toksikologiyanın predmeti. «Zəhərlənmə» anlayışı. «Zəhər» və «Zəhərli maddə» məfhumlarının məhkəmə-tibbi və ümumbioloji mənaları. Zəhərlərin təsnifatı. Zəhərlənmələrin mənbələri və baş vermə tezlikləri. Zəhərlərin fiziki-kimyəvi xüsusiyyətləri, kimyəvi strukturları.

PFR-C.5.1b. Zəhərlərin təsir şərtləri: konsentrasiyası, bədənə daxil olan miqdarı, daxil olma yolu, orqanizmdə çevrilmə xarakteri, orqanizmdən xaric olma tipləri, orqanizmin vəziyyəti, individual həssaslıq və sair. Zəhərin təsir intensivliyi, daxil olma və çıxma yolları. Zəhərlərin orqanizmə ümumi və yerli təsirləri. Zəhərlənmənin gedişi (kəskin, yarımkəskin və xroniki) və onların nəticələri. Zəhərlənmələrin profilaktikası.

PFR-C.5.1c. Zəhərlənmələrin aşkar olunması. Hadisə yerinə baxış. Meyitlərin məhkəmə-tibbi müayinəsi xüsusiyyətləri. Laborator diaqnostika metodları.

PFR-C.5.2. Aşılayıcı zəhərlərlə zəhərlənmələr.

PFR-C.5.2a. Ümumi məlumat. Başvermə səbəbləri, şərtləri, rastgəlmə tezliyi. Kimyəvi tərkiblərindən və təsir mexanizmlərindən asılı olaraq aşılayıcı zəhərlərin təsnifatı. Aşılayıcı zəhərlərin yerli və ümumi təsirləri. Orqanizmdə patoloji pozğunluqlar. Patomorfoloji dəyişikliklər. Ölümün baş vermə mexanizmi.

PFR-C.5.2b. Xlorid turşusu, nitrat turşusu, sulfat turşusu, sirkə turşusu, karbol turşusu və digər turşularla, həmçinin də qələvilərlə (kalium, natrium, ammonium və s.) zəhərlənmələr zamanı patogenez, morfogenez, morfoloji dəyişikliklər, klinik əlamətlər.

PFR-C.5.2c. Məhkəmə-tibbi və laborator diaqnostika üsulları.

PFR-C.5.3. Destruktiv zəhərlərlə zəhərlənmələr..

PFR-C.5.3a. Ümumi məlumat. Səbəbləri, şərtləri, rast gəlmə tezlikləri. Destruktiv zəhərlərin təsnifatı (civə, qurğuşun, mis, arsen, antimon (sürmə) və sair ağır metal duzları). Destruktiv zəhərlərin toksikoloji xarakteristikası. Orqanizmdə patoloji pozğunluqlar, patomorfoloji dəyişikliklər. Ölümün mexanizmi.

PFR-C.5.3b. Civə və civə birləşmələri ilə zəhərlənmələr (süleymani, kalomel, qranozan və sair).

PFR-C.5.3c. Arsen və onun birləşmələri ilə zəhərlənmələr.

PFR-C.5.3d. Qurğuşun və onun duzları ilə zəhərlənmələr.

PFR-C.5.4. Hemolitik zəhərlərlə zəhərlənmələr.

PFR-C.5.4a. Ümumi məlumat. Baş vermə səbəbləri, şərtləri və rast gəlmə tezliyi. Hemolitik zəhərlərin təsnifatı, toksikoloji xarakteristikası. Orqanizmdə patoloji pozğunluqlar, patomorfoloji dəyişikliklər, klinik əlamətlər. Tanatogenez.

PFR-C.5.4b. Dəm qazı ilə zəhərlənmə. Patoloji, patomorfoloji, klinik, biokimyəvi dəyişikliklər.

.

PFR-C.5.4c. Methemoqlobin əmələ gətirən zəhərlərlə zəhərlənmələr (hidroxinon, anilin, nitrobenzol, natrium-nitrit, bertoli duzu və s.).

PFR-C.5.5. Mərkəzi sinir sisteminə təsir edən zəhərlərlə zəhərlənmələr.

PFR-C.5.5a. Ümumi məlumat. Baş vermə səbəbləri, şərtləri, rastgəlmə tezliyi. Təsnifatı. Toksikoloji xarakteristikası. Orqanizmdə patoloji dəyişikliklər, patomorfoloji dəyişikliklər, klinik əlamətləri. Tanatogenez.

PFR-C.5.5b. Mərkəzi sinir sisteminə oyadıcı təsir edən zəhərlər: atropin, strixnin, skopolamin, psixotonik maddələr – fenamin, fenatin və s.

PFR-C.5.5c. Mərkəzi sinir sisteminə zəiflədici təsir edən maddələr: narkotik maddələr: etil spirti, efir, xloroform, metanol, etilenqlikol, dixloretan, yuxugətirici narkotik maddələr: morfin, kodein, kokain, heroin və s.

PFR-C.5.5d. Mərkəzi sinir sistemini iflic edən zəhərli maddələr: fosfor-üzvi birləşmələr, sinil turşusu və onun birləşmələri.

PFR-C.5.5e. Periferik sinir sisteminə təsir edən zəhərli maddələr: miorelaksantlar – tubarin, listenon, diplatsin və s, nikotin, paxikarpin və s.

PFR-C.5.5f. Alkoqol və onun surraqatları ılə zəhərlənmələr.

PFR-C.5.6. Qida zəhərlənmələri.

PFR-C.5.6a. Ümumi məlumat. Baş vermə səbəbləri. Təsnifatı.

PFR-C.5.6b. Bakterial mənşəli qida zəhərlənmələri. Botulizm: klinik və patomorfoloji diaqnostika. Salmonelloz: klinik və patomorfoloji diaqnostika. Bakterial toksinlərlə digər qida zəhərlənmələri. Bakterial mənşəli qida zəhərlənmələrinin diferensial diaqnostikası.

PFR-C.5.6c. Qeyri-bakterial mənşəli qida zəhərlənmələri. Bitki mənşəli zəhərli məhsullarla zəhərlənmələr (göbələklər, akonit və sair).

PFR-C.5.6d. Heyvan mənşəli zəhərli məhsullarla zəhərlənmələr (keyfiyyətsiz balıq məhsulları və sair).

PFR-C.5.6e. Qida zəhərlənmələrinin klinik və məhkəmə-tibbi diaqnostikası.

PFR-C.6. CANLı ŞƏXSLƏRIN (ZƏRƏRÇƏKMIŞIN, TƏQSIRLƏNDIRILƏNIN, ŞÜBHƏ EDILƏNIN VƏ DIGƏR ŞƏXSLƏRIN) MƏHKƏMƏ-TİBBİ EKSPERTİZASı

Peşə bilikləri və bacarıqları.

PFR-C.6.1. Canlı şəxslərin (zərərçəkmiş, təqsirləndirilən, şübhə edilən və digər şəxslər) məhkəmə-tibbi ekspertizasının keçirilmə metodikası.

PFR-C.6.1a. Məhkəmə-tibbi ekspertizanın təşkilinin və həyata keçirilməsinin prosessual əsasları. «Müayinə etmə» və «Ekspertiza» anlayışları. Ekspertizaların keçirilməsinin mütləqliyi. «Ekspert rəyi» və onun məzmunu.

PFR-C.6.1b. Məhkəmə-tibb ekspertinin səlahiyyət dairəsi. Məhkəmə-tibbi ekspertizanın səbəbləri.

PFR-C.6.1c. Bədən xəsarətləri zamanı (sağlamlığa zərərvurmanın dərəcələrinin təyini və digər məsələlərin təyin edilməsi, əmək qabiliyyətinin itirilməsi dərəcəsinin təyin edilməsi, sağlamlıq vəziyyətinin təyini, fiziki vəziyyətin təyini, süni və uydurma xəstəliklərin təyini).

PFR-C.6.1d. Cinsi vəziyyətin təyini zamanı (mübahisəli cinsi vəziyyətin təyini, cinsi toxunulmazlığın təyini, cinsi yetkinliyin təyini, dölyaratma qabiliyyətinin təyini, hamiləliyin təyini, keçmiş doğuş və abortların təyini).

PFR-C.6.1e. Cinsi cinayətlər zamanı (qızlıq bəkarətinin tamlığının təyini, cinsi əlaqədə olmanın təyini, əxlaqsız hərəkətlərin təyini və sair).

.

PFR-C.6.1f. Digər səbəblərdən (yaşın təyini, sağlamlıq vəziyyətinin təyini, sərxoşluq vəziyyətinin təyini və sair).

PFR-C.6.1g. Ekspertizaların keçirilməsinin yeri və şəraiti. Ambulatoriyalarda, tibb müəssisələrində, müstəntiqin otağında və həbs yerlərində, zərərçəkmişin evində, məhkəmə iclaslarında, stasionar şəraitində nəzarət.

PFR-C.6.1h. Məhkəmə-tibbi ekspertizaların növləri (ilkin, əlavə, təkrari, komisyon və kompleks).

PFR-C.6.1i. Canlı şəxslərin məhkəmə-tibb ekspertizalarının bəzi xüsusiyyətləri (ekspertizaların keçirilmə vaxtı, ekspertizaların keçirilməsində iştirak edən şəxslər, məhkəmə-tibbi ekspertizaların keçirilməsinin ümumi qaydaları və sair).

PFR-C.6.2. Sağlamlığa zərər vurmanın təyini üzrə məhkəmə-tibbi ekspertizalar.

PFR-C.6.2a. Sağlamlığa zərər vurmanın təyininin ümumi prinsipləri və qaydaları.

PFR-C.6.2b. Qəsdən sağlamlığa ağır zərər vurma. Onun əlamətləri. Həyat üçün təhlükəli xəsarətlər: onların təyin edilməsi, növləri, xarakteristikası. Ağır bədən xəsarətləri: görmənin itirilməsi, eşitmənin itirilməsi, hər hansı bir üzvün və ya onun funksiyasının itirilməsi, ruhi xəstəlik (və ya sağlamlığın başqa cür pozulması), hamiləliyin pozulması, əmək qabiliyyətinin 1/3-dən az olmamaqla uzun müddətə daimi itirilməsinə səbəb olan digər xəsarətlər, narkomanlıq və ya toksikomanlıqla xəstələnmə, sifətin silinməz dərəcədə eybəcərləşməsi, peşəkar əmək qabiliyyətinin tam itirilməsi.

PFR-C.6.2c. Qəsdən sağlamlığa az ağır zərər vurma və onun əlamətləri. Həyat üçün təhlükənin olmaması. Ağır zərər vurmada nəzərdə tutulmuş hallara səbəb olmama, sağlamlığın uzun müddətə pozulması (3 həftədən çox), ümumi əmək qabiliyyətinin 10%-dən 33%-ə qədər davamlı itirilməsi.

PFR-C.6.2d. Qəsdən sağlamlığa yüngül zərər vurma. Sağlamlığın qısa müddətə (21 günə qədər) pozulması, əmək qabiliyyətinin 10%-ə qədər itirilməsi və s. Qəsdən sağlamlığa yüngül zərərvurmanın növləri.

PFR-C.6.2e. Xəsarətlərin yetirilmə üsulları: əzab, işkəncə, döymə, sistematik döymə və s.

PFR-C.6.2f. Bədənin ayrı-ayrı nahiyələrində bədən xəsarətlərinin ağırlıq dərəcələrinin qiymətləndirilməsi və xarakteristikası: başın yumşaq toxumaları, kəllə skeleti sümükləri və baş beyin maddəsi, fəqərələr və onurğa beyni, boynun yumşaq toxumaları və boyun üzvləri, döş qəfəsi və döş qəfəsi üzvləri, qarın boşluğu üzvləri və qarın, çanaq sümükləri və cinsi üzvlər, yuxarı və aşağı ətraflar, hissiyyat üzvlərinin zədələnmələri (göz, qulaq, burun), çənə və dişlərin zədələnmələri.

PFR-C.6.2g. Sağlamlığa zərər vurmanın təyinində digər məsələlər. Xəsarətin nəticəsinin təyin olunmadığı hallarda məhkəmə-tibb ekspertinin fəaliyyəti. Zərərçəkəndə əvvəldən hər hansı xəstəliyin də olması. Xəsarətlə əlaqədar hər hansı tibbi manipulyasiya və ya müalicə tədbirləri. Bir neçə və ya müxtəlif xarakterli xəsarətlərin olması. Ayrı-ayrı şəxslər tərəfindən xəsarətlərin yetirilməsi. Xəsarətlərin uşaqlarda və ya qoca yaşlı şəxslərdə olması.

PFR-C.6.2h. Sağlamlığa zərər vurmanın dərəcələrinin təyini metodikası.

PFR-C.6.2i. «Ekspert rəyi»nin tərtibi. Nəticə hissənin tərtib edilməsi.

PFR-C.6.2j. Xəsarətlərin ayrı-ayrı növlərində məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

PFR-C.6.2k. Küt alət, silah və əşyaların təsirindən; Nəqliyyat vasitələrinin hissələrinin təsirindən; hündürlükdən yıxılmalar zamanı; iti alətlərin, əşyaların və silahların təsirindən; odlu silahların təsirindən; termiki və kimyəvi amillərin təsirindən; elektrikvurmadan və s. amillərin təsirindən baş verən xəsarətlər zamanı aparılan məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

PFR-C.6.2l. Dəri çapıqlarının məhkəmə-tibbi ekspertizası.

PFR-C.6.2m. Zöhrəvi xəstəliklərlə yoluxmanın məhkəmə-tibbi ekspertizası.

PFR-C.6.3. Əmək qabiliyyətinin itirilməsi faizinin təyini üzrə məhkəmə-tibbi ekspertizalar.

PFR-C.6.3a. Ümumi məlumat. «Əmək qabiliyyəti» məfhumunun mənası. Ümumi, peşə və xüsusi əmək qabiliyyətləri. Əmək qabiliyyətinin daimi və ya müvəqqəti itirilməsi. Həkim-məsləhət komissiyası. Həkim-əmək komissiyası.

PFR-C.6.3b. Cinayət və mülki işlər üzrə əmək qabiliyyətinin daimi itirilmə faizinin təyininə dair məhkəmə-tibb ekspertizası. Səbəbləri. Keçirilmə vaxtı. Təyin edilməsi qaydaları. Təqdim edilən sənədlər. Ekspertlərin tərkibi. Məhkəmə-tibbi ekspertizasının metodikası. Ekspertiza tərəfindən həll ediləsi məsələlər. Təkrari müayinənin müddəti.

PFR-C.6.3c. Azyaşlı və həddi-buluğa çatmayan şəxslərdə əmək qabiliyyətinin itirilməsinin təyini üzrə məhkəmə-tibbi ekspertizanın xüsusiyyətləri.

PFR-C.6.4. Süni xəstəliklər və xəstəhal vəziyyətlərində (simulyasiya) keçirilən məhkəmə-tibbi ekspertizalar.

PFR-C.6.4a. Ümumi məlumat. «Özünə xəsarət yetirmə», «Süni xəstəlik», «Simulyasiya», «Aqqravasiya», «Dissimulyasiya» «Dezaqqravasiya» anlayışları. Süni xəstəliklərin və xəstəhal vəziyyətlərinin yaradılması zəruriyyətləri və bəhanələri. Təsnifatı. Məhkəmə-tibbi ekspertizanın vəzifə və imkanları, vasitə və üsulları, keçirilmə qaydası və xüsusiyyətləri.

PFR-C.6.4b. Özünə xəsarət yetirmənin morfoloji xüsusiyyətləri. Küt alətlərlə, iti alətlərlə, odlu silahlarla, nəqliyyat vasitələri ilə, yad cisimlər udmaqla, bədəni bilə-bilə soyutmaq və ya bədən hissəsini dondurmaqla və digər vasitələrlə özünə xəsarət yetirmə.

PFR-C.6.4c. Süni xəstəliklərin növləri və morfoloji əlamətləri. Dəri və dərialtı toxumaların xəstəlikləri. Damar xəstəlikləri. Tənəffüs, həzm, ürək-damar və sidik-cinsiyyət sistemlərinin terapevtik xəstəlikləri. Cərrahi xəstəliklər (dəbəlik, babasil, düz bağırsağın enməsi və sair). Qulaq, burun, boğaz və ağız boşluğu üzvləri xəstəlikləri. Göz xəstəlikləri. Ginekoloji xəstəliklər. Digər xəstəliklər.

PFR-C.6.4d. Xəstəhal vəziyyətinin yaradılması (simulyasiya). Ayrı-ayrı simptomların simulyasiyası: qızdırma, qanaxma, sarılıq, qusma, sidiyi saxlaya bilməmə və sair. Ayrı-ayrı terapevtik xəstəliklərin simulyasiyası: ağ ciyərin, böyrəklərin. Eşitmənin, görmənin və nitqin pozulması simulyasiyaları. Nevroloji əlamətlərin və rühi xəstəliklərin simulyasiyası.

PFR-C.6.4e. Aqqravasiya. Mövcud xəstəliyin əlamətlərinin şişirdilməsi.

PFR-C.6.4f. Aparılmış müalicələrin nəticələrinin və vəziyyətin yaxşılaşmasını kiçiltmək və ya inkar etmək.

PFR-C.6.5. İnterseksual vəziyyətlərin məhkəmə-tibbi ekspertizası.

PFR-C.6.5a. Ümumi məlumat. Ekspertizanın təyin edilməsi qaydaları, məsələləri və imkanları, metodikası, xüsusiyyətləri. Ekspertizanı həyata keçirən şəxslər.

PFR-C.6.5b. «Ekspert rəyi»nin tərtib edilməsi xüsusiyyətləri və qaydaları.

PFR-C.6.5c. Ümumi məlumat. «Kişilərdə cinsi vəziyyətin məhkəmə-tibbi ekspertizası qaydaları». Məhkəmə-tibbi ekspertizanın məsələləri və imkanları.

PFR-C.6.5d. Cinsin təyini üzrə məhkəmə-tibbi ekspertiza. Ekspertizanın səbəbləri. Həqiqi və yalançı hermafroditizm. Nəticə hissənin tərtib edilməsi.

PFR-C.6.5e. Cinsi yetkinliyin təyini üzrə məhkəmə-tibbi ekspertiza. Səbəbləri. «Cinsi yetkinlik» məfhumu. Cinsi yetkinlik dövrünün xarakteristikası və cinsi yetişkənlik dövrünün başlanması. Cinsi yetkinliyin əlamətləri. Qızlarda cinsi yetkinliyin təyini. Oğlanlarda cinsi yetkinliyin təyini. Vaxtından əvvəl və gecikmiş cinsi yetkinlik. Akselerasiyanın əhəmiyyəti. Məhkəmə-tibbi ekspertizaların metodikası.

PFR-C.6.5f. Qızlıq pərdəsinin tamlığının təyini ekspertizası. Səbəbləri. «Bəkarət» və «Deflorasiya» məfhumları. Qızlıq pərdəsinin anatomik xüsusiyyətləri, formasına görə təsnifatı. Qızlıq pərdəsinin və onun zədələnmələrinin təsviri. Ekspertizanın metodikası. Nəticə hissənin tərtib edilməsi.

PFR-C.6.5g. Cinsi əlaqədə olma qabiliyyətinin, mayalandırma qabiliyyətinin və döllənmə qabiliyyətinin təyini ekspertizaları. Ekspertizanın məsələləri və imkanları. Kişilərdə cinsi əlaqədə olma qabiliyyətinin və mayalandırma qabiliyyətinin təyini ekspertizaları. İmpotensiya. Mayalandırma qabiliyyətinin olmamasının səbəbləri. Spermanın xaric olmasını və onun keyfiyyətini pozan patoloji vəziyyətlər. «Aspermatizm», «Aspermiya», «Nekrospermiya», «Astenospermiya», «Oliqospermiya», «Piospermiya», «Hemospermiya» anlayışları. Toxum mayesinin müayinə üsulları. Qadınlarda cinsi əlaqədə olma qabiliyyətinin və döllənmə qabiliyyətinin təyini ekspertizaları. Cinsi əlaqədə ola bilməmənin və döllənə bilməmənin səbəbləri. Məhkəmə-tibbi ekspertizaların metodikası. Nəticə hissənin tərtib edilməsi.

PFR-C.6.6. Hamiləliyin, keçmiş doğuş və abortların təyini ekspertizaları.

PFR-C.6.6a. Ümumi məlumat. Səbəbləri. Ekspertizanın məsələ və imkanları.

PFR-C.6.6b. Hamiləliyin təyini ekspertizaları. Hamiləliyin fiziologiyası. Hamiləliyin diaqnostikası: hamiləliyin təxmini əlamətləri, olma ehtimalı və şübhəsiz əlamətləri.

PFR-C.6.6c. İlkin dövrlərdə hamiləliyin təyin edilməsi əlamətləri. Diaqnostikanın hormonal metodu, ultrasəs metodu və digər metodları. Uşaqlıqdankənar hamiləliyin təyini ((yumurtalıq, qarın və boru hamiləliyi). Cinsi əlaqə tarixinə, son menstruasiya, uşaqlığın ölçülərinə, dölün ilk tərpənişinə və s. əlamətlərə əsasən hamiləliyin müddətinin təyini.

PFR-C.6.6d. Keçmiş doğuş olmasının və onun müddətinin təyin edilməsi. Meyitlərdə hamiləliyin, keçmiş doğuşun və onun müddətinin təyin edilməsi. Hamiləliyin diaqnostikasının laborator üsulları.

PFR-C.6.6e. Kriminal abortlarla əlaqədar məhkəmə-tibbi ekspertiza. «Abort» məfhumu. Süni abort, xəstəxana abortu və kriminal abort. Kriminal abortun üsulları. Kriminal abort zamanı ölümün səbəbləri. Qeyri-qanuni abort hallarına şübhə zamanı məhkəmə-tibbi ekspertiza. Kriminal abortla əlaqədar ölmüş qadın meyitlərinin məhkəmə-tibbi ekspertizası xüsusiyyətləri. Laborator tədqiqat üsulları. Nəticə hissənin tərtibi qaydaları.

PFR-C.6.7. Cinsi cinayətlər zamanı keçirilən məhkəmə-tibbi ekspertizalar.

PFR-C.6.7a. Zorlama.

C.6.7a(1) Cinayət-hüquqi anlayış kimi. «Cinsi əlaqə» məfhumunun mənası.Məhkəmə-tibbi ekspertizanın məsələləri və imkanları. Zorlama zamanı məhkəmə-tibbi ekspertizanın keçirilmə qaydaları və metodikası, ekspertizada iştirak edən mütəxəssislər.

C.6.7a(2) Cinsi əlaqədə olma faktını təsdiq edən zədələnmə və dəyişikliklərin təyin edilməsi (cinsiyyət üzvlərində). Cinsi aktın həyata keçirilməsində fiziki güc tətbiq edilməni təsdiq edən xəsarət və izlərin təyin edilməsi. Məhkəmə-tibbi müayinələrin nəticələrinin qiymətləndirilməsi.

C.6.7a(3) Qeyri-təbii cinsi yolla zorlamalar zamanı aparılan məhkəmə-tibbi ekspertizalar. Qadının köməksiz vəziyyətindən istifadə edərək həyata keçirilən zorlamalar zamanı aparılan məhkəmə-tibbi ekspertizalar. Zorlamanın simulyasiyası hallarında aparılan məhkəmə-tibbi ekspertizalar. Zorlamanın xüsusi ağır fəsadları (ruhi pozğunluq, hamiləlik, zöhrəvi xəstəliklərə yoluxma və s.). Zorlama ilə əlaqədar şübhəli şəxsin məhkəmə-tibbi müayinəsi.

C.6.7a(4) Zorlama ilə əlaqədar zərərçəkənin və şübhəli şəxsin müayinəsi zamanı laborator üsullar və diaqnostika. Aşkar olunan dəyişikliklərin qiymətləndirilməsi.

PFR-C.6.7b. Əxlaqsız hərəkətlər zamanı məhkəmə-tibbi ekspertizalar.

PFR-C.6.7c. Zöhrəvi xəstəliklərlə yoluxma.

PFR-C.6.7d. Pederastiya.

PFR-C.6.8. Yaşın məhkəmə-tibbi ekspertizası.

PFR-C.6.8a. Ümumi məlumat. Prosessual-hüquqi tərəfləri, səbəbləri. «Həddi-buluğa çatmama», «Həddi-buluğ dövrü» məfhumları. Ekspertizanın məsələ və imkanları.

PFR-C.6.8b. Yaşın məhkəmə-tibbi aspektdən təyini. Yaşın tibbi-bioloji aspektləri. Bətndaxili və bətndənkənar dövrlərin məhkəmə-tibbi əhəmiyyəti, tibbi-bioloji əhəmiyyəti.

PFR-C.6.8c. İnsanın morfoloji yaşının «pasport yaşı» ilə müqayisədə ümumtibbi və bioloji qiymətləndirilməsi və bunun məhkəmə-tibbi ekspertiza məsələləri üçün əhəmiyyəti. Yaşın təyini ekspertizasının metodikası.

PFR-C.6.8d. Antropometrik əlamətlər. Antroposkopik (təsviri) əlamətlər. Canlı şəxsin, meyitin və ya meyit hissələrinin yaşının təyinində sümük sisteminin tədqiqatının əhəmiyyəti. Yaşın təyin edilməsində ayrı-ayrı əlamətlərin əhəmiyyəti.

PFR-C.6.8e. Ayrı-ayrı yaş dövrlərində yaş xüsusiyyətlərinin xarakteristikası. İnsanın sümük sisteminin müayinə üsulları və onların yaş dəyişikliklərinin optimal diaqnostikasında əhəmiyyəti. Rentgenoloji üsul. Qazanılmış və ya irsi xəstəliklər zamanı yaşın təyini ekspertizalarının xüsusiyyətləri.

PFR-C.6.8f. Yaşın təyini ekspertizaları zamanı əldə edilmiş nəticələrin qiymətləndirilməsi və rəyin nəticə hissəsinin tərtib edilməsi.

PFR-C.6.9. Alkoqol sərxoşluğunun məhkəmə-tibbi ekspertizası.

PFR-C.6.9a. Alkoqol sərxoşluğunun təyin edilməsi məqsədilə göndərilmiş şəxslərin müayinəsi qaydaları haqqında ümumi məlumat. Göndəriş qaydaları. Müayinəni həyata keçirən müəssisə və şəxslər. Müayinənin vaxtı, həyata keçirilmə metodikası. Müayinədən keçirilən şəxsin obyektiv müayinəsi. İlkin alkoqol sınaqlarının həyata keçirilməsi. Qanda və sidikdə alkoqolun miqdarının təyin edilməsi. Orqanizmə daxil olduqdan çıxana qədər alkoqolun orqanizmdə dinamikası. Alınmış nəticələrin qiymətləndirilməsi. «Alkoqol sərxoşluğu vəziyyətinin təyin edilməsi barədə tibbi akt»ın tərtib edilməsi.

PFR-C.6.9b. Alkoqol sərxoşluğunun məhkəmə-tibbi ekspertizası: səbəbləri, metodikası. Alkoqol sərxoşluğu ilə əlaqədar tibbi müayinə ilə məhkəmə-tibbi ekspertizanın fərqləri. Alkoqolun kəmiyyətjə təyin edilməsinin sərxoşluq diaqnostikasında əhəmiyyəti. Qanda alkoqolun konsentrasiyası ilə alkoqol sərxoşluğu arasındakı nisbət. Qəbul edilən alkoqolun Vidmark, Balyakin və s. metodlarla miqdarının təyin edilməsi.

PFR-C.6.9c. «Ekspert rəyi»nin tərtib edilməsi.

PFR-C.7. MƏHKƏMƏ-TİBBİ TANATOLOGİYA

Peşə bilikləri və bacarıqları.

PFR-C.7.1. Məhkəmə-tibbi tanatologiyanın ümumi məsələləri.

PFR-C.7.1a. Tanatologiya. Ümumi məsələləri.

C.7.1a(1) Ölüm, təsnifatı, növləri.

C.7.1a(2) Erkən meyit əlamətləri.

C.7.1a(3) Gecikmiş meyit əlamətləri.

C.7.1a(4) Meyit əlamətlərinin məhkəmə-tibbi əhəmiyyəti. Ekspert kriteriyaları.

.

PFR-C.7.2. Hadisə yerində (aşkar olunduğu yerdə) meyitin müayinəsi.

PFR-C.7.2a. Hadisə yerində (aşkar olunduğu yerdə) meyitə baxış.

C.7.2a(1) Ümumi məlumat. «Hadisə yeri» məfhumu. Hadisə yerinin müayinəsi və meyitə baxış – ilk təxirəsalınmaz istintaq hərəkətidir. Baxışın mərhələləri (statik və dinamik).

C.7.2a(2) Meyitə baxışda həkimin iştirakının mütləqliyi. Həkim-mütəxəssisin iştirakının prosessual əsasları, onun hüquq və vəzifələri. Meyitə baxış üçün həkimin təchizatı.

C.7.2a(3) Meyitə baxış zamanı həkimin əsas vəzifələri: ölüm faktının təsdiqi, meyitə baxışın keçirilməsində və onun nəticələrinin qeydə alınmasında istintaqa kömək, ekspertiza üçün yararlı olan maddi sübutların aşkar olunmasında, götürülməsində, fiksasiyasında və qablaşdırılmasında köməklik etmək, sual meydana çıxdığı hallarda müstəntiqə şifahi məsləhətlər vermək.

C.7.2a(4) Meyitə baxışın ardıcıllığı: ölümün konstatasiyası, meyitin vəziyyətinin və yerləşməsinin müəyyənləşdirilməsi, paltarlarda baxış və onların qeyd edilməsi, meyitin cinsinin, yaşının (təxmini), bədəninin uzunluğunun və sair əlamətlərin müəyyənləşdirilməsi. Erkən meyit əlamətlərinin olmasının və varsa onların dərəcəsinin təyin edilməsi, varsa gecikmiş meyit əlamətlərinin inkişaf dərəcəsinin fiksasiyası.

C.7.2a(5) Bədənin bütün nahiyələrinin ardıcıllıqla təsviri. Meyitdə aşkar olunan xəsarətlərin təsviri. Bioloji xarakterli bütün maddi sübutların aşkar olunmasında, götürülməsində, fiksasiyasında, qablaşdırılmasında müstəntiqə köməklik göstərmək.

C.7.2a(6) Hadisə yerinə və meyitə baxış protokolunda qeydlərin aparılması.

PFR-C.7.3. Meyitin məhkəmə-tibbi ekspertizası.

PFR-C.7.3a. Meyitin məhkəmə-tibbi ekspertizası (müayinəsi).

C.7.3a(1) Ümumi məlumat. Meyitin məhkəmə-tibbi ekspertizası (müayinəsi) üçün əsaslar. Ekspertizanın keçirilməsində əsas məsələlər, təyin edilməsi qaydaları, ijra edən şəxs, ekspertizanın keçirilmə yeri (ekspertiza müəssisəsində və ondan kənarda). Meyitin məhkəmə-tibbi müayinəsinin patoloji-anatomik müayinələrdən fərqi. Müayinənin aparılma qaydası. Meyitin məhkəmə-tibbi ekspertizasının Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məjəllələrində reqlamentasiyası. Meyitin müayinəsində müstəntiqin iştirakı. Meyitin məhkəmə-tibbi müayinəsinin ardıcıllığının planlaşdırılması. Meyitin xarici müayinəsi (bədənin və paltarların). Meyitin daxili müayinəsi.

C.7.3a(2) Daxili üzvlərin çıxarılması və müayinəsi üsulları (Virxov üsulu, Şor üsulu, Abrikosov üsulu, Popov üsulu və sair). Pnevmotoraks, hava emboliyası və qaz emboliyası üçün sınaqların qoyulması qaydaları.Kəllənin və baş beynin müayinəsi üsulları (Virxov, Fleksiç, Pitre, Fişer, Naumenko, Qrexov üsulları və s.). Fəqərələrin müayinə üsulları (Ort, Abrikosov, Obısov, Soloxin, Sveşnikov üsulları və sair). Qabırğaların müayinəsi üsulları (Xristoforov və Soloxin üsulları). Çanağın müayinəsi (Sokolov və Soloxin üsulları). Aşağı ətrafların müayinəsi, sifətin müayinəsi (Medvedev, Vituşinski üsulları və sair). Qan damarları və sinirlərin müayinəsi.

C.7.3a(3) Laborator müayinələr üçün materialların götürülməsi qaydaları (histoloji, kimyəvi, tibbi-kriminalistik, bioloji, trassoloji, diatom planktonu üçün və sair).

C.7.3a(4) Zəhərlənməyə şübhə hallarında məhkəmə-tibbi müayinənin xüsusiyyətləri.

C.7.3a(5) İnfeksion xəstəliklər və xüsusi təhlükəli infeksion xəstəliklər zamanı meyitlərin məhkəmə-tibbi ekspertizası xüsusiyyətləri.

C.7.3a(6) Naməlum, parçalanmış və skeletləşmiş meyitlərin müayinəsi xüsusiyyətləri.

C.7.3a(7) Ekshumasiya olunmuş meyitin müayinəsi xüsusiyyətləri.

C.7.3a(8) Meyitlərin məhkəmə-tibbi ekspertizasının (müayinəsi) sənədləşdirilməsi. Meyitin məhkəmə-tibbi müayinəsinə əsasən «Ekspert rəyi»nin (aktının) tərtibi qaydaları. «Ekspert rəyi»nin (akt) əsas hissələri, quruluşu. Laborator müayinələrin nəticələrinin tərtib edilməsi.

C.7.3a(9) Məhkəmə-tibbi (patoloji-anatomik) diaqnozun tərtib edilməsi qaydaları, nəticə hissənin tərtibi qaydaları. Xəstəliklərin Beynəlxalq Təsnifatı. «Ekspert rəyi»ndə illyustrativ materialların tərtibi. Laborator müayinələr üçün göndərilən materiallara müşaiyətedici sənədlərin tərtibi. Statistik kartanın tərtibi. Ölüm haqqında həkim şəhadətnaməsi, onun tərtib edilməsi qaydaları.

C.7.3a(10) Zorakı ölümlər zamanı məhkəmə-tibbi müayinənin bəzi xüsusiyyətləri. Həyati xəsarətlər. Həyati xəsarətlərin əmələ gəlməsinin əsas kriteriyaları. Xəsarət nahiyəsində qansızmalar. Regionar limfa düyünlərinə eritrositlərin düşməsi. Massiv xarici və daxili qanaxmalar. Qanın aspirasiyası və udulması. Piy, toxuma, hüceyrə və hava emboliyaları. Tənəffüs yollarında his kütlələrinin və qanda karboksihemoqlobinin aşkar olunması. Zədə nahiyəsində iltihabi reaksiyanın olması.

C.7.3a(11) Ölümdən sonrakı xəsarətlər. Əmələ gəlmə səbəbləri. Zədələnmələrin növləri. Xəsarətlərin morfoloji əlamətləri. Reanimasiya tədbirləri zamanı ölümdən sonrakı xəsarətlər. Meyitin daşınması zamanı ölümdən sonrakı xəsarətlər. Meyitin ekshumasiyası zamanı ölümdən sonrakı xəsarətlər.

C.7.3a(12) Ölümcül zədələnmələr zamanı şəxsin fəaliyyət qabiliyyətliliyi.

C.7.3a(13) Xəsarətlərin öz əli ilə törədilməsi imkanlarının qiymətləndirilməsi.

PFR-C.7.4. Qəfləti ölümlər zamanı meyitin məhkəmə-tibbi müayinəsi.

PFR-C.7.4a. Qəfləti ölümlərin səbəbi və tanatogenezi. Ümumi məlumat. «Qəfləti ölüm», «Tez baş verən ölüm» anlayışları. Qəfləti ölümlərin səbəbi, inkişaf mexanizmləri. Qəfləti ölümlərə səbəb olan şərait və şərtlər. Qəfləti uşaq ölümləri. Gənc yaşlarda qəfləti ölüm. Yaşlı şəxslərdə qəfləti ölüm. Məhkəmə-tibbi ekspertizanın məsələləri, əhəmiyyəti və imkanları.

PFR-C.7.4b. Baş beynin və beyin qişalarının xəstəlikləri zamanı baş verən qəfləti ölümlər. Ümumi məlumat. Baş beynin şişləri. Epilepsiya. İltihabi xəstəliklər. Hemorragik paximeningit.

PFR-C.7.4c. Ürək-damar xəstəlikləri zamanı baş verən qəfləti ölümlər.

C.7.4c(1) Ümumi məlumat. Ürək-damar xəstəlikləri sosial xəstəliklər kimi.

C.7.4c(2) Ateroskleroz, hipertoniya xəstəliyi. Ürəyin işemik xəstəliyi, Serebro-vaskulyar xəstəlik. Onların etiologiyası, patogenezi, morfogenezi, morfologiyaları, klinik-morfoloji formaları, təsnifat prinsipləri, ağırlaşmaları və tanatogenez. Məhkəmə-tibbi praktikada qəfləti ölümlər arasında aterosklerozun, hipertoniya xəstəliyinin, işemik və hemorragik insultların, ürəyin xroniki işemik xəstəliklərinin, ürəyin kəskin işemik xəstəliyinin və digər ürək-damar xəstəliklərinin yeri və əhəmiyyəti.

C.7.4c(3) Revmatizm, revmatik endokarditlər, miokarditlər və perikarditlər, revmatik ürək qüsuru, revmatizm mənşəli olmayan miokarditlər, tromboz və emboliyalar, aortanın aterosklerotik və qeyri-aterosklerotik anevrizmaları və onların partlaması və digər ürək-damar sistemi xəstəlikləri. Onların etio-patogenezi, morfogenezi, morfologiyası, stadiyaları, ağırlaşma və tanatogenezi.

PFR-C.7.4d. Həzm sistemi, tənəffüs sistemi və sidik-cinsiyyət sistemi xəstəlikləri zamanı baş verən qəfləti ölümlər. Ümumi məlumat. Pnevmoniyalar, ağ ciyərin vərəmi, ağ ciyərin xərçəngi, faringit, laringit və bronxitlər, bronxial astma, mədənin və 12-barmaq bağırsağın xroniki xora xəstəliyi və onun ağırlaşmaları, mədə xərçəngi, yoğun bağırsağın xərçəngi, düz bağırsağın xərçəngi, pankreonekroz, böyrək daşı xəstəliyi, uşaqlıq qanaxmaları, uşaqlıqdan kənar

hamiləlik və digər hamiləlik patologiyaları, böyrək xərçəngi və sair xəstəliklərin qəfləti ölümlərdə yeri və rolu, məhkəmə-tibbi praktikada əhəmiyyəti.

PFR-C.7.4e. İnfeksion və parazitar xəstəliklər zamanı qəfləti ölümlər. Ümumi məlumat. İnfeksion amillərin orqanizmə təsir xüsusiyyətləri. Kəskin respirator infeksion xəstəliklər. Virus hepatiti (infeksion və transfuzion). Difteriya, skarlatina və qızılca. Meninqokokkemiya. Exinokokkoz. Sistiserkoz və sair parazitar xəstəliklər.

PFR-C.7.4f. Allergik vəziyyətlər və xəstəliklər zamanı baş verən qəfləti ölümlər. Bronxial astma. Anafilaktik şok. Angionevrotik ödem. Dərman xəstəliyi. Orqanizmin hiperhəssaslıq reaksiyaları barədə ümumi məlumat.

PFR-C.7.4g. Uşaq yaşlarda qəfləti ölümlər (Qəfləti uşaq ölümləri). Ümumi məlumat. Tənəffüs sistemi xəstəlikləri. Həzm sistemi üzvləri. Ürək-damar sistemi üzvləri. İnfeksion xəstəliklər. Spazmofiliya.

PFR-C.7.4h. Qəfləti uşaq ölümləri zamanı məhkəmə-tibbi diaqnostika. Makroskopik və mikroskopik diaqnostik üsullar. Digər patologiyalardan diferensial diaqnostikası. «Ekspert rəyi»nin tərtib edilməsi xüsusiyyətləri.

PFR-C.7.5. Yenidoğulmuş uşaq meyitlərinin məhkəmə-tibbi müayinəsi.

PFR-C.7.5a. Yenidoğulmanın, yetkinliyin, yaşama qabiliyyətinin əlamətləri.

C.7.5a(1) Yenidoğulmanın təyini. Yenidoğulmanın əlamətləri: göbək ciyəsi, doğuş şişi, mekonium, pendirəbənzər sürüşkən maddə, bədəndə qan izləri, cift. Bu əlamətlərin xarakteristikası və qiymətləndirilməsi.

C.7.5a(2) Yetkinliyin təyini. Yetkinliyin əlamətləri: Bədənin uzunluğu və çəkisi. Daban sümüyündə sümükləşmə nüvələrinin vəziyyəti, dərialtı piy toxuması, baş tüklərinin vəziyyəti, əl və ayaq barmaqlarında dırnaqlar, cinsiyyət üzvlərinin düzgün formalaşması. Bu əlamətlərin xarakteristikası və qiymətləndirilməsi.

C.7.5a(3) Bətndaxili həyatın müddətinin təyin edilməsi. Bətndaxili həyatın müddətinin (dölün yaşının) təyini zamanı istifadə edilən əlamətlər (kriteriyalar): dölün uzunluğu, ciftin çəkisi, göbək ciyəsinin uzunluğu, mekoniumun tərkibi. Bu əlamətlərin xarakteristikası və qiymətləndirilməsi.

C.7.5a(4) Dölün həyat qabiliyyətliliyinin təyini. Dölün yaşama qabiliyyətinin əlamətləri: yetkinliyin müəyyən həddinə çatmaq, anadan gəlmə eybəcərliklərin və inkişaf qüsurlarının olmaması (həyatla bir araya sığmayan).

C.7.5a(5) Diri və ya ölüdoğulmanın təyin edilməsi. Diridoğulmanın təyini üçün istifadə edilən kriteriyalar. Həyati sınaqlar: ağ ciyər sınağı və mədə-bağırsaq sınağı. Diridoğulmanın laborator üsullarla təyin edilməsi: histoloji, rentgenoloji, qanın plazmasının elektroforetik zülal fraksiyaları, üzv və toxumaların qeyri-üzvi elementlərinin emission-spektroqrafiyası. Əldə olunan nəticələrin qiymətləndirilməsi. Göbək ciyəsinə, doğuş şişlərinə və sair morfoloji əlamətlərə əsasən dölün bətndaxili həyat müddətinin təyin edilməsi.

PFR-C.7.5b. Antenatal, intranatal və postnatal ölümlərin səbəbləri.

C.7.5b(1) Antenatal, intranatal və postnatal dövrlər barədə, onların xüsusiyyətləri haqqında ümumi məlumat, bu dövrlərdə qeyri-zorakı ölümlər.

C.7.5b(2) Dölün antenatal ölümünün səbəbləri: asfiksiya, bətndaxili infeksiya, anadangəlmə inkişaf anomaliyaları və həyatla bir araya sığmayan anomaliyalar və s.

C.7.5b(3) Dölün intranatal ölümünün səəbləri: asfiksiya, doğuş travmaları və sair səbəblər.

C.7.5b(4) Dölün postnatal ölümünün səbəbləri: asfiksiya, tənəffüs çatışmazlığı sindromu, hialin-membranlar xəstəliyi, ödemli-hemorragik sindrom, inkişaf qüsurları və s.

C.7.5b(5) Yenidoğulmuşun doğuşdan sonra zorakı ölümü.

C.7.5b(6) Uşaqöldürmə. Passiv uşaqöldürmə (bədənin ümumi soyuması, aclıq, yardımın göstərilməməsi və sair). Aktiv uşaq öldürmə (asfiksiya, iti və ya küt alətlərlə travmalar və sair). Ölümün növünün morfoloji əlamətlərlə sübut edilməsi.

C.7.5b(7) Yenidoğulmuşların meyitlərinin məhkəmə-tibbi müayinəsi xüsusiyyətləri. Ümumi məlumat. Yenidoğulmuşların məhkəmə-tibbi müayinəsi metodikası. Həyati sınaqların aparılması qaydaları. Laborator tədqiqat üsulları.

PFR-C.8. MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA OBYEKTLƏRİNİN MİKROSKOPİK MÜAYİNƏLƏRİ

Peşə bilikləri və bacarıqları.

PFR-C.8.1. Məhkəmə-histoloji şöbə.

PFR-C.8.1a. Məhkəmə-histoloji şöbənin işinin təşkili qaydaları və ümumi prinsipləri.

PFR-C.8.1b. Ekspert həkimlərin, orta və kiçik tibb işçilərinin ştat normativləri, iş prinsipləri və vəzifə borcları.

PFR-C.8.1c. Şöbənin avadanlıq və təchizatı.

PFR-C.8.1d. Məhkəmə-histoloji ekspertizaları (müayinələri) həyata keçirən şəxslər. Şöbənin müdiri haqda əsasnamə.

PFR-C.8.1e. Məhkəmə-histoloji ekspertizaların (müayinələrin) keçirilməsinin prosessual əsasları, keçirilmə qaydaları.

PFR-C.8.1f. Məhkəmə-tibbi meyit materiallarının mikroskopik müayinə (ekspertiza) xüsusiyyətləri. Məhkəmə-histoloji müayinələrin (ekspertizaların) məsələləri, əhəmiyyəti və imkanları.

PFR-C.8.1g. Məhkəmə-histoloji müayinə məqsədilə meyitlərdən materialların götürülməsi, fiksasiyası, işlənməsi, saxlanılması, qablaşdırılması və göndərilməsi qaydaları.

PFR-C.8.1h. Məhkəmə-histoloji preparatların təsviri və məhkəmə-histoloji aktın tərtib edilməsi qaydaları.

PFR-C.8.2. Histoloji materialların mikroskopik müayinəsi.

PFR-C.8.2a. Histoloji avadanlıq və texnika, reaktiv və medikamentlər. Materialların bərkidilməsi metodları.

PFR-C.8.2b. Histoloji kəsiklərin hazırlanması üsulları. Hematoksilin və eozinlə boyama üsulu. Hematoksilin-pikrofuksinlə boyama. Orseinlə boyama. Sudanla boyama üsulları. Gümüş duzları ilə impreqnasiya. Digər boyama üsulları.

PFR-C.8.2c. Bəzi histokimyəvi üsullar.

PFR-C.8.2d. Mikroskopik müayinənin növləri. Mikroskopların növləri və əhəmiyyəti. Mikroskopik müayinələrin metodikası. İşıqlı və qaranlıq sahə metodikaları ilə mikroskopik tədqiqatlar. Polyarizasiyalı mikroskopik tədqiqatlar. Faza-kontrast mikroskopiya. İnterferensiyalı mikroskopiya. Flyuoressent mikroskopiya. Ultrabənövşəyi və infraqırmızı şüalarla mikroskopiya. Elektron mikroskopiyası. Müqayisəli mikroskopun köməkliyi ilə tədqiqatlar. Stereomikroskopiya. Digər mikroskopik tədqiqatlar. Morfostatistik analizin elementləri.

PFR-C.8.3. Ümumi və xüsusi patologiyanın, travmatologiyanın, normal anatomiya və normal histologiyanın əsas məsələləri.

PFR-C.8.4. Ümumpatoloji proseslərin ümumi qanunauyğunluqları.

PFR-C.8.4a. Degenerasiya (distrofiyalar).

PFR-C.8.4b. Hüceyrə ölümü (nekroz və apoptoz).

.

PFR-C.8.4c. Tanatologiya. Ölüm, təsnifatı, növləri. Zorakı və qeyri-zorakı ölümlər. Qəfləti ölüm. Müxtəlif xəstəliklər zamanı böyüklərdə və uşaqlarda ölümün səbəbləri və tanatogenez. Ölümdən sonra üzv və toxumalarda baş verən dəyişikliklər.

PFR-C.8.4d. Qan dövranı və limfa dövranı pozğunluqları.

PFR-C.8.4e. Ekssudativ və proliferativ iltihablar.

PFR-C.8.4f. İmmun-patoloji proseslər.

PFR-C.8.4g. Kompensator-mühafizə prosesləri.

PFR-C.8.4h. Müxtəlif histogenezlərə və lokalizasiyalara malik xoşxassəlı və bədxassəli şişlərin məhkəmə-histoloji müayinələrdə diaqnostikası.

PFR-C.8.5. Müxtəlif növ qeyri-zorakı ölümlər və ya onlara şübhə hallarında meydana çıxan patomorfoloji mikroskopik dəyişikliklər.

PFR-C.8.5a. Müxtəlif ürək-damar sistemi, mərkəzi və periferik sinir sisteminin, qan sistemi və qanyaradıcı sistemin, ağ ciyər və plevra, mədə-bağırsaq traktı və periton, qara ciyər və öd yolları, mədəaltı vəz, böyrək, sidik yolları, qadın və kişi cinsiyyət üzvlərinin və süd vəzlərinin, endokrin vəzlərin, üz-çənə nahiyəsi xəstəliklərinin, dəri və sümük-əzələ sistemi xəstəlikləri, infeksion xəstəliklər zamanı aşkar olunan mikroskopik patomorfoloji dəyişikliklərin xarakter və xüsusiyyətləri, mikroskopik morfologiyası, məhkəmə-histoloji diaqnostik xüsusiyyətləri.

PFR-C.8.5b. Hamiləliyin və hamiləlik patologiyalarının, keçirilmiş hamiləlik və abortların, cift patologiyalarının morfoloji diaqnostikası.

PFR-C.8.5c. Prenatal və perinatal patologiyalar zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri. Ölüdoğulma və diridoğulmanın məhkəmə-histoloji diaqnostikası. Antenatal, intranatal və postnatal dövrlərdə ölümün səbəbləri, yenidoğulmuşların meyitlərindən götürülmüş materialların məhkəmə-histoloji müayinə xüsusiyyətləri. Yenidoğulmuşluğun, yetkinliyin, bətndaxili həyatın müddətinin, həyat qabiliyyətliliyin, diridoğulmanın kriteriyaları.

PFR-C.8.6. Müxtəlif növ zorakı ölümlər və ya onlara şübhə hallarında meydana çıxan patomorfoloji mikroskopik dəyişikliklər.

PFR-C.8.6a. Travmatologiyanın ümumi məhkəmə-tibbi məsələləri, zədələnmələrin mexanogenezi və morfogenezi.

PFR-C.8.6b. Müxtəlif növ mexaniki travmalar zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6b(1) Küt alətlərin təsirindən baş vermiş ölümlər zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6b(2) İti alətlərin təsirindən baş vermiş ölümlər zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6b(3) Odlu silah zədələnmələri. Atəş faktorları. Odlu silahların təsirindən baş vermiş ölümlər zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6b(4) Partlayış zədələnmələrinin morfoloji xarakteristikası.

PFR-C.8.6c. Müxtəlif növ fiziki amillərin təsirindən üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6c(1) Elektrik cərəyanının təsirindən, o cümədən də atmosfer elektrik vurmaları zamanı baş verən mikroskopik patomorfoloji dəyişikliklərin xarakter və xüsusiyyətləri;

C.8.6c(2) Yüksək və aşağı temperaturların orqanizmə ümumi və yerli təsirləri zamanı üzv və toxumalarda baş verən mikroskopik patomorfoloji dəyişikliklərin xarakter və xüsusiyyətləri;

C.8.6c(3) Digər müxtəlif fiziki amillərin (şüa enerjisi təsiri, ətraf mühitdə atmosfer təzyiqin kəskin dəyişməsi təsirindən və s.) təsiri zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

PFR-C.8.6d. Mexaniki asfiksiyalar (stranqulyasion, obturasion, döş qəfəsi və qarın üzvlərinin sıxılması, suda boğulma) zamanı üzv və toxumalarda baş verən patomorfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

PFR-C.8.6e. Zəhərlənmələr zamanı həyata keçirilən məhkəmə-histoloji müayinələrin xüsusiyyətləri.

C.8.6e(1) Zəhərli maddələrin orqanizmə təsiri, zəhərlərin təsnifatı, müxtəlif növ zəhərlənmələr zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6e(2) Xroniki alkoqol intoksikasiyaları və xroniki narkotik intoksikasiyalar zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6e(3) Dəm qazı, turşu və qələvilər, ağır metal duzları və digər zəhərli maddələrlə zəhərlənmələr zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6e(4) Qida zəhərlənmələri zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

C.8.6e(5) Digər qrup kimyəvi maddələrlə zəhərlənmələr zamanı üzv və toxumalarda baş verən morfoloji dəyişikliklərin xarakter xüsusiyyətləri.

PFR-C.8.6f. «Perqament ləkələrinin», meyit qacımasının, meyit ləkələrinin, daxili üzvlərin hipostazlarının və digər meyit əlamətlərinin mikromorfologiyası. Bu dəyişikliklərin mikroskopik üsullarla digər həyati zədələnmələrdən diferensiasiyası.duzları ilə impreqnasiya.

PFR-C.8.6g. Məhkəmə-histoloji müayinə aktının tərtibi prinsipləri və qaydaları.

PFR-C.8.6h. Məhkəmə-histoloji ekspertiza rəyinin tərtibi prinsipləri və qaydaları.

Peşə bacarıqları.

PFR-C.8.7. Müayinə olunacaq obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi.

PFR-C.8.8. Üzv və toxumalarda zədə əlamətlərinin və morfoloji dəyişikliklərin aşkar edilməsi və təsvir edilməsi.

PFR-C.8.9. Materialların bərkidilməsi metodları.

PFR-C.8.10. Histoloji kəsiklərin hazırlanması üsulları. Hematoksilin və eozinlə boyama üsulu. Hematoksilin-pikrofuksinlə boyama. Orseinlə boyama. Sudanla boyama üsulları. Gümüş duzları ilə impreqnasiya. Perls reaksiyası. Digər boyama üsulları. Bəzi histokimyəvi üsullar.

PFR-C.8.11. Qeyri-zorakı ölümlər zamanı göndərilmiş meyit materiallarının makroskopik müayinəsi, qiymətləndirilməsi və laborator işlənməsi məqsədilə kəsilməsi.

PFR-C.8.12. Müxtəlif növ zorakı ölümlər zamanı və ya onlara şübhə hallarında göndərilmiş meyit materiallarının makroskopik müayinəsi və laborator işlənməsi məqsədilə kəsilməsi.

PFR-C.8.13. Qeyri-zorakı ölümlər zamanı meyitdən götürülmüş materialalrın məhkəmə-histoloji müayinəsi.

PFR-C.8.14. Müxtəlif növ zorakı ölümlər zamanı və ya onlara şübhə hallarında meyitdən götürülmüş materialalrın məhkəmə-histoloji müayinəsi.

PFR-C.8.15. Məhkəmə-histoloji müayinə aktının (ekspertiza rəylərinin) tərtibi.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim üçün rezidentura dövründə məhkəmə-histoloji müayinələr üzrə aparılan minimal peşə bacarıqların miqdarı:

.

PFR-C.8.16. Mikroskopik müayinə məqsədilə meyitdən üzv və toxumalardan toxuma hissəciklərinin seçilməsi və götürülməsi. 500 (As) 50 (P).

PFR-C.8.17. Qeyri-zorakı ölümlər zamanı göndərilmiş meyit materiallarının makroskopik müayinəsi, qiymətləndirilməsi və laborator işlənməsi məqsədilə kəsilməsi. 100 (As).

PFR-C.8.18. Müxtəlif xarakterlı zorakı ölümlər zamanı göndərilmiş meyit materiallarının makroskopik müayinəsi və laborator işlənməsi məqsədilə kəsilməsi. 50 (P).

PFR-C.8.19. Qeyri-zorakı ölümlər zamanı meyitdən götürülmüş materialalrın məhkəmə-histoloji müayinəsi. 100 (As).

PFR-C.8.20. Müxtəlif xarakterli zorakı ölümlər zamanı meyitdən götürülmüş materialalrın məhkəmə-histoloji müayinəsi. 50 (P).

PFR-C.9. MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA OBYEKTLƏRİNİN TİBBİ-KRİMİNALİSTİK MÜAYİNƏ METODLARı

Peşə bilikləri və bacarıqları.

PFR-C.9.1. Tibbi-kriminalistika şöbəsi və spektroqrafik laboratoriyası.

PFR-C.9.1a. Birliyin tibbi-kriminalistika şöbəsində məhkəmə-tibbi ekspertizaların (müayinələrin) keçirilməsi qaydaları. Tibbi-kriminalistika şöbəsində işin təşkili. Bəzi normativ qaydalar.

PFR-C.9.1b. Şöbənin avadanlıq və təchizatı.

PFR-C.9.1c. Tibbi-kriminalistik müayinələri həyata keçirən şəxslər. Şöbə müdiri barədə əsasnamə.

PFR-C.9.1d. Ekspertizaların keçirilməsi üçün əsaslar.

PFR-C.9.1e. Maddi sübutların şöbəyə qəbul edilməsi və saxlanılması qaydaları. Ekspertizaların həyata keçirilməsi zamanı sənədləşdirilmələr.

PFR-C.9.2. Tibbi-kriminalistik müayinə metodları.

PFR-C.9.2a. Ölçü üsulları. Ölçmə üsullarının növləri. Ölçmələrin əhəmiyyəti, məsələləri və imkanları. Ölçmə avadanlıqları və cihazları. İşin metodikası. Alınmış nəticələrin qiymətləndirilməsi. Buraxılması mümkün olan səhvlər. Ölçmənin nəticələrinin riyazi işlənməsi. Eksperimental nəticələrin işlənməsi və tərtibi qaydaları. Differensiasiya məsələlərinin həlli məqsədilə məhkəmə-tibbi ekspertiza məlumatlarının riyazi analizi sistemi. Kompyuterdə sistematik analiz.

PFR-C.9.2b. Rentgenoloji iş metodu. Rentgen aparatlar barədə ümumi məlumat. Rentgenoloji iş metodları (rentgenoqrafiya, stereo-rentgenoqrafiya, tomoqrafiya, mikrorentgenoqrafiya, rentgenoqrammetriya, elektrorentgenoqrafiya). Məhkəmə-tibbi ekspertizanın müxtəlif növlərində obyektlərin rentgenoloji müayinəsi.

PFR-C.9.2c. Spektral metodlar. Spektral cihazlar barədə ümumi məlumat. Spektral tədqiqatın məsələ və imkanları. Müayinə üçün obyektlərin götürülmə qaydaları. Spektral tədqiqat metodları (emission spektroqrafiya, absorbsion spektroqrafiya). Məhkəmə-tibbi ekspertizanın müxtəlif növlərində spektral tədqiqat metodunun həyata keçirilməsi (mexaniki zədələnmələr, zəhərlənmələr, ölümün müddətinin təyini, xəsarətlərin həyatiliyinin təyini, diridoğulmanın təyini, ifrazatların diferensiasiyası, sümük qalıqları və s).

PFR-C.9.2d. Ultrabənövşəyi və infraqırmızı şüalarla müayinə.

PFR-C.9.2e. Exoqrafik (ultrasəs) metod. Digər fiziki metodlar.

PFR-C.9.2f. Kimyəvi metodlar. Rəngli iz əks alma metodları (kontakt-diffuzion metod, elektroqrafik metod). Kupov modifikasiyası ilə rəngli iz metodu. Xromatoqrafik kağızda atəş hisinin aşkarlanması üsulu.

PFR-C.9.2g. Dəmirin kimyəvi təyini üsulu. Üçvalentli dəmirin Perls reaksiyası ilə təyin edilməsi üsulu. Dəmirin Fyodorovtsev və Edelev üsulları ilə təyini üsulları. Eydlin üsulu ilə kağız testlərindən istifadə etməklə ekspress kontakt xromatoqrafiya üsulu.

PFR-C.9.2h. Barıt dənələrinin diferensiasiyası məqsədilə mikrokimyəvi reaksiyalar.

PFR-C.9.2i. Biokimyəvi reaksiyalar. Digər reaksiyalar.

PFR-C.9.3. Fotoqrafiya.

PFR-C.9.3a. Ümumi məlumat. Məhkəmə-tibbi praktikada fotoqrafiyanın məsələləri və əhəmiyyəti.

PFR-C.9.3b. Fotoaparatlar, onların texniki xarakteristikası, iş prinsipləri. Fotomateriallar və reaktivlər. Fotolaboratoriyanın ümumi qaydaları (ağ-qara və rəngli). Makrofotoqrafiyanın rəngli, masştab, stereoskopik və s. metodları. Mikrofotoqrafik tədqiqat metodları.

PFR-C.9.4. Mikroskopiya.

PFR-C.9.4a. Faza-kontrast mikroskopiyalar. Qaranlıq sahədə, polyarizasion işıqda, görünən lyuminessensiyada və əks-işıq sahədə mikroskopiyalar.

PFR-C.9.4b. Ayrı-ayrı obyektlərin fotoqrafiyası qaydaları: hadisə yerində və meyitxanada meyitlərin fotoqrafiyası, travma alətinin, üzv və sümüklərin fotoqrafiyası, zərərçəkənin xəsarətlərinin fotoqrafiyası (ambulatoriyada) və sair.

PFR-C.9.5. Diferensiasiya və identifikasiya məqsədilə aparılan məhkəmə-tibbi ekspertiza obyektlərinin tədqiqatlarının əsas qaydaları.

PFR-C.9.5a. İdentifikasiyanın nəzəri əsasları. «İdentifikasiya» məfhumunun məzmunu.

PFR-C.9.5b. Trassoloji identifikasiya, onun prinsip və metodları. Trassoloji ekspertizanın obyektləri. Trassoloji identifikasiya obyektlərinin individuallığı.

PFR-C.9.5c. İzlər. İzlərin əmələ gəlmə şərtləri. İzlərin təsnifatı. İz əmələ gətirən və iz götürən əşyalar. Əşyaların qrup əlamətlərinin təyini. İzlərinə əsasən əşyaların identifikasiyası.

PFR-C.9.5d. İzlərinə və xüsusiyyətlərinə görə obyektlərin müqayisəli tədqiqatının əsas qaydaları. Ümumi məlumat. Obyektlərin xarici quruluş əlamətləri. Obyektlərin individualizasiyası məqsədilə onun ümumi və xüsusi əlamətlərinin əhəmiyyəti.

PFR-C.9.5e. Zədələnmiş bədən nahiyəsində və paltarlarda alətlərin qrupşəkilli əlamətlərinin təyini.

PFR-C.9.5f. İdentifikasiya tədqiqatları zamanı istifadə edilən texniki üsullar. İdentifikasiya zamanı ekspert tədqiqatlarının mərhələləri. Materiallarla tanışlıq və maddi sübutlara ilkin baxış. Ekspertiza obyektlərinin ayrı-ayrılıqda tədqiq edilməsi (zədələnmə obyektlərinin və alətlərinin). Müqayisəli analiz üçün eksperimental izlərin alınması.

PFR-C.9.5g. Ümumi və xüsusi əlamətlərə əsasən müqayisəli tədqiqat. Müqayisənin nəticələrinin qiymətləndirilməsi. «Ekspert rəyi»nin tərtib edilməsi.

PFR-C.9.5h. Travma alətindən xəsarət izlərinin alınması. Bu məqsədlə modelləşdirici materiallar. Modelləşdirmənin texnikası və metodikası.

PFR-C.9.5i. İzlərin surətinin alınması (bərk materiallarda və yumşaq materiallarda yerləşən izlərin).

PFR-C.9.5j. İz və xəsarətlərin eksperimentdə yaradılması. Eksperimentə əsas tələblər. Eksperimental izlərin alınması üçün material. Keçirilməsi üçün texnika və metodika. Alınmış nəticələrin qiymətləndirilməsi.

PFR-C.9.5k. Travma yetirən əşyaların identifikasiyası və məhkəmə-tibbi ekspertiza obyektləri üzərində onların zədələnmə və izlərinə əsasən təsir mexanizmlərinin təyini. Yumşaq toxumaların zədələnmələrinə əsasən (qançır, sıyrıq, yara) travma yetirmiş əşyanın (alət, silah) identifikasiyası. Qığırdağın, borulu və hamar sümüklərin zədələnmələrinə əsasən travma yetirmiş əşyanın identifikasiyası. Parenximatoz üzvlərin zədələnmələrinə əsasən travma

yetirmiş əşyaların identifikasiyası. Paltarda və alətin özündə olan izlərə və zədələnmələrə əsasən travmayetirmiş alətin identifikasiyası.

PFR-C.9.6. Şəxsiyyətin məhkəmə-tibbi identifikasiyası.

PFR-C.9.6a. Ölmüş insanın şəxsiyyətinin identifikasiyası.

PFR-C.9.6b. Ölmüş və itkin düşmüş insanın şəxsiyyətinin identifikasiyası zamanı sübutların əldə edilməsi prinsipləri və metodları.

PFR-C.9.6c. Sümük qalıqlarına görə şəxsiyyətin məhkəmə-tibbi identifikasiyası.

PFR-C.9.6d. Kəllə sümükləri fraqmentlərinə əsasən kəllənin tamlığının riyazi və kompyuter texnologiyası vasitəsilə bərpası və şəxsiyyətin məhkəmə-tibbi identifikasiyası.

Peşə bacarıqları.

PFR-C.9.7. Müayinə olunacaq obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi.

PFR-C.9.8. Tibbi-kriminalistik tədqiqatların nəticələrinin analiz edilməsi.

PFR-C.9.9. Travma və xəstəliklər barədə məlumatların rəsmi sənədlərdən əldə edilməsi və ümumiləşdirilməsi.

PFR-C.9.10. Zədələrin əmələ gəlmə mexanizminin və baş vermə müddətinin təyin edilməsi.

PFR-C.9.11. Travmatik təsirin növünün və zədələrin əmələ gəlmə mexanizminin təyin edilməsi, xəsarəti yetirən alətin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, travmanın növünün təyin edilməsi.

PFR-C.9.12. "Ekspert rəyi"nin (aktının) protokol hissəsinin tərtib edilməsi, məhkəmə-tibbi rəyin sonunda nəticələrin tərtib edilməsi.

PFR-C.9.13. Müasir fiziki-texniki metodların, kompyuter texnologiyasının köməkliyi ilə elmi əsaslı tibbi-kriminalistik ekspertizaların (müayinələrin) aparılması və müvafiq məhkəmə-tibbi sənədlərin tərtib edilməsi.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim üçün rezidentura dövründə tibbi-kriminalistik müayinələr üzrə aparılan minimal peşə bacarıqların miqdarı:

PFR-C.9.14. İzlərinə əsasən əşyaların identifikasiyası. 20 (As) 5 (P).

PFR-C.9.15. Sümük qalıqlarına görə şəxsiyyətin məhkəmə-tibbi identifikasiyası. 5 (As) 2 (P).

PFR-C.9.16. Tibbi-kriminalistik "Ekspert rəyi"nin (aktının) tərtib edilməsi, nəticələrin təyin edilməsi. 50 (As) 10 (P).

PFR-C.10. MADDİ SÜBUTLARıN MƏHKƏMƏ-TİBBİ EKSPERTIZASı

Peşə bilikləri və bacarıqları.

PFR-C.10.1. Tibbi-biologiya şöbə.

PFR-C.10.1a. Tibbi-bioloji şöbədə işin təşkilinin ümumi əsasları. Şöbədə ekspertlərin ştat normativləri.

PFR-C.10.1b. Şöbənin yerləşdirilməsi, avadanlıq və təchizatı. Məhkəmə-bioloji ekspertizaları həyata keçirən şəxslər. Şöbə müdiri barədə əsasnamə, şöbə müdirinin vəzifə borcları.

PFR-C.10.1c. Maddi sübutların qəbulu qaydaları və onların qeydiyyatı. Şöbədə sənədləşdirmə işləri. Şöbənin hesabatı.

PFR-C.10.1d. Maddi sübutların və sənədlərin prosesə qədər və prosesdən sonra şöbədə saxlanılması. Ümumi məlumat. İstintaq işi məhkəmə-tibbi ekspertizanın obyekti kimi.

PFR-C.10.2. Maddi sübutlarda izlərin aşkar olunması, onların götürülməsi və müayinə üçün göndərilməsi qaydaları.

PFR-C.10.2a. Maddi sübutlarda izlərin aşkar olunması qaydaları və metodikası.

PFR-C.10.2b. Qana şübhə oyadan ləkələrin aşkar olunması. Spermaya şübhə oyadan izlərin aşkar olunması. Tüklərə şübhə oyadan obyektlərin aşkar olunması. Digər bioloji obyektlərin (üzv və toxuma qalıqları, ağız suyu, tər, sidik, nəcis və s.) aşkar olunması.

PFR-C.10.2c. Aşkar olunmuş obyekt və izlərin təsviri, onların prosessual tərtibi.

PFR-C.10.3. Maddi sübutların götürülmə qaydaları.

PFR-C.10.3a. Maddi sübutları götürərkən onlara ilkin baxış, təsvir, şəklinin çəkilməsi. İzlərin götürülmə qaydaları.

PFR-C.10.3b. Maddi sübutların qablaşdırılması, sənədləşdirilməsi, möhürlənməsi. Maddi sübutların götürülməsinin prosessual tərtibi qaydaları. Maddi sübutların məhkəmə-tibbi ekspertizaya göndərilməsi. Bu zaman müşaiyətedici sənədlərin tərtibi. Müqayisəli analiz üçün nümunənin götürülməsi.

PFR-C.10.3c. Tüklərin, ağız suyunun, spermanın və digər ifrazatların nümunələrinin götürülməsi qaydaları.

PFR-C.10.4. Maddi sübutların məhkəmə-tibbi ekspertizalarının qaydaları.

PFR-C.10.4a. Ekspertizanın keçirilməsi üçün əsas, keçirilmə müəssisələri, daxil olan sənədlərin öyrənilməsi, maddi sübut göndərilən bağlamaya (qaba) baxış və onun təsvir edilməsi, bağlamanın açılması və maddi sübutların təsvir edilməsi. Göndərilmiş maddi sübutların biri-birindən ayrılması.

PFR-C.10.4b. Məhkəmə-tibbi ekspertizanın aparılması və onun nəticələrinin fiksasiyası. Nəticələrin qiymətləndirilməsi və maddi sübutların müayinəsinin «Ekspert rəyi»nin tərtib edilməsi. «Ekspert rəyi»nin hüquq mühafizə orqanlarına təqdim edilməsi və maddi sübutların qaytarılması.

PFR-C.10.5. Qanın, üzv və toxumaların məhkəmə-tibbi ekspertizası.

PFR-C.10.5a. Qan izləri və onların əmələ gəlmə mexanizmləri. Qan izlərinin maddi sübut kimi əhəmiyyəti. Qan izlərinin əmələ gəlmə mexanizmləri. Qan izlərinin təsnifatı, xarakteristikası. Qan izlərinin olduğu əşyaların xarakter və keyfiyyətlərinin qan izlərinin xarakterinə təsiri. Hadisə yerinə baxış zamanı, travma alətlərində və paltarlarda, digər yerlərdə qana oxşar izlər olan maddi sübutların götürülməsi, baxılması, fiksasiyası və göndərilməsi qaydaları. Qan izlərinin əmələ gəlmə mexanizmlərinin təyini ekspertizalarının aparılması. Ekspertiza ilə həll edilən məsələlər.

PFR-C.10.5b. Qanın olmasının təyini. Qanın aşkar olunması metodları (mayelərdə, ləkələrdə, kiçik ölçülü ləkələrdə). Müayinənin nəticələrinin qiymətləndirilməsi.

PFR-C.10.5c. Qanın növ spesifikliyinin təyini. İmmunologiyanın əsasları. Antigenlər və antitellər.

PFR-C.10.5d. Qanın qrup spesifikliyi. Qan qrupları barədə ümumi məlumat. Qan qruplarının klinik təbabətdə, antropologiyada və məhkəmə təbabətində əhəmiyyəti.

PFR-C.10.5e. Qanın eritrositar sistemləri. AVO-sistemi: onun xarakteri, aqqlyutinogenləri, aqqlyutininləri, ötürülməsi. Digər sistemlər.

PFR-C.10.5f. Qanın leykositar sistemləri. HLA-sistemi. Qanın zərdab sistemi. Hemoqlobinlər sistemi. Qammaqlobulinlər sistemi. cS-sistemi. Lipoproteidlərin zərdab sistemi.

PFR-C.10.5g. Qanın izoferment sistemləri. Ferment sistemlərinin xarakteristikası, variantları, ötürülmə mexanizmləri. İzofermentlərin xarakteristikası, variantları.

PFR-C.10.5h. Duru qanın qrupunun eritrositar sistemlər üzrə təyini.AVO sistemi (izozərdabların köməkliyi ilə aqqlyutinasiya reaksiyası). İmmun zərdabların köməkliyi ilə aqqlyutinasiya reaksiyası.

PFR-C.10.5i. Duru qanın qrupunun leykositar sistemlər üzrə təyini.

PFR-C.10.5j. Duru qanın qrupunun zərdab sistemləri üzrə təyini.

PFR-C.10.5k. Duru qanın qrupunun eritrositlərin izoferment sistemləri üzrə təyini. Duru qanın qrupunun zərdabın izofermentlər sistemləri üzrə təyini. Ləkələrdə qan qrupunun eritrositar sistemlər üzrə təyini. Ləkələrdə qan qrupunun zərdab sistemləri ilə təyini. Ləkələrdə qan qrupunun izoferment sistemləri ilə təyini.

PFR-C.10.5l. Qanın regional mənsubiyyətliliyi.

PFR-C.10.5m. Qanın dölə və ya yetkin insana mənsubiyyətliliyinin təyini.

PFR-C.10.5n. Atalığın, analığın və uşaq dəyişmənin təyini ekspertizaları.

PFR-C.10.5o. Üzv və toxumaların məhkəmə-tibbi ekspertizası. Üzvlərin, toxumaların və ayrı-ayrı hüceyrələrin qrup spesifikliyi. Çürümə prosesinə məruz qalmış üzv və toxumalarda qrup spesifikliyinin təyininin xüsusiyyətləri.

PFR-C.10.6. Tüklərin məhkəmə-tibbi ekspertizası.

PFR-C.10.6a. İnsan və heyvan tüklərinin morfoloji, biokimyəvi və antigen strukturları.

PFR-C.10.6b. İnsan tüklərinin məhkəmə-tibbi ekspertizası. Tədqiqat üsulları. Makroskopik və mikroskopik müayinələr. Fiziki müayinə üsulları. Kimyəvi müayinə üsulları.

PFR-C.10.6c. Heyvan tüklərinin məhkəmə-tibbi ekspertizası.

PFR-C.10.6d. İnsan tüklərindən və digər heyvan tüklərindən diferensiasiyası.

PFR-C.10.7. İfrazatların məhkəmə-tibbi ekspertizası.

PFR-C.10.7a. Spermanın məhkəmə-tibbi ekspertizası. Spermanın antigen quruluşu. Spermatozoidlərin və plazmanın antigenləri. Orqanospesifik və növ spesifikliyi. Spermanın və plazmanın biokimyəvi strukturu. Spermatozoidlərin biokimyəvi tərkibi. Ləkələrdə spermanın olmasının təyini. Spermanın növ spesifikliyi. Spermanın qrup spesifikliyinin təyini. Sperma ləkələrində digər sistem antigenlərinin müəyyənləşdirilməsi. Sperma ləkələrinin müayinə metodunun seçilməsi.

PFR-C.10.7b. Ağız suyunun məhkəmə-tibbi ekspertizası. Ağız suyunun olmasının təyini. Ağız suyunun növ və qrup spesifikliyi.

PFR-C.10.7c. Tərin məhkəmə-tibbi ekspertizası. Tərin olmasının təyini. Tərin növ spesifikliyi. Tərin qrup spesifikliyi.

PFR-C.10.7d. Sidiyin məhkəmə-tibbi ekspertizası. Sidiyin olmasının təyini. Sidiyin növ və qrup spesifikliyinin təyini.

PFR-C.10.7e. Uşaqlıq yolu (vaginal) ifrazatının məhkəmə-tibbi ekspertizası. Uşaqlıq yolu ifrazatının olmasının təyini. Qrup spesifikliyi.

PFR-C.10.7f. İfrazatetmə kateqoriyasının təyini. İfrazetmə fenomeni. İfrazetmənin kateqoriyaları. Meyitlərdə və canlı şəxslərdə ağız suyunda, spermada, sidikdə, tərdə, qanda, vaginal ifrazatda, süd vəzisi ifrazatında, cinsi vəzlərin ifrazatında, perikardial möhtəviyyatda, öddə və digər ifrazatlarda ifrazetmə kateqoriyalarının təyini.

PFR-C.10.7g. Nəcis kütlələrinin və mekoniumun məhkəmə-tibbi ekspertizası.

PFR-C.10.7h. Dölyanı mayenin məhkəmə-tibbi ekspertizası. Dölyanı mayenin morfoloji tərkibi, kimyəvi tərkibi, növ spesifikliyi, qrup spesifikliyi.

PFR-C.10.7i. Süd vəzi sekretinin məhkəmə-tibbi ekspertizası. Süd vəzi sekretinin növ və qrup spesifikliyi.

PFR-C.10.8. Məhkəmə-tibbi ekspertiza obyektlərinin sitoloji müayinəsi.

PFR-C.10.8a. Sitoloji ekspertizanın keçirilməsi metodikası. İnsan və heyvan hüceyrələrinin müayinə metodları. Hüceyrənin üzv-toxuma mənsubiyyətliliyinin təyini. Hüceyrənin cinsi

mənsubiyyətliliyinin təyini. Hüceyrənin insana və ya hər hansı heyvana mənsub olmasının təyini. Toxuculuq liflərinin müayinə metodları, liflərin insan tüklərindən diferensiasiyası.

PFR-C.10.8b. Ümumi sitologiya. Hüceyrə haqqında təlim. Hüceyrənin quruluşu və həyat tsikli. Cinsi hüceyrələr. Cinsin təyininin xromosom mexanizmi.

PFR-C.10.8c. İnsanın ümumi sitogenetikası.

PFR-C.10.8d. İnsanın xüsusi sitogenetikası.

PFR-C.10.8e. Hüceyrənin cinsi mənsubiyyətliliyinin diaqnostikası.

Peşə bacarıqları.

PFR-C.10.9. Mikroskopik müayinə məqsədilə üzv və toxumalardan toxuma hissəciklərinin seçilməsi və götürülməsi.

PFR-C.10.10. Maddi sübutların (götürülməsi, qablaşdırılması və məhkəmə-tibbi obyektlərin laborator müayinə üçün göndərilməsi) məhkəmə-tibbi ekspertizalarını təşkil etmək.

PFR-C.10.11. Atalığın, analığın və və uşaqdəyişmənin təyini üzrə məhkəmə-tibbi ekspertizaların keçirilməsi.

PFR-C.10.12. Tüklərin mikroskopik, makroskopik və seroloji müayinələrinin keçirilməsi və müqayisəli analizi.

PFR-C.10.13. Maddi sübutlarda bioloji mənşəli izlərin aşkarlanması, onların götürülməsi və laborator müayinə üçün göndərilməsi.

PFR-C.10.14. Ləkələrdə qanın olmasının təyini, onların növ, qrup, tip və cinsi spesifikliyinin təyini.

PFR-C.10.15. İfrazatların olmasının, onların növ, qrup və cinsi mənsubiyyətinin təyini.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim üçün rezidentura dövründə məhkəmə-bioloji müayinələr üzrə aparılan minimal peşə bacarıqlarının miqdarı:

PFR-C.10.16. Məhkəmə-bioloji şöbədə maddi sübutlarda bioloji mənşəli izlərin aşkarlanmasının həyata keçirilməsi. 10(As).

PFR-C.10.17. Məhkəmə-bioloji şöbədə ləkələrdə qanın olmasının, onların növ, qrup, tip və cinsi spesifikliyinin təyininin həyata keçirilməsi. 20(As).

PFR-C.10.18. Məhkəmə-bioloji şöbədə ifrazatların (sperma, sperma ləkəsi, ağız suyu, tər və s.) müayinəsi və mənsubiyyətinin təyini müayinələri. 10(As).

PFR-C.10.19. Məhkəmə-bioloji şöbədə qanda və daxili üzvlərdə planktonun və psevdoplanktonların təyini. 10(As).

PFR-C.11. MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA OBYEKTLƏRİNİİN MƏHKƏMƏ-KİMYƏVİ MÜAYINƏSİ

Peşə bilikləri və bacarıqları.

PFR-C.11.1. Məhkəmə-kimyəvi şöbə.

PFR-C.11.1a. Məhkəmə-kimyəvi şöbədə işin təşkili, şöbənin iş prinsipləri. Şöbədə bəzi normativ qaydalar, ekspert-kimyaçıların ştat normativləri.

PFR-C.11.1b. Şöbənin yerləşdirilməsi, avadanlıq və təchizatı. Məhkəmə-kimyəvi ekspertizaları həyata keçirən şəxslər.

PFR-C.11.1c. Məhkəmə-kimyəvi ekspertizanın hüquqi və metodoloji əsasları. Məhkəmə-kimyəvi ekspertizanın işini tənzimləyən əsas sənədlər.

.

PFR-C.11.1d. Kimyəvi-toksikoloji analizin (məhkəmə-kimyəvi müayinə və ekspertizalar) əsas istiqamətləri. Xüsusiyyətləri. Kimyəvi müayinələrin məsələləri, əhəmiyyəti və imkanları. Bu müayinələrin (ekspertizaların) keçirilməsi üçün prosessual əsaslar, keçirilmə qaydaları.

PFR-C.11.1e. Kimyəvi-toksikoloji analiz üçün müayinə obyektləri (insan meyitindən götürülmüş üzv və toxumalar, insan ifrazatları, paltar, qida məhsulları, su, hava və digər ətraf mühit obyektləri). Bu maddi sübutların məhkəmə-tibbi müayinəsinin təşkilinə dair əsas prinsiplər.

PFR-C.11.1f. Müayinə olunacaq maddi sübutlar – obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi. Kimyəvi xarakterli maddi sübutların aşkarlanması üsulları, laborator müayinələr üçün seçilməsi. Müayinə obyektlərinin götürülməsi, qablaşdırılması və müayinə üçün göndərilməsi qaydaları.

PFR-C.11.1g. Maddi sübutların (obyektlərin) şöbədə qəbulu qaydaları və onların qeydiyyatı.

PFR-C.11.1h. Məhkəmə-kimyəvi ekspertiza obyektlərinin laborator müayinə metodları.

PFR-C.11.1i. Maddi sübutların və sənədlərin prosesə qədər və prosesdən sonra şöbədə saxlanılması. Ümumi məlumat.

PFR-C.11.1j. Məhkəmə-kimyəvi ekspertizanın sənədləşdirilməsi. Rəyin qiymətləndirilməsi. Şöbənin hesabatı.

PFR-C.11.2. Məhkəmə-tibbi toksikologiya. Zəhərlənmələrin məhkəmə-tibbi diaqnostikası. Zəhərli maddələr.

PFR-C.11.2a. Zəhərli maddələrin orqanizmə təsiri, zəhərlənmələrin aşkarlanması. Ümumi məlumat.

PFR-C.11.2b. Toksikologiyanın predmeti. “Zəhərlənmə” anlayışı. “Zəhər” və “zəhərli maddə” məfhumlarının məhkəmə-tibbi və ümumbioloji mənaları.

PFR-C.11.2c. Zəhərlərin təsnifatı. Zəhərlənmələrin mənbələri və baş vermə tezlikləri. Zəhərlərin fiziki-kimyəvi xüsusiyyətləri, kimyəvi strukturları.

PFR-C.11.2d. Zəhərlərin təsir şərtləri: konsentrasiyası, bədənə daxil olan miqdarı, daxilolma yolu, orqanizmdə çevrilmə xarakteri, orqanizmdən xaric olma tipləri, orqanizmin vəziyyəti, individual həssaslıq və s. Zəhərlərin təsir intensivliyi.

PFR-C.11.2e. Klinik toksikologiyaya giriş. Kəskin zəhərlənmələrin yayılması, xarakteri, səbəbləri. Uşaq yaşlarda zəhərlənmələrin xüsusiyyətləri.

PFR-C.11.2f. Zəhərlənmələrin klinikası. Klinik diaqnostika.

PFR-C.11.2g. Zəhərlərin orqanizmə ümumi və yerli təsirləri. Müxtəlif növ zəhərlənmələr zamanı üzv və toxumalarda baş verən dəyişikliklər.

PFR-C.11.2h. Zəhərlənmənin gedişi (kəskin, yarımkəskin və xroniki) və onların nəticələri.

PFR-C.11.2i. Dərman maddələri ilə kəskin zəhərlənmələrin analitik diaqnostikası.

PFR-C.11.2j. Kimyəvi-toksikoloji analizə tələblər. Metodların seçilməsi. Klinik məlumatlardan asılı olaraq analizin istiqamətləndirilməsi.

PFR-C.11.2k. Kəmiyyət (miqdari) analizi.

PFR-C.11.3. Ekstraksiya və sorbsiya ilə izolyasiya edilən qrup maddələrin kimyəvi-toksikoloji (məhkəmə-kimyəvi) analizi. Dərman maddələri.

PFR-C.11.3a. Dərman maddələrinin fiziki-kimyəvi xarakteristikası.

PFR-C.11.3b. Maddələrin orqanizmdə yayılmasının ümumi qanunauyğunluqları. Peroral, inqalyasion və perkutant zəhərlənmələrin toksikokinetik xüsusiyyətləri.

PFR-C.11.3c. Yad birləşmələrin biotransformasiyasının əsas yolları. Yad birlşmələrin metabolizminə təsir edən amillər. Yad birləşmələrin və onların metabolitlərinin ekskresiyası.

PFR-C.11.3d. Toksiki təsirin ümumi xarakteristikası. Toksiki effektin formalaşması.

PFR-C.11.3e. Dərman və narkotik maddələrin üzv və toxumalardan izolyasiyasının (ayrılmasının) müasir metodları (ümumi və xüsusi metodlar). Onların xarakteristikası və müqayisəli qiymətləndirilməsi.

PFR-C.11.3f. Məhkəmə-kimyəvi ekspertizaların keçirilməsi zamanı dərman maddələrinin skrininq-analizinin əsasları.

PFR-C.11.3g. Məhkəmə-kimyəvi ekspertizaların keçirilməsi zamanı dərman və narkotik maddələrin analizlərinin müasir metodlarının ümumi xarakteristikası. Xromatoqrafik müayinə üsulları. Spektral metodlar. Spektrin ultrabənövşəyi və görünən sahələrində spektrofotometriya. Flüoressensiya və fosforessensiya. Kütlə-spektrometriya. İmmunoloji analiz metodları. Homogen və heterogen immunoloji analiz.

PFR-C.11.4. Narkomaniya və toksikomaniyanın analitik diaqnostikası.

PFR-C.11.4a. Narkomaniya, toksikomaniyanın analitik diaqnostikası xidmətinin təşkili.

PFR-C.11.4b. Narkotik maddələrin təyinində tədqiqat obyektləri. Narkotik maddələrin ayrı-ayrı qruplarının istiqamətləndirici analizi. Analiz metodlarının seçilməsi. İlkin və təsdiqedici tədqiqat metodları. Məhkəmə-kimyəvi müayinələrin nəticələrinin interpretasiyası. Məhkəmə-kimyəvi ekspertiza rəyinin tərtib edilməsi.

PFR-C.11.5. Qeyri-polyar üzvi həlledicilərlə ekstraksiya ilə izolyasiya edilən qrup maddələrin kimyəvi-toksikoloji analizi. Pestisidlər.

PFR-C.11.5a. Pestisidlər barədə ümumi məlumat. Onların əhəmiyyəti, toksigenliyi, quruluşu və xassələri. Təsnifatı, növləri.

PFR-C.11.5b. İzolyasiya, təmizlənmə, aşkarlanma xüsusiyyətləri. Ayrı-ayrı qrup pestisidlərin (FÜB, xlor-üzvi törəmələr, karbamin turşusu törəmələri və s.) miqdari təyini.

PFR-C.11.5c. İlkin metodlar. Enzim etik metod. Boyama reaksiyası. Bioloji obyektlərdə selektiv detektorlarla qaz-maye xromatoqrafiyası üsulunun istifadəsi perspektivləri. Funqisid preparatları ilə zəhərlənmə hallarında məhkəmə-kimyəvi ekspertiza. Sintetik piretroidlər.

PFR-C.11.6. Mineralizasiya ilə izolyasiya edilən qrup maddələrin kimyəvi-toksikoloji (məhkəmə-kimyəvi) analizi. “Metallik” zəhərlər.

PFR-C.11.6a. Bu qrup maddələrin ümumi xarakteristikası. Toksigenliyi. Müasir ümumi və xüsusi mineralizasiya metodlarının xarakteristikası.

PFR-C.11.6b. Analizin doğranma üsulu. Məzmunu. Xüsusiyyətləri. Analizin keçirilməsi metodologiyası. Üzvi reagentlər.

PFR-C.11.6c. Ayrı-ayrı ionların təyini üçün doğranma analizi. Civə ionlarının aşkar edilməsində və təyinində xüsusi metodlar.

PFR-C.11.6d. Metalların ionlarının bölünməsində və təyinində müasir metodlar.

PFR-C.11.6e. “Metallik” zəhərlərin miqdari analizi. Rəyin tərtibi.

PFR-C.11.7. Distillə edilməklə izolyasiya olunan qrup maddələrin kimyəvi-toksikoloji (məhkəmə-kimyəvi) analizi. “Uçucu” zəhərlər.

PFR-C.11.7a. Bu qrup maddələrin ümumi xarakteristikası. Toksigenliyi. Zəhərlənmənin yayılması. Müasir izolyasiya metodlarının (su buxarları ilə distillyasiya, sadə və azeotrop işlənmə, digərləri) xarakteristikası və müqayisəli qiymətləndirilməsi. Tədqiqat üçün distillatların alınması.

PFR-C.11.7b. “Uçucu” zəhərlərin analizində kimyəvi üsul. Qazoxromatoqrafik tədqiqat üsulu “uçucu” zəhərlərin identifikasiyasında və miqdari təyinində müasir və yüksəkeffektivlikli üsul kimi. Daxili normalizasiya üsulu ilə miqdari analiz. “Uçucu” zəhərlərin təyinində kimyəvi və

qazoxromatoqrafik analizlərdən istifadə etməklə istiqamətləndirilməmiş analiz (çoxkomponentli və kapilyar).

PFR-C.11.7c. Müasir fiziki-kimyəvi analiz üsullardan istifadə etməklə alkoqol sərxoşluğunun ekspertizası. Analizin sənədləşdirilməsi. Rəyin tərtibi.

PFR-C.11.8. Xüsusi izolyasiya üsulları tələb etməyən qrup maddələrin kimyəvi-toksikoloji (məhkəmə-kimyəvi) analizi. Zərərli buxarlar və qazlar. Karbon-oksid.

PFR-C.11.8a. Bu qrup maddələrin ümumi xarakteristikası. Zəhərlənmələrin yayılması, səbəbi. Toksigenliyi.

PFR-C.11.8b. Toksikokinetika. Zəhərlənmələrin klinikası və klinik diaqnostikası. Dezintoksikasion terapiya metodları kompleksində hiperbarik oksigenizasiya üsulu. Keyfiyyət analizi. Qanda karboksihemoqlobinin təyinində kimyəvi ekspress üsul.

PFR-C.11.8c. Qanda karboksihemoqlobinin təyinində spektroskopik tədqiqat üsulu.

PFR-C.11.8d. Karbon-oksidin təyinində maye-qaz xromatoqrafiya üsulu. Analizlərin sənədləşdirilməsi. Rəyin tərtibi.

PFR-C.11.9. Dializlə izolyasiya olunan qrup maddələrin kimyəvi-toksikoloji (məhkəmə-kimyəvi) analizi.

PFR-C.11.9a. Bu qrup maddələrin ümumi xarakteristikası. Toksigenliyi. Müayinə obyektinin seçilməsinin əsaslandırılması.

PFR-C.11.9b. Müayinə obyektinin pH-mühitinin təyini üsulları. Membran filtrasiya və dializ.

PFR-C.11.9c. Bu qrupa daxil olan maddələrin izolyasiya və analiz xüsusiyyətləri. Bu maddələrin meyit materiallarında qalma müddəti. Analizlərin sənədləşdirilməsi. Rəyin tərtibi.

Peşə bacarıqları.

PFR-C.11.10. Müayinə olunacaq obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi.

PFR-C.11.11. Zəhərlənmə və xəstəliklərə diaqnoz qoymaq və səbəblərini təyin etmək.

PFR-C.11.12. Konkret laborator müayinələrin aparılması zəruriyyətinin təyin edilməsi.

PFR-C.11.13. Zərərçəkmişin müayinəsinin, təşrihin və aparılmış laborator müayinələrin nəticələrinin qiymətləndirilməsi.

PFR-C.11.14. Tədqiqatın nəticələrinin analiz edilməsi.

PFR-C.11.15. Məhkəmə-kimyəvi müayinələr üçün meyitin aşkar olunduğu yerdə maddi sübutların və təşrih zamanı meyitdən üzv və toxumaların, qanın və sidiyin, digər bioobyektlərin götürülməsi, qablaşdırılması və məhkəmə-tibbi obyektlərin laborator müayinə üçün göndərilməsi.

PFR-C.11.16. Müvafiq tibbi sənədlərin tərtib edilməsi.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim üçün rezidentura dövründə məhkəmə-kimyəvi müayinələr üzrə aparılan minimal peşə bacarıqların miqdarı:

PFR-C.11.17. Müayinə olunacaq obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi. 50 (P/İ).

PFR-C.11.18. Zəhərlənmə və ya zəhərlənməyə şübhə hallarında təşrih zamanı kimyəvi (biokimyəvi) və digər əlavə müayinələr məqsədilə meyit materiallarının götürülməsi. 100 (As) 10 (P).

PFR-C.11.19. Məhkəmə-kimyəvi şöbədə məhkəmə-kimyəvi müayinələrin həyata keçirilməsi. 100 (As).

PFR-C.12. İSTİNTAQ VƏ MƏHKƏMƏ İŞ MATERİALLARıNA GÖRƏ MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA

Peşə bilikləri və bacarıqları.

.

PFR-C.12.1. İbtidai istintaqda və məhkəmədə iş materiallarına əsasən məhkəmə-tibbi ekspertizaların keçirilmə xüsusiyyətləri və təyini qaydaları.

PFR-C.12.1a. Ümumi məlumat. İstintaq işi məhkəmə-tibbi ekspertizanın obyekti kimi.

PFR-C.12.1b. İş materiallarına əsasən məhkəmə-tibbi ekspertizanın keçirilməsi zəruriyyətləri, səbəbləri və təyin edilməsi qaydaları. İstintaq işi materialına görə ilkin, əlavə və təkrari məhkəmə-tibbi ekspertizalar.

PFR-C.12.1c. İş materiallarına əsasən məhkəmə-tibbi ekspertizanı icra edən məhkəmə-tibb ekspertinin prosessual əsasları.

PFR-C.12.1d. İş materiallarına əsasən məhkəmə-tibbi ekspertizanın təşkili, keçirilməsi və nəticələrinin tərtibi qaydaları.

PFR-C.12.1e. İş materiallarına əsasən keçirilən ekspertizalar zamanı çox rast gəlinən səhvlərin analizi.

PFR-C.12.2. Müxtəlif növ travmalar zamanı iş materiallarına əsasən məhkəmə-tibbi ekspertiza.

PFR-C.12.2a. Ümumi məlumat. Küt alətlərlə, iti alətlərlə, odlu silahlarla, nəqliyyat vasitələri ilə yetirilmiş xəsarətlər zamanı, aşağı və ya yuxarı hərarətin təsirindən törənən, elektrik cərəyanının təsirindən törənən, zəhərlənmələr zamanı, hündürlükdən yıxılmalar zamanı baş verən xəsarətlərlə əlaqədar iş materiallarına əsasən keçirilən məhkəmə-tibbi ekspertizaların xüsusiyyətləri.

Peşə bacarıqları (məhkəmə-tibbi ekspertiza üzrə).

PFR-C.12.3. Müayinə olunacaq obyektlər barədə ilkin məlumatların qiymətləndirilməsi.

PFR-C.12.4. Meyitə baxış və təşrihin həyata keşirilməsi; meyitin üzv və toxumalarındakı dəyişikliklərin vizual qiymətləndirilməsi və dəqiq təsviri.

PFR-C.12.5. Tədqiqatın nəticələrinin analiz edilməsi.

PFR-C.12.6. Xəstəliyin morfoloji əlamətlərinin digər xəstəliklərin uyğun morfoloji dəyişiklikləri ilə diferensial diaqnostikasının aparılması.

PFR-C.12.7. Patoloji-anatomik diaqnozun qoyulması.

PFR-C.12.8. Travma və xəstəliklər barədə məlumatları rəsmi sənədlərdən əldə etmək və ümumiləşdirmək.

PFR-C.12.9. Üzv və toxumalarda zədə əlamətlərinin və morfoloji dəyişikliklərin aşkar edilməsi və təsvir edilməsi.

PFR-C.12.10. Zədələrin əmələ gəlmə mexanizminin və baş vermə müddətinin təyin edilməsi.

PFR-C.12.11. Ölüm faktının və ölümün baş vermə müddətinin təyin edilməsi.

PFR-C.12.12. Meyitin məhkəmə-tibbi müayinəsinin sənədləşdirilməsi.

PFR-C.12.13. Naməlum və parçalanmış meyitlərin müayinə xüsusiyyətləri. Meyitin şəxsiyyətinin identifikasiyası.

PFR-C.12.14. Skeletləşmiş meyitlərin və sümük qalıqlarının müayinəsi.

PFR-C.12.15. Yenidoğulmuş uşaq meyitlərinin müayinəsi.

PFR-C.12.16. Ekshumasiya. Ekshumasiya olunmuş meyitin müayinəsi.

PFR-C.12.17. Travmatik təsirin növünü və zədələrin əmələ gəlmə mexanizminin təyini, xəsarəti yetirən alətin xüsusiyyətlərinin müəyyənləşdirilməsi, travmanın növünün təyin edilməsi və diaqnozun qoyulması.

PFR-C.12.18. Zəhərlənmə və xəstəliklərə diaqnoz qoymaq və səbəblərini təyin etmək.

PFR-C.12.19. Konkret laborator müayinələrin aparılması zəruriyyətinin təyin edilməsi.

.

PFR-C.12.20. Zərərçəkmişin müayinəsinin, təşrihin və aparılmış laborator müayinələrin nəticələrinin qiymətləndirilməsi.

PFR-C.12.21. "Ekspert rəyi"nin (aktının) protokol hissəsinin tərtib edilməsi, məhkəmə-tibbi rəyin sonunda patoloji-anatomik diaqnozun və nəticələrin tərtib edilməsi, "ölüm haqqında həkim şəhadətnaməsi"nin yazılması.

PFR-C.12.22. Klinik-patanatomik epikrizin tərtib edilməsi.

PFR-C.12.23. Xəstəliklərin və ölüm səbəblərinin "Beynəlxalq Təsnifatı"nın tələblərinə müvafiq qaydada patoloji-anatomik diaqnozun tərtib olunması və "Ölüm haqqında həkim şəhadətnaməsi"nin tərtib edilməsi.

PFR-C.12.24. Digər həkim-mütəxəssis və tibb müəssisələri ilə qarşılıqlı iş əlaqələrinin qurulması.

PFR-C.12.25. Sağlamlığa zərərvurmanın dərəcələrini təyin etmək.

PFR-C.12.26. Xəsarətlə xoşagəlməz nəticələr arasındakı səbəb-nəticə əlaqələrini təyin etmək.

PFR-C.12.27. Xəsarət və izlərin ölçülməsi və nəticələrin işlənməsi.

PFR-C.12.28. Xəsarətlərin sxematik təsviri.

PFR-C.12.29. Cinsi cinayətlərlə əlaqəli məhkəmə-tibbi ekspertizaları həyata keçirmək.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim üçün rezidentura dövründə aparılan minimal peşə bacarıqların miqdarı (məhkəmə-tibbi ekspertiza üzrə):

PFR-C.12.30. Qeyri-zorakı ölümlər zamanı meyitə baxış və təşrihin həyata keşirilməsi; meyitin üzv və toxumalarındakı dəyişikliklərin vizual qiymətləndirilməsi və dəqiq təsviri. 50 (As) 10 (P).

PFR-C.12.31. Zorakı ölümlər zamanı meyitə baxış və təşrihin həyata keşirilməsi; meyitin üzv və toxumalarındakı dəyişikliklərin vizual qiymətləndirilməsi və dəqiq təsviri. 100 (As) 20 (P).

PFR-C.12.32. Naməlum meyitlərin müayinəsi. 20 (As) 5 (P).

PFR-C.12.33. Parçalanmış meyitlərin müayinəsi. Meyitin restavrasiyası. 10 (As) 3 (P).

PFR-C.12.34. Kəskin çürümə dəyişikliklərinə məruz qalmış və ya skeletləşmiş meyitin, sümük qalıqlarının müayinəsi. 30 (As) 10 (P).

PFR-C.12.35. Meyitin təkrar müayinəsi. Ekshumasiya. Ekshumasiya olunmuş meyitin müayinəsi. 5 (As)

PFR-C.12.36. Təşrihin və laborator müayinələrin nəticələrinin qiymətləndirilməsi. 150 (As) 30 (P).

PFR-C.12.37. Mikroskopik müayinə məqsədilə meyitdən üzv və toxumalardan toxuma hissəciklərinin seçilməsi və götürülməsi. 150 (As) 30 (P).

PFR-C.12.38. Patoloji-anatomik diaqnozun tərtibi. 150 (As) 30 (P).

PFR-C.12.39. "Ekspert rəyi"nin (aktının) protokol hissəsinin tərtib edilməsi, məhkəmə-tibbi rəyin sonunda patoloji-anatomik diaqnozun və nəticələrin tərtib edilməsi, "ölüm haqqında həkim şəhadətnaməsi"nin yazılması. 100 (As) 30 (P).

PFR-C.12.40. Meyitin aşkar olunduğu yerdə müayinəsində iştirak etmək üçün əməliyyat-istintaq qrupunun tərkibində növbətçilik (əməliyyat-istintaq qrupunun rəhbərinin icazəsi ilə). 50 (As).

PFR-C.12.41. Sağlamlığa zərərvurmanın dərəcələrinin təyini. 1000 (As) 100 (P).

PFR-C.12.42. Cinsi cinayətlərlə əlaqəli məhkəmə-tibbi ekspertiza. 200 (As) 30 (P).

PFR-C.12.43. Sağlamlıq vəziyyətinin təyini üzrə ekspertiza. 10 (As) 5 (P).

PFR-C.12.44. Əmək qabiliyyətinin itirilməsinin həcminin (faizinin) təyiniüzrə ekspertiza. 10 (As) 5 (P).

PFR-C.12.45. İş materialları üzrə aparılan ekspertiza. 10 (As) 5 (P).

PFR-C.12.46. Tibb işçilərinin peşə fəaliyyətində yol verdikləri qanunsuz hərəkətləri zamanı aparılan ekspertizalar. 10 (As) 5 (P).

3. TƏHSİLİN MƏZMUNUNA VƏ SƏVİYYƏSİNƏ QOYULAN MİNİMUM TƏLƏBLƏR.

.

3.1. Peşə fəaliyyətinin xarakteristikası.

Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim ixtisasın tələblərinə müvafiq olaraq dərin fundamental və klinik-morfoloji peşə hazırlıqlı olmaqla, elmi-texniki tərəqqinin, eləcə də müasir tibb elminin nəzəri və texniki imkanlarından istifadə etməklə, həyati və postmortal morfoloji tədqiqatlar əsasında konkret xəstəliklərin və digər patoloji proseslərin, onların inkişaf mexanizmlərinin və inkişafını təmin edən etioloji amillərin öyrənilməsinə; ətraf mühit amillərinin təsiri ilə sağlamlığın pozulmasının və baş vermiş ölümün səbəblərinin, inkişaf mexanizmlərinin və əlamətlərinin öyrənilməsinə; mümkün diaqnozun aydınlaşdırılmasına, qəfləti ölümlərin, travma və ekzogen intoksikasiyaların profilaktikası metodlarının işlənib hazırlanmasına; həmçinin tibb işçilərinin peşə fəaliyyətində yol verdikləri səhvlərin, nöqsan və qüsurların analiz edilməsi yolu ilə müalicə-diaqnostika işlərinin keyfiyyətinin yüksəldilməsinə hazır olmalıdır.

3.1.1. Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin peşə fəaliyyətinin əsas istiqamətləri:

– praktiki tibbi;.

– elmi-tədqiqat;.

– təşkilati-inzibatçılıq;.

– elmi-pedaqoji sahə üzrə.

3.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:

3.1.2.1. Praktik tibb sahəsi üzrə: ÜFR-01., PFR-A., PFR-B. və PFR-C. bəndləri aiddir.

3.1.2.2. Elmi-tədqiqat sahəsi üzrə:

– Xəstəliklərin və digər patoloji proseslərin inkişafında tibbi-sosial amillərin rolunu qiymətləndirmə üsullarını bilməlidir;.

– Elmi-tədqiqat işlərini planlaşdırmalıdır;.

– Tədqiqat mövzusunun seçilməsini bacarmalıdır;.

– Elmi-tədqiqat işini aparılmalıdır;.

– Elmi-tədqiqat işinin nəticələrinin təhlil etməyi bacarmalıdır;.

– Alınmış nəticələrin praktik əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməli, nəşr materiallarının hazırlanmasında iştirak etməlidir.

3.1.2.3. Təşkilati-inzibatçılıq sahəsi üzrə:

– Səhiyyə sistemində qəbul edilmiş normativ sənədlərdən (Azərbaycan Respublikasının qanunlarını, texniki reqlamentləri, beynəlxalq və milli standartları, əmrlər və direktivləri, tövsiyələri, beynəlxalq vahidlər sistemini, fəaliyyətdə olan beynəlxalq təsnifatları) istifadə etməyi, həmçinin tibbi müəssisələrin işinin keyfiyyətini və effektivliyini qiymətləndirmək üçün aparılmış sənədləşmələrdən istifadə etməyi bacarmalıdır;.

– Patoloji anatomiya və məhkəmə-tibbi ekspertiza sahəsinin (Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə-tibbi ekspertiza və Patoloji anatonmiya" Birliyi) inzibati və təşkilati quruluşunu, müxtəlif tibbi müəssisələrin idarəçilik fəaliyyətini bilməli, müəssisələrin struktur bölmələrinin (ixtisas profilinə görə) iş göstəricilərini təhlil etməli, əhaliyə tibbi xidmətin göstərilməsində müasir tibbi-təşkilati və sosial-iqtisadi texnologiyaların səmərəsini qiymətləndirməyi bacarmalıdır;.

– Peşə səriştəsinin formalaşması üçün professional biliklər, bacarıqlar, vərdişlər sisteminə yiyələnməlidir.

3.1.2.4. Elmi-pedaqoji sahə üzrə:

– Baza ali təhsil səviyyəsində (tibb universitetinin tələbələrinə, universitetlərin hüquq fakultlərinin tələbələrinə, polis akademiyasının kursantlarına və s.) və orta tibbi ixtisas təhsil müəssisələrində ixtisasa uyğun olaraq tədris edə bilər (mühazirə, praktik məşqələlər, seminarlar, laboratoriya işləri və s.).

.

3.2. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları (Cədvəl 1; Cədvəl 3-də illər üzrə açıqlanır).

Cədvəl 1.

Fənn bölümünün kodu	Fənn bölümünün (tematik rotasiyasının) adı (bilik, bacarıq və vərdişlər baxımından)	Kreditlərin sayı	Qazanılması nəzərdə tutulan kompetensiyaların kodları
Ümumi hazırlıq fənnləri:		**10**	
ÜFR	Baza təhsili		
ÜFR-01.	Ümumi bilik və bacarıqlar	5	ÜFR-01.01. – ÜFR-01.09.
ÜFR-02	Tədqiqat sahəsi	5	ÜFR-02.01. – ÜFR-02.16.
Peşə təhsili:		**150**	
PFR-A.	**Patoloji anatomiya (autopsiya və biopsiya)**	**60**	**PFR-A.1. – PFR-A.17.**
PFR-A.1.	Patoloji anatomiyanın ümumi sualları.	2	PFR-A.1.1. – PFR-A.1.11.
PFR-A.2.	Ümumi patologiya (ümumi patoloji-anatomik proseslər).	8	PFR-A.2.1. – PFR-A.2.10.
PFR-A.3.	Onkomorfologiya	8	PFR-A.3.1. – PFR-A.3.2.
PFR-A.4.	Qan sisteminin və limfa sisteminin xəstəlikləri.	3	PFR-A.4.1. – PFR-A.4.5.
PFR-A.5.	Ürək-damar sistemi patologiyaları.	6	PFR-A.5.1. – PFR-A.5.10.
PFR-A.6.	Sinir sistemi xəstəlikləri.	4	PFR-A.6.1. – PFR-A.6.8.
PFR-A.7.	Revmatik xəstəliklər. Dəri xəstəlikləri	3	PFR-A.7.1. – PFR-A.7.6.
PFR-A.8.	Tənəffüs sistemi xəstəlikləri. Peşə xəstəlikləri.	3	PFR-A.8.1. – PFR-A.8.13.
PFR-A.9.	Həzm sistemi patologiyaları.	3	PFR-A.9.1. – PFR-A.9.11.
PFR-A.10.	Sidik-ifrazat sistemi xəstəlikləri.	3	PFR-A.10.1. – PFR-A.10.12.
PFR-A.11.	Endokrin sistemin xəstəlikləri.	2	PFR-A.11.1. – PFR-A.11.5.
PFR-A.12.	Cinsiyyət sisteminin xəstəlikləri. Ginekoloji patologiyalar. Hamiləlik və doğuş patologiyaları.	5	PFR-A.12.1. – PFR-A.12.14.
PFR-A.13.	Dayaq-hərəkət sistemi patologiyaları.	1	PFR-A.13.1. – PFR-A.13.9.
PFR-A.14.	İnfeksion xəstəliklər.	5	PFR-A.14.1. – PFR-A.14.17.
PFR-A.15.	Stomatoloji patologiyalar.	2	PFR-A.15.1. – PFR-A.15.14.
PFR-A.16.	Narkoloji patologiyalar.	1	PFR-A.16.1. – PFR-A.16.3.
PFR-A.17.	Fiziki və kimyəvi travmalar.	1	PFR-A.17.1. – PFR-A.17.6.
PFR-B.	**Prenatal və perinatal patologiyalar (autopsiya və biopsiya)**	**20**	**PFR-B.1. – PFR-B.6.**
PFR-B.1.	Prenatal və perinatal patologiyaların ümumi sualları.	2	PFR-B.1.1. – PFR-B.1.2.
PFR-B.2.	Prenatal patologiyalar.	2	PFR-B.2.1. – PFR-B.2.6.
PFR-B.3.	Perinatal dövrün patologiyaları.	4	PFR-B.3.1. – PFR-B.3.7.
PFR-B.4.	Perinatal tanatologiya.	4	PFR-B.4.1. – PFR-B.4.6
PFR-B.5.	Perinatal immunologiya.	2	PFR-B.5.1. – PFR-B.5.6
PFR-B.6.	Uşaq yaşların patologiyaları.	6	PFR-B.6.1. – PFR-B.6.12.
PFR-C.	**Məhkəmə-tibbi ekspertiza.**	**70**	

PFR-C.1.	Məhkəmə-tibbi ekspertizanın ümumi sualları.	2	PFR-C.1.1. – PFR-C.1.2.
PFR-C.2.	Mexaniki zədələnmələrin məhkəmə-tibbi ekspertizası.	12	PFR-C.2.1. – PFR-C.2.7.
PFR-C.3.	Digər fiziki amillərin təsirindən baş verən zədələnmələrin məhkəmə-tibbi ekspertizası.	4	PFR-C.3.1. – PFR-C.3.4.
PFR-C.4.	Mexaniki asfiksiyaların məhkəmə-tibbi ekspertizası.	4	PFR-C.4.1. – PFR-C.4.5.
PFR-C.5.	Kimyəvi travmaların (zəhərlənmə) məhkəmə-tibbi ekspertizası.	2	PFR-C.5.1. – PFR-C.5.6.
PFR-C.6.	Canlı şəxslərin (zərərçəkmişin, təqsirləndirilənin, şübhə edilənin və digər şəxslərin) məhkəmə-tibbi ekspertizası.	12	PFR-C.6.1. – PFR-C.6.9.
PFR-C.7.	Məhkəmə-tibbi tanatologiya.	12	PFR-C.7.1. – PFR-C.7.5.
PFR-C.8.	Məhkəmə-tibbi ekspertiza obyektlərinin mikroskopik müayinələri.	5	PFR-C.8.1. – PFR-C.8.6.
PFR-C.9.	Məhkəmə-tibbi ekspertiza obyektlərinin tibbi-kriminalistik müayinə metodları.	5	PFR-C.9.1. – PFR-C.9.13.
PFR-C.10.	Maddi sübutların məhkəmə-tibbi ekspertizası.	5	PFR-C.10.1. – PFR-C.10.8.
PFR-C.11.	Məhkəmə-tibbi ekspertiza obyektlərinin məhkəmə-kimyəvi müayinəsi.	5	PFR-C.11.1. – PFR-C.11.9.
PFR-C.12.	İstintaq və məhkəmə iş materiallarına görə məhkəmə-tibbi ekspertiza.	2	PFR-C.12.1. – PFR-C.12.2.
Könüllü seçilmiş fənnin dərindən öyrənilmə dövrü		**10**	
Elmi-tədqiqat işi (kliniki və/və ya baza elmi)		**5**	
Dövrü və yekun attestasiya		**5**	
Cəmi:		**180**	

3.3. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə rezident hazırlığını təmin edən auditoriyada olan təhsil proqramının strukturu və əsas hazırlıq mövzuları, üç il ərzində saatlarla (Cədvəl 2; Cədvəl 4-də illər üzrə açıqlanır).

Cədvəl 2.

Hazırlıq mövzularının kodu	**Əsas tədris mövzuları**	**Tədris saatları**		
		Mühazirə	**Seminar**	**Praktik məşğələ**
1	**2**	**3**	**4**	**5**
ÜHM	**Ümumi hazırlıq mövzuları:**			
ÜHM – B 01	Səhiyyə sisteminin təşkilinin qanunvericilik əsasları, normativ və direktiv sənədlər.	4	2	2
ÜHM – B 02	Tibbi statistika və informatika.	2	4	2
PHM	**Peşə hazırlığı mövzuları:**			
PHM – B 03	Patoloji anatomiyanın ümumi sualları.	10	14	12

.

PHM – B 04	Ümumi patologiya (ümumi patoloji-anatomik proseslər).	52	48	56
PHM – B 05	Onkomorfologiya.	16	24	32
PHM – B 06	Qan sisteminin və limfa sisteminin xəstəlikləri.	8	8	8
PHM – B 07	Ürək-damar sistemi patologiyaları.	18	40	26
PHM – B 08	Sinir sistemi xəstəlikləri.	4	8	12
PHM – B 09	Revmatik xəstəliklər. Dəri xəstəlikləri.	2	6	4
PHM – B 10	Tənəffüs sistemi xəstəlikləri. Peşə xəstəlikləri.	4	8	12
PHM – B 11	Həzm sistemi patologiyaları.	14	20	14
PHM – B 12	Sidik-ifrazat sistemi xəstəlikləri.	6	8	10
PHM – B 13	Endokrin sistemin xəstəlikləri.	2	4	6
PHM – B 14	Cinsiyyət sisteminin xəstəlikləri. Ginekoloji patologiyalar. Hamiləlik və doğuş patologiyaları.	6	10	8
PHM – B 15	Dayaq-hərəkət sistemi patologiyaları.	2	2	2
PHM – B 16	İnfeksion xəstəliklər.	18	16	14
PHM – B 17	Stomatoloji patologiyalar.	2	2	2
PHM – B 18	Narkoloji patologiyalar.	2	2	2
PHM – B 19	Fiziki və kimyəvi travmalar.	2	2	2
PHM – B 20	Prenatal və perinatal patologiyaların ümumi sualları.	2		
PHM – B 21	Prenatal patologiyalar.			2
PHM – B 22	Perinatal dövrün patologiyaları.			2
PHM – B 23	Perinatal tanatologiya.		2	
PHM – B 24	Perinatal immunologiya.	2		
PHM – B 25	Uşaq yaşların patologiyaları.	4	4	6
PHM – B 26	Məhkəmə-tibbi ekspertizanın ümumi sualları.	2	4	6
PHM – B 27	Mexaniki zədələnmələrin məhkəmə-tibbi ekspertizası.	20	34	42
PHM – B 28	Digər fiziki amillərin təsirindən baş verən zədələnmələrin məhkəmə-tibbi ekspertizası.	4	4	4
PHM – B 29	Mexaniki asfiksiyaların məhkəmə-tibbi ekspertizası.	6	12	6
PHM – B 30	Kimyəvi travmaların (zəhərlənmə) məhkəmə-tibbi ekspertizası.	8	8	8
PHM – B 31	Canlı şəxslərin (zərərçəkmişin, təqsirləndirilənin, şübhə edilənin və digər şəxslərin) məhkəmə-tibbi ekspertizası.	18	22	20
PHM – B 32	Məhkəmə-tibbi tanatologiya.	8	6	10
PHM – B 33	Məhkəmə-tibbi ekspertiza obyektlərinin mikroskopik müayinələri.	8	8	8
PHM – B 34	Məhkəmə-tibbi ekspertiza obyektlərinin tibbi-kriminalistik müayinə metodları.	8	8	8
PHM – B 35	Maddi sübutların məhkəmə-tibbi ekspertizası.	8	8	8
PHM – B 36	Məhkəmə-tibbi ekspertiza obyektlərinin məhkəmə-kimyəvi müayinəsi.	8	8	8
PHM – B 37	İstintaq və məhkəmə iş materiallarına görə məhkəmə-tibbi ekspertiza.	2	4	6
Cəmi:		**282**	**360**	**370**

3.4. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə həkim-rezidentin təhsil proqramının yerinə yetirilməsi müddəti:

Ümumi həftələrin sayı – 156 həftə:

– Əmək məzuniyyəti – 12 həftə.

– Təlim həftələrinin sayı – 144 həftə.

O cümlədən:

– Kliniki təlim (praktiki və kliniki iş) – 123 həftə.

– Nəzəri təlim – 15 həftə.

– Təcrübələr (elmi-tədqiqat) – 3 həftə.

– Attestasiyalar – 3 həftə

- növbətçilik - ayda 4 dəfədən az olmayaraq

3.4.1. Hazırlığın son ilində həkim-rezident ixtisas üzrə 3 aylıq müddətinə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş respublikanın tibb müəssisələrinin birində sərbəst stajorluq keçməlidir.

4. MADDI-TEXNIKI, TƏDRIS BAZASı VƏ KADR POTENSIALı.

4.1. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə təhsil proqramına müvafiq tərtib edilmiş tədris planında nəzərdə tutulan həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin hazırlanması üçün Səhiyyə Nazirliyi tərəfindən baza kimi müəyyən edilmiş təhsil və elmi tibb müəssisələri, habelə aparıcı müəssisələr patoloji-anatomik və məhkəmə-tibbi müayinə və ekspertizaların aparılmasını təmin edə biləcək yüksək səviyyəli maddi-texniki bazaya malik olmalıdır.

4.2. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə Təhsil Proqramı Səhiyyə Nazirliyi tərəfindən baza kimi müəyyən edilmiş təhsil, elm müəssisələri və aparıcı müəssisələrdə aparıcı mütəxəssislər (rəhbər-kuratorlar) tərəfindən əyani formada aparılır.

4.3. Həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin hazırlığına rəhbərlik edən kuratorlara qoyulan tələblər:

4.3.1. Peşə vərdişlərinə yiyələnməsini təmin etmək üçün praktiki təcrübəsi 5 ildən çox olan yüksək ixtisaslı mütəxəssislər tərəfindən aparılır.

4.3.2. Tədris olunan nəzəri mövzuları ali təhsil müəssisəsinin elmi dərəcəsi və (və ya) elmi adı olan professor-müəllim heyəti tədris edir.

4.3.3. Rezidentin elmi-tədqiqat işinə qarşılıqlı razılığı əsasında ali təhsil və ya elmi-tədqiqat müəssisəsinin heyəti rəhbərlik edə bilər.

4.4. Rezidentin rotasiyalar keçdiyi müəssisələrin maddi-texniki bazalarına qoyulan tələblər:

4.4.1. Patoloji anatomiya Bürosu. Müvafiq avadanlıq və aparatlar, təşrih dəstləri və alətlər, meyitlərin saxlanılması üçün soyuducu kamera və digər vasitələrlə təchiz edilmiş meyitxana; göndərilmiş biopsiya materiallarının müvafiq şərait və avadanlıqlarla təmin edilmiş ilkin makroskopik müayinə otağı və makroskopik müayinə masası; ayrı-ayrı otaqlar şəklində arxivlər; müasir avadanlıq və aparatlar, reaktiv və laborator mebellərlə təchiz edilmiş patohistoloji laboratoriyalar; binokulyar mikroskoplar, mikroskop-digital kamera-kompyuter-printer sistemi və digər müvafiq texnologiya ilə təchiz edilmiş laboratoriyalar və iş otaqları.

4.4.2. Perinatal patologiyalar şöbəsi. Müvafiq avadanlıq və aparatlar, təşrih dəstləri və alətlər, meyitlərin saxlanılması üçün soyuducu kamera və digər vasitələrlə təchiz edilmiş meyitxana; göndərilmiş biopsiya materiallarının müvafiq şərait və avadanlıqlarla təmin edilmiş ilkin makroskopik müayinə otağı və makroskopik müayinə masası; ayrı-ayrı otaqlar şəklində arxivlər; müasir avadanlıq və aparatlar, reaktiv və laborator mebellərlə təchiz edilmiş patohistoloji laboratoriyalar; binokulyar mikroskoplar, mikroskop-digital kamera-kompyuter-printer sistemi və digər müvafiq avadanlıqlarla təchiz edilmiş laboratoriyalar və iş otaqları.

4.4.3. Məhkəmə-tibbi ekspertiza şöbəsi. Tanatoloji bölməsində müvafiq avadanlıq və aparatlar, təşrih dəstləri və alətlər, mobil rentgen aparatı, meyitlərin saxlanılması üçün soyuducu kamera və digər vasitələrlə təchiz edilmiş meyitxana; bütün zəruri aparat və avadanlıqlar, alət və reaktivlərlə təchiz edilmiş səyyar laboratoriya (aşkar edildiyi yerdə və (və ya) hadisə yerində meyitlərin müayinəsi üçün); ambulator şöbədə zərərçəkmişlərin, ittiham olunanların və başqa şəxslərin məhkəmə-tibbi müayinələri üçün bütün lazımi avadanlıqlar, kompyuter-printer sistemi, digər müvafiq elektron texnologiyaları ilə təchiz edilmiş müayinə və iş otaqları.

4.4.4. Məhkəmə-bioloji şöbə. Göndərilmiş maddi sübutların müvafiq şərait və avadanlıqlarla təchiz edilmiş ilkin makroskopik müayinəsi otağı; müasir laborator avadanlıq və aparatlar, alət və reaktivlərlə, binokulyar mikroskoplarla təchiz edilmiş laboratoriyalar; genetik müayinələrin həyata keçirilməsi üçün müasir aparatura və avadanlıqlar, reaktivlərlə təchiz edilmiş DNA-analiz laboratoriyası; mikroskop-digital kamera-kompyuter-printer sistemi, digər müvafiq elektron texnologiyalarla təchiz olunmuş laboratoriya və iş otaqları.

4.4.5. Məhkəmə-kimyəvi şöbə. Göndərilmiş materialların müvafiq şərait və avadanlıqlarla təmin edilmiş ilkin makroskopik müayinəsi otağı, kompyuterləşdirilmiş müasir kütlə-xromatoqrafiya, qaz-xromatoqrafiya aparatları, müasir laborator avadanlıqlar, mikroskop-digital kamera-kompyuter-printer sistemi və digər müvafiq elektron texnologiya ilə təchiz edilmiş laboratoriyalar və iş otaqları.

4.4.6. Məhkəmə-histoloji şöbə. Göndərilmiş meyit materiallarının müvafiq şərait və avadanlıqlarla təmin edilmiş ilkin makroskopik müayinə otağı və makroskopik müayinə masası; ayrı-ayrı otaqlar şəklində formalin arxivi, selloidin arxivi, preparatlar və sənədlər arxivi; müasir patohistoloji laborator avadanlıqlar; binokulyar mikroskoplar, mikroskop-digital kamera-kompyuter-printer sistemi və digər müvafiq elektron texnologiyalarla təchiz edilmiş laboratoriyalar və iş otaqları.

4.4.7. Tibbi-kriminalistika şöbəsi. Göndərilmiş maddi sübutların müvafiq şərait və avadanlıqlarla təmin edilmiş ilkin makroskopik müayinəsi otağı; müasir səyyar rentgen aparatı və kompyuter tomoqrafı, spektral və exoqrafik tədqiqatlar üçün aparatura və avadanlıqlar, fotoaparatlar, digər müasir laborator avadanlıqlarla təchiz olunmuş laboratoriyalar, fotolaboratoriya, trassoloji müayinələr və istintaq eksperimentlərinin keçirilməsi üçün laboratoriyalar; binokulyar mikroskoplar, mikroskop-digital kamera-kompyuter-printer sistemi və digər müvafiq elektron texnologiya ilə təchiz edilmiş laboratoriyalar və iş otaqları.

5. TƏDRIS PROSESİNİN FORMA VƏ METODLARı

5.1. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin hazırlığı, nəzəri təlim, həkim hazırlığı, ixtisas və ixtisaslaşma fənlərinin mühazirə, məşğələ, seminar, məsləhət, kuratorun rəhbərliyi və nəzarəti altında müayinə-diaqnostik işlərinin aparılması və sairə formada öyrənilməsi ilə təmin olunur.

5.2. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkimin hazırlığında elmi-tədqiqat və praktiki tibbi təcrübələr nəzərdə tutulur.

5.3. Rezidentura ərzində hər 1 rezident patoloji anatomiya və məhkəmə-tibbi ekspertiza üzrə ən azı 1128 ekspertiza və 5480 müayinənin iştirakçısı və (və ya) icraçısı olmalıı və görülən bu praktik işlər barədə gündəlikdə məlumat verməlidir. Onlardan:

Müayinə (ekspertiza)	**Ekspertiza**		**Müayinə**	
	(As)	**(P)**	**(As)**	**(P)**

.

Patoloji-anatomik meyit müayinəsi.	–	–	50	10
Patoloji-anatomik diaqnozun tərtibi.	–	–	50	10
Biopsiya müayinəsi:				
Cərrahi biopsiya.	–	–	1000	500
Diaqnostik biopsiya.	–	–	1000	500
İncə-iynə aspirasion biopsiya.	–	–	100	30
Perinatal patologiyalar şöbəsində:				
Düşüklərin antropometrik müayinəsi.	–	–	50	20
Ölüdoğulmuş meyit müayinəsi.	–	–	50	20
Diridoğulmuş meyitlərin müayinəsi.	–	–	50	20
Cərrahi biopsiya.	–	–	500	100
Diaqnostik biopsiya.	–	–	500	100
Məhkəmə-tibbi meyit müayinəsi:				
Meyitin aşkar olunduğu yerdə meyitə baxışın keçirilməsi, ölümün növünün və baş vermə müddətinin təyin edilməsi.	-	-	50	-
Qeyri-zorakı ölümlər zamanı meyit müayinəsi.	50	10	-	-
Zorakı ölümlər zamanı meyit müayinəsi.	100	10	-	-
Naməlum meyitlərin müayinəsi.	20	5	-	-
Parçalanmış meyitlərin müayinəsi. Meyitin restavrasiyası.	10	3	-	-
Kəskin çürümə dəyişikliklərinə məruz qalmış və ya skeletləşmiş meyitin, sümük qalıqlarının müayinəsi	30	10	-	-
Meyitin təkrar müayinəsi. Ekshumasiya. Ekshumasiya olunmuş meyitin müayinəsi.	5	-	-	-
Zərərçəkmişlərin, ittiham olunanların və başqa şəxslərin məhkəmə-tibbi müayinəsi:				
Sağlamlığa zərərvurmanın dərəcəsinin təyini	500	50	500	100
Cinsi vəziyyət və cinsi toxunulmazlığa qarşı edilən cinayətlər zamanı aparılan ekspertizalar.	200	30	30	10
Sağlamlıq vəziyyətinin təyini üzrə ekspertiza	10	5	-	-
Əmək qabiliyyətinin itirilməsinin həcminin (faizinin) təyiniüzrə ekspertiza.	10	5	-	-
İş materialları üzrə aparılan ekspertiza	10	5	-	-
Tibb işçilərinin peşə fəaliyyətində yol verdikləri qanunsuz hərəkətləri zamanı aparılan ekspertizalar	10	5	-	-
Məhkəmə-bioloji ekspertiza və müayinələr.	-	-	20	10
Məhkəmə-kimyəvi ekspertiza və müayinələr.	-	-	20	10
Məhkəmə-histoloji ekspertiza və müayinələr.	-	-	50	20
Tibbi-kriminalistik ekspertiza və müayinələr.	-	-	5	5
Aparılan müayinələrin ümumi sayi:	**955**	**138**	**4025**	**1455**

6. YEKUN DÖVLƏT ATTESTASİYASıNA QOYULAN TƏLƏBLƏR VƏ QİYMƏTLƏNDİRMƏ

6.1. 060929 – «Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza» ixtisası üzrə fərdi iş planları rezidentura hazırlığını həyata keçirən müəssisələrin müvafiq elmi və ya tibb şuralarının iclaslarında təsdiq edilir.

Rezidentlər hər tədris ilinin sonunda kuratorun iştirakı ilə təhsil aldığı müəssisənin elmi şurası (tibbi şurası) qarşısında hesabat verərək attestasiya olunur.

6.2. Rezidenturada təhsil alan həkimlərin yekun attestasiyası Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təsdiq etdiyi attestasiya komissiyası tərəfindən ali təhsil müəssisəsində aparılır.

6.3. Yekun attestasiya nəticəsində rezidentə "həkim-patoloqanatom – məhkəmə-tibbi ekspertiza üzrə həkim" ali peşə-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

7. 060929 – «PATOLOJİ ANATOMİYA, MƏHKƏMƏ-TİBBİ EKSPERTİZA» İXTİSASı ÜZRƏ YEKUN ATTESTASİYA FORMATı

7.1. Yekun attestasiya imtahanı iki mərhələdə – yazılı və praktiki komponent üzrə həyata keçirilir. Yekun attestasiyanın hər hansı mərhələsindən keçə bilməyən rezidentlər attestasiya komissiyasının müəyyən etdiyi vaxtda həmin mərhələ üzrə təkrar yekun attestasiyadan keçirlər.

7.2. Birinci mərhələ – Yazılı Komponent. Birinci mərhələdə rezident üç saat ərzində 100 test suala cavab verir. Test informasiya texnologiyaları və xüsusi optik cihazlar vasitəsilə oxunan sual vərəqəsi üzrə aparılır. Testin yekununa görə 60 və ya daha çox bal toplayan rezidentlər yekun attestasiyanın ikinci mərhələsinə buraxılırlar.

7.3. İkinci mərhələ – Praktiki Komponent. İkinci mərhələdə rezident tərəfindən 8 müxtəlif müayinə (və/və ya ekspertiza) araşdırılır. Müayinələrin araşdırılmasına təsviri hissə və sərbəst diaqnozun qoyulması (və ya nəticə) və digər aspektlər aiddir. Müayinələrin araşdırılması attestasiya komissiyası tərəfindən məqbul hesab edildikdə rezident yekun attestasiyanın ikinci mərhələsindən müvəffəqiyyətlə keçmiş hesab olunur.

.